Türk ellərindən-9

ƏLİ ŞAMİL

DOĞU TÜRKÜSTAN:

YOL QEYDLƏRİ, MƏQALƏLƏR

Bakı – 2026

Redaktorlar: **Reyhan Dadaşova**
Filologiya üzrə fəlsəfə doktoru,

Vəfa Saleh

Şamil Əli (Şamilov Əli Hüseyn oğlu).
Doğu Türküstan: yol qeydləri, məqalələr,
Bakı: "İmza" nəşrlər evi, 2026, 352 s.

Çinin Sincan Uyğur Muxtar Rayonu orada yaşayan Türklərin qədim torpaqlarıdır. Çinlilər bu yerləri işğal etdikdən sonra onu Sincan (Xinjiang) adlandırmışlar. Keçmişdə bu yerlər Şərqi Türküstan adlandırılırdı. Kitaba Azərbaycandan çox uzaqda görünən Sincanda yaşayan, lakin dili, mədəniyyəti, mənəviyyatı bizə yaxın olan uyğur, qazax soydaşlarımız haqqında məqalələr və yol qeydləri daxil edilmişdir.

İSBN 978-9952-37-837-5

© Əli Şamil, 2026.

İÇİNDƏKİLƏR

Bu kitabı niyə oxumalı!?.....4
Yol qeydləri.....16
Ömrümün ən gözəl hədiyyəsi: Urumçi, Kaşqar yolçuluğum.....17
Elmi məqalələr 60
Uyğur türklərində folklor və ədəbiyyatın inkişafı.....61
Azadlıq sevər uyğurlar üçün şəhid şair Lutpulla Mütəllip nümunəsi 162
Azadlıq uğrunda şəhid olan Altay pələngi – Osman Batur..... 178
Azerbaycan'da "Dîvânu Lugâti't-Türk"ün İlk Öğrenilmesi ve Çevrilmesi..... 234
Azerbaycan'da "Divan"ı İlk Tanıtanlardan Birinin Acı Taleyi …….261
"Kutadgu Bilig"in Azerbaycan'da Tanıtılmasında ve Avrupa Metotları ile Araştırılmasında Emin Abid'in Rolü..... 271
Azerbaycan'da "Dîvânu Lugâti't-Türk "ün Türkçe'ye Çevrilmesine İlk Kez Çaba Göstermiş Muhsin İbrahimi..... 287
Türk dünyasının məşhurları 308
Ahmedcan Kasımi..... 309
Əlixan Törə Saquni 316
Mehmet Emin Buğra..... 326
Sabit Damolla Abdülbaki..... 334
Yusif Xas Hacib Balasaqunlu 343

BU KİTABI NİYƏ OXUMALI!?

Qənimət Səfərov

Kitab oxuyan insanlar bir ömürdə yüzlərlə ömür yaşayır, hər səhifə insanın düşüncələrini zənginləşdirir və ruhunu dinləndirir.

Nizaməddin Şəmsizadə

Əziz oxucular, hörmətli kitab sevərlər, yaxın günlərdə kitab rəflərinizi yeni bir əsər – "Doğu (Şərqi) Türküstan: yol qeydləri, məqalələr" kitabı bəzəyəcək. Kitabın müəllifi uzun illərdir Türk ellərindən məqalələr və kitablar nəşr etdirən Əli Şamildir. Onunla şəxsi tanışlığımızın tarixi 40 ili keçir. Birlikdə Türk ellərinə səfərə çıxmış, Azərbaycana gələn Türk aydınlarını, iş adamlarını birlikdə qarşılamış, onlarla birgə millətlərimizin gələcək taleyini birgə uzun-uzadı müzakirə etmişik.

Müəllifi tanımayanlar üçün bir neçə kəlmə:

Əli Şamil ali məktəbdə jurnalist ixtisasına yiyələnib. 20 ilə yaxın Naxçıvandakı "Şərq qapısı" (Sovet Naxçıvanı) qəzetində işləyib. Ucqar əyalət qəzetində çalışdığı illərdə Bakıda çap olunan qəzetlərə, eləcə də keçmiş SSRİ-nin tərkibindəki muxtar respublikalarının və muxtar vilayətlərin

qəzetlərinə məqalələr yazıb, həmin qəzetlərdə işləyən jurnalistlərin bölgə haqqında yazdıqlarını "Şərq qapısı" qəsetində müstəqil səhifə kimi çap etdirib.

Bakıya köçdükdən sonra Azərbaycan Milli Ensiklopediyasında, AMEA Folklor İnstitunda işləyib. Yazılarının əsas mövzusu Türk elləri olub. Ona görə də dost-tanışları çox vaxt onu "Turan dünyasının Məcnunu", "Türk dünyasının Əli Şamil hocası", "Turan sevdalısı" adlandırıblar. Onun yaşam tərzi, fəaliyyəti orta yüzillərin dəvrişlərini xatırladır.

Göründüyü kimi olan, olduğu kimi görünən, əməli ilə sözü üst-üstə düşən, yaltaqlanmağı bacarmayan, ədalətin yanında durmağa çalışan, bəzən həqiqəti deməsilə dost-tanış arasında umu-küsü yaradan bu adam sözündən geri durmayıb. Ondan inciyənlərin çoxu sonra yaxın dostuna çevriliblər. Biliblər ki, onun dedikləri qərəzli deyil. Ətrafındakılara acılı-şirinli sevgi verməyi bacaran, şəxsi marağın nə olduğunu bilməyən, uzaq və yaxın keçmişimizin qaranlıq səhifələrinə işıq salmaqla gənc nəsli vətənpərvərlik ruhunda böyüdür.

Mən ilk dəfədir ki, kitaba ön söz yazıram. Buna da səbəb müəllifin təkidindən sonra

verdiyim qərardır. Əli Şamilin redaktə ilə məşğul olan peşəkar dostları çoxdur. Onlar üçün məqalə və kitab redaktə etmək, kitaba ön söz yazmaq, su içimi kimidir. Amma bu kitaba ön söz yazmağımı təkid etməsi məni təəccübləndirdi və məsuliyyətimi artırdı. Əslində Əli bəyi anlayıram. O istəmirdi ki, ön söz qəlibə salınmış və ən azı süzgəcdən keçirilmiş olsun. Uzun illər Doğu Türküstan mövzusunda onunla çox söhbətlərimiz olub. Kitabdakı məqalələr üçün materialların çoxunu mən gətirmişəm. Ona görə də mənim fikirlərim Əli Şamil üçün maraqlı idi. Düşünürdü ki, başqa oxucular üçün də maraqlı olacaq.

Hörmətli oxucular! Əgər bu kitabı oxuduqdan sonra xoşunuza gəlməsə, itirdiyiniz vaxta görə sizdən üzr istəyirəm. Ancaq əminəm ki, bu kitabı oxumaqla böyük bilik, zövq və mənəvi zənginlik əldə edəcəksiniz. Səbəb:

- Yol qeydləri istisna olmaqla, bütün məqalələr elmi olub, ensiklopedikdir. Dəqiq faktlar, rəqəmlər və tarixlərlə zəngindir;

- Kitab türklərin ən böyük və qüdrərli soylarından biri olan uyğurlar haqqındadır. O uy\urlar ki, 5 Çin imperatoruna dünyanın 7 möcüzəsindən biri olan, Çin səddini tikdiriblər. Uzunluğu 1980 km-dən çox olan Çin səddinin

tikilməsi uyğurların qüdrətindən, döyüş bacarığından, hərb sənətinə hakim olduqlarından xəbər verir;

- O uyğurlar ki, Türk dünyasının 4 qızıl kitabından ikisini – Mahmud Kaşqarinin "Divanü lüğat-it-türk" və Yusif Xas Hacib (Balasaqunlunun) "Qutadğu bilig" əsərlərini onların övladları yazmışlar;

- O uyğurlar ki, onların sərhədləri Pekinin 70 km-dən keçib, Çin sərhədindən Pakistan sərhədinə kimi 500 km-dən çox çətin keçilən dağ silsiləsindəki sərhədi onlar qoruyublar.

- O uyğurlar ki, Türküstanda neçə-neçə qüdrətli dövlət yaradıblar.

- O uyğurlar ki, onların torpaqları son yüzillərdə iki imperiya arasında bölünüb.

Bəşər tarixində çox imperiyalar yaranmışdır. Hər toplum yaxşı halda bir imperiyaya sahib olmuş, onun sərhədlərini genişləndirmiş, sonra da dağılanda tarix səhnəsindən silinmişdir. Amma türklər 20-yə yaxın imperiya, neçə-neçə dövlət yaratmışlar. Dünyada bütün imperiyalar bir-birinə bənzəyir. Hansı ideologiyadan istifadə etməsindən asılı olmayaraq, əsas mahiyyəti onun işğal etdiyi ərazilərin təbii sərvətlərini, maddi olaraq və o yerlərin əhalisini istismar etməklə güclü bir

meqapolis yaratmaq olmuşdur (Paris, London, İstanbul, Roma və b.). Mövcud olma və idarəetmə formalarında bir-birinə bənzəmişdir (parçala, hökm et!). Adların, mədəniyyətlərin, dillərin, əlifbaların terminlərin və s. keçmişinə bağlı nə var, dəyiş, öz içində ərit, istifadə et və manqurtlaşdır.

Uyğurlar tarixən Türküstanın bir parçasında yaşasalar da, müharibələr zamanı Qərbə doğru hərəkət edən qüdrətli orduların tərkibində də olmuşlar. Ona görə də bugünkü Azərbaycan Respublikasında, İran İslam Respublikasında, Türkiyədə, İraqda, Suriyada, Balkanlarda, hətta Hindistanda, Pakistanda, Estoniyada uyğur soylu çoxlu insanlar yaşayır. Onlar özləri ilə yaşadıqları bölgələrin toponimlərini, hidronimlərini də yeni məskunlaşdıqları yerlərə gətirmişlər.

Bu gün rəsmi sənədlərdə Uyğurstan, Doğu (Şərqi) Türküstan deyilən inzibati ərazi vahidləri yoxdur. Tarixi Türküstanın ÇXR sərhəddində yerləşən çox qədim tarixə, mədəniyyətə, ədəbiyyata, təbii sərvətlərə malik olan ərazisinin adını işğalçılar dəyişərək "yeni torpaq", "yeni işğal edilmiş ərazi" qoyublardir. Uyğurstanla Çin səddinin arasında keçilməsi çox çətin olan bir səhra var. 1990-cı ilə qədər bu əraziləri birləşdirən bir dəmir yolu və bir şosse yol vardı.

Elm və texnologiyanın inkişafı nəticəsində yeni yollar, kommunikasiya xətləri çəkilib. Bu yerlərin təbii sərvətlərə tələbat artdığından bölgə sürətlə çinliləşdirilib. Son illərdə yerli əhali ilə müqayisədə çinllərin sayı sürətlə çoxalır. Çində əhali sürətlə artdığına görə onu idarə etmək, yedirtmək problemə çevriləcəyini düşünən hökumət "ailə planlaşdırması" siyasəti yeritdi. Çinlilərdə hər ailənin bir, milli azlıqlarda iki övladın olması planlaşdırıldı. Bir övladdan artıq uşağı olan məmurlar sərt cəzalandırıldı. Buna baxmayaraq ailələrdə "artıq" uşaqlar meydana gəldi. Bu xüsusən müsəlmanlar arasında özünü göstərdi. Hökumət "artıq uşaqlar"ın məktəb xərclərini, yedirdilməsini, geydirilməsini öz üzərinə götürmədi. Nəticədə dövlət sektorlarında iş verilməyən "artıq uşaqlar" ucuz işçi qüvvəsi kimi özəl sektorlara üz tutdular. Bu da özəl sektorun sürətli inkişafına təkan verdi.

Hökumət sənədsiz insanların ölkəni bürüdüyünü görüb hər ailənin bir övladı olması qanununda dəyişiklik etmək məcburuiyyətində qaldı.

Biz bu gün biz Dağıstanla nə qədər bağlıyıqsa, uyğurlar da tarixən Özbəkistan, Tacikistan, Qırğızıstan, Qazaxıstanla o qədər sıx bağlıdırlar.

Qədim Urumçi-Daşkənd, Urumçi-Xorqos-Almatı, Urumçi-Bişkek yolları buna əyani sübutdur. Urumçi-Xorqos yolları təxminən 1700 km olub, Tenqri (Tanrı) dağları (Tyanşay) ətəkləri ilə dağların zirvəsinə qalxır. Bu dağların zirvəsində qeyri-adi bir göl var. Həmin gölün ortasında bir qəsr yerləşir. Bu gün də yerli əhali bu yerləri "Teymurləng yolu", "Teymurləng gölü" və "Teymurləng qəsri" adlandırır.

Şərqi Türküstanda (Uyğurstanda) UNESCO-nun "Kəhrizlər muzeyi" var. Dünyanın hər yerindən bu muzeyə turistlər axışır. Türklərin orta əsrlərdə mövcud olan bu su təsərrüfatı mədəniyyəti Türk sivilizasiyasının qədimliyini, elmi və təcrübi cəhətdən yüksək səviyyəsini əyani şəkildə sübut edir. Səhrada çəkilmiş kəhrizlər Azərbaycan kəhrizlərindən çox fərqlənir. Azərbaycanda kəhrizlər dağ yamaclarından düzənliyə uzanır, uzunluğu 3-5 kilometrdən 10-15 kilometrədək olur. Doğu (Şərqi) Türküstanda isə mənbəyini qarlı dağların yamaclarından götürən kəhrizlər yeraltı yol ilə suyu 50-60 kilometrədək daşıya bilir.

Uyğurların mədəniyyətinə olan sevgimdən onun torpağını qarış-qarış gəzmişəm. Haradasa saysız-hesabsız sayda muzeylərində olmuşam.

Kitabxanalarında, muzeylərində, aşıq saraylarında, xalça muzeylərində, ayrı-ayrı ailələrdə qonaq olmuşam. Müəyyən qədər bizdən fərqli və oxşar olan yemək, qonaqpərvərlik, ədəbi və b. mədəniyyətləri ilə tanış olub, onları çox sevib sevilmişəm. Qürur duymuşam ki, mənim uyğur türkləri kimi sevgi ilə yaşayan, ədalətli, mübariz, öz köklərinə dərindən bağlı olan və qonaqpərvərliyi, azadlığı hər şeydən üstün tutan bacı-qardaşlarım var.

Bu kitabı oxuyana qədər elə bilirdim uyğurlar haqqında çox şey bilirəm. Ancaq sonra gördüm ki, bildiklərim çox az imiş. Kitabdakı məqalələr mənə görə duyğusallıqdan uzaq, elmi və ensiklopedik üslubda yazılmışdır. Hər fikrin arxasında ciddi qaynaq dayanır. Amma Doğu (Şərqi) Türküstana gedib-gələrkən eşitdiklərimin, gördüklərimin çoxu da bu kitabda yoxdur. Dünyanın inkişaf etmiş ölkələrində, xüsusən ABŞ və Avropada İslam dini əleyhinə güclü təbliğat gedir. "İslam fundamentalizmi" ifadəsi az qala terrorla eyniləşdirilir. Amma unutmamalıyıq ki, Doğu (Şərqi) Türküstandakı türklərin "böyük Çin dənizində" məhv olmamasının əsas səbəbi "İslam fundamentalizmidir". Uyğurlar çinlilərlə nəinki işbirliyində olanlara, hətta onlara əl verib

salamlaşanlara çox pis baxırlar. Hətta Çinin hər hansı bir guşəsinə iş ardınca getmək məcburiyyətində qaldıqda yeməyini də özü ilə aparır. Çinlilərin işlətdiyi yeməkxanalara girmir, Çin mağazalarından heç bir ərzaq almırlar. Çinlilərlə belə məsafə saxlayan yalnız müsəlman uyğurlar deyil. Dilləri Çin dilinin bir dialekti olan, lakin müsəlman olan dunqanlar da çinlilərə qarşı uyğurlar kimi davranırlar.

20 yüzildə İranda yaranmış Milli Hökumət və Doğu (Şərqi) Türküstan hökuməti haqqında xeyli material oxumuşdum. Amma onları müqayisə etmək haqqında düşünməmişdim. Bu kitabda isə hər iki xalqın faciəsinin eyni yerdən – keçmiş SSRİ-dən gəldiyi göstərilir. Təkcə bununla kifayətlənilmir, 19-20-ci yüzildə Doğu (Şərqi) Türküstanda müstəqil dövlət qurmaq cəhdləri xarici müdaxilə və daxili ziddiyyət nəticəsində uğursuzluğa düçar olması faktlarla oxucuya çatdırılır.

Müəllif uzaq keçmişdən, Hun imperiyasından, Göytürk dövlətindən geniş söz açmır. Əsas diqqəti bizə yaxın dövrə yönəldir. O dövrdə yaşayanların ya söhbətlərini dinləmişik, ya da xatirələrini oxumuşuq. Onların yanlışlıqları bizə bir dərs olub.

Keçmişimizə baxanda müstəmləkə boyunduruğu altına düşməyimizin, məğlub olmağımızın səbəblərini özümüz müəyyənləşdirməliyik. Bu kitab özümüzü anlamağa, bəlalarımızın səbəbini dərk etməyə xidmət edən bir vasitədir. Dünya güclülərin, güc isə arxasında elmin, imanın, zəhmətsevərliliyin, ədalətin dayandığı insanlarındır.

Bu kitabın müəllifi ilə birgə Kaşqarda olarkən Yusif Xas Hacibin məqbərəsini də ziyarət etdik. Dövlətin idarə edilməsi ilə bağlı "Qutadğu bilig" kimi əsəri yazan mütəfəkkirin məqbərəsi kiçik və sadə olsa da, oraya giriş biletinin qiyməti təxminən 30 dollardır. Burada da, Mahmud Kaşqarinin məqbərəsində olduğu kimi, məzar yer səthindən aşağıda deyil. Yer səthindən yuxarıda, təxminən insan qurşağı hündürlüyündədir. Yalnız üzərində məqbərələr ucaldılmış müqəddəslərin məzarları yer səthindən yuxarıdakı kərpic otaqlarda deyil, qəbristanlıqlardakı məzarların əksəriyyəti də belədir.

Azərbaycandan uzaqlarda olan məqbərənin pəncərələri Şəki xan sarayının pəncərələrini yadıma saldı. O dəqiqə anladıq ki, bu şəbəkə tipli pəncərələr buradan Azərbaycana gedib. Keçmişdə Azərbaycanla Uyğurstan əlaqələri çox sıx

olmuşdur. Azərbaycanda çoxlu uyğur toponimləri və hidronimləri bu gün də mövcuddur. Dostumuz İsgəndər bəyin qaynanası (Mahirə xanımın anası) danışırdı ki, onun xalası 1937-ci ildə Azərbaycandakı Ağsu rayonuna gəlin köçmüşdür. Bu, onu göstərir ki, İkinci Dünya Savaşına kimi Azərbaycanla Doğu (Şərqi) Türküstan arasında qohumluq əlaqələri davam edirmiş.

Urumçidən fərqli olaraq Kaşqarda inkişaf aşağı səviyyədədir. Burada maşından çox elektiriklə işləyən motosikletlərdən istifadə edilir. Yol qovşaqlarında yüzlərlə elektrik motesikletinin dayanaraq keçmək üçün növbə gözlədiyini görəndə yadıma Pakistanın şəhərləri düşdü. Orada da nəqliyyat vasitəsi kimi ən çox elektriklə işləyən motesikletlərdən istifadə edilir.

Deyirlər, ÇXR-da Mao Szedunun iki heykəl-abidəsi qalıb. Onlardan biri Kaşqar şəhərinin mərkəzi meydanındadır. Əzəməti ilə diqqətimi cəlb edən bu abidə yadıma Leninin heykəllərini saldı. Rusiyanın mərkəzi şəhərlərindəki Leninin əzəmətli heykəlləri çoxdan sökülüb atılsa da, formal da olsa, əsarətdən azad olmuş Türk respublikalarının bir neçəsinin mərkəzi şəhərlərində Leninin heykəlləri hələ də durur. Bu,

onu göstərir ki, insanlar hələ də müstəmləkə düşüncəsindən azad ola bilməyib.

Kaşqarda böyük texnika köhnə şəhəri hər yerdə sökür, yerində müasir, ucamərtəbəli binalar tikirlər. Deyəsən, bizdə İçərişəhər saxlandığı kimi orada da Kaşqarın qala içərisindəki hissəsi saxlanılacaq. Ora da olduqca baxımsız vəziyyətdədir. Yəqin ki, gələcəkdə oraya da əl gəzdirəcək, turistik mərkəzə çevirəcəklər.

Əli Şamilin "Doğu (Şərqi) Türküstan: yol qeydləri" məqalələr kitabı uyğurların ədəbiyyatından, tarixindən söz açır. Bu təqdir edilməlidir. Kitabdakı yol qeydlərini oxuyanda fikirləşdim ki, kaş azərbaycanlı alimlər Uyğurstana tez-tez gedələr, oradan publisistik məqalələr yazalar. Ölkənin bugünkü iqtisadi inkişafı və sıxıntıları haqqında Azərbaycan oxucusuna daha geniş bilgi verələr.

YOL QEYDLƏRİ

ÖMRÜMÜN ƏN GÖZƏL HƏDİYYƏSİ: URUMÇİ, KAŞQAR YOLÇULUĞUM

Uyğurlara və Uyğurstana məndə marağı Mahmud Kaşqarlı və onun "Divanü lüğəti-it-ürk" əsəri haqqında yazılanlar oyatmışdı. Xalid Səid Xocayevin kitabı ilk dəfə Azərbaycan türkcəsində çevirməsi marağımı daha da artırmışdı. Lakin çap olunmamış, arxivdə qalmış əsəri görsəm də oxuya bilməmişdim. Besim Atalayın Türkiyə Türkcəsində çap etdirdiyi kitabın ön sözünü oxusam da mətni oxumağa səbrim çatmamışdı.

Qazaxıstanda yaşayan uyğurlar üçün hazırlanmış "Uyğur tili" dərsliyi tələbəlik illərində əlimə keçmişdi. Onu daha həvəslə oxuyurdum.

Uyğurstana getmək həvəsim çox olsa da Sovet dövründə bunu bacarmamışdım. Sonrkı illərdə də başım milli azadlıq hərəkatına qarışdığından bu mövzuda heç düşünməmişdim.

1993-cü ildə Bakıya köçdükdən sonra söhbətlərindən bildim ki, Qənimət Səfərov ailəsini halal zəhməti ilə dolandırmaq, toplum arasında gözükölgəli olmamaq üçün alver məqsədilə Çin Xalq Respublikasına tez-tez gedir. Necə deyərlər, ailəsinin çörəyini əjdaha ağzından çıxarırdı. Dolanışığın çətin olduğu günlərdə dostlarımızdan bir neçəsini də oraya aparıb. Lakin onlar bir dəfə gediblər. Çətinliyə dözə bilmədiklərindən sonra getməyiblər. Qənimət bəy isə

dözüb və ticarətini genişləndirib. Ticarətdən əldə etdiyi gəlirdən dost-tanışın xeyir-şərində səxavətlə xərcləyib. Dara düşənlərin köməyinə çatıb. Maaşa dolananlarla yeməkxanaya gedəndə, səfərə çıxanda onlara əllərini ciblərinə salmağa imkan verməyib. Bir neçə araşdırıcının Doğu Türküstana gedib-gəlməsini maliyyələşdirb. Necə deyərlər, səssiz-səmirsiz xeyriyyəçilik edib.



Urumçidə qaldığımız hoteldən şəhərin köhnə məhəlləsinin görünüşü

Xərci çox çıxdığını bildiyimdən heç vaxt məni də uyğurlar yaşayan bölgəyə aparmasını və ya yol xərclərimi ödəməsini dilimə gətirməmişdim. Amma o, ürəyimdən keçənlərdən xəbərdar idi. Buna görə də,

Sincan Uyğur Muxtar Rayonunda uyğur türkcəsində çap olunmuş köhnə və yeni kitabları, jurnalları, bölgədə yaşayan türk xalqlarının musiqisi yazılmış diskləri Azərbaycana satışa göndərdiyi malların arasında mənə gətirirdi. Bilirdim ki, onun bu işlərinədən Çinin gömrük işçiləri xəbər tutsalar, sərt cəzalandıracaqlar.

Ona xətər toxunmasını istəməsəm də gətirdiklərinə də, nəinki yox deyə bilirdim, hətta Türkiyədəki dostlarımın istədiklərini də Qənimət Səfərov vasitəsilə gətirtdirirdim. Onda Çın gömrüyündə qaydalar indiki kimi sərt olmasa da Türkiyəyə yola salınan malların yoxlanmasına daha çox diqqət yetirirdilər. Azərbaycanı yeni qurulmaqda olan zəif ölkə, oraya gedənlərini siyasətdən uzaq, ailələrini dolandırmaq üçün çanta ticarətilə məşğul olanlar kimi tanıyırdılar. Yüzlərlə xırda-xuruş alıb satanların arasında Qənimət kimi milli şüurlu insanların olduğu ağıllarına gəlmirdi.

Mən də yaranmış bu imkandan istifadə edib, necə deyərlər, Qənimət bəyin hesabına at oynadırdım. Uyğurlar haqqında məqalələr yazıb çap etdirir, radio verilişləri hazırlayır, uyğurlarla maraqlananlara kasetlər, kitablar, jurnallar verirdim. Çin gömrüklərində texniki avadanlıqlar təkmilləşdirildikdən sonra oradan ideoloji materiallar gətirmək çətinləşdi. Az sonra isə tam mümkünsüz oldu. Amma orada baş verənlər haqqında xəbər

mənbəyimiz kəsilmədi. Bu siyasi yönlü bir əlaqə deyildi. Şəxsi dostluq, mədəni yönlü bir əlaqə idi.

Səfərə çıxarkən yolda oxumağa bir neçə kitab götürməsi Qənimət bəydə adətə çevrilmişdi. Çinin gömrük işçiləri bunu öncələr heç də xoş qarşılamırmış. Çünki kitabları yoxlamaq, məzmunundan xəbər tutmaq, onlar üçün heç də asan olmurmuş. Bəzən yoxlama uzun çəkdiyindən təyyarənin uçuş müddətini yubatmalı olurlarmış. Kitabların dünya klassiklərinin əsərləri olduğunu, orada Çin dövlətinin əleyhinə bir şey olmadığını görüb kitablarını özünə qaytarırlarmış.

Dəfələrlə bu hərəkət təkrarlandığından, sonralar Çinin gömrük məmurları, onun kitablarını yoxlamağa vaxt ayırmır, əksinə təbəssümlə yola salarlarmış.

Qənimət bəy Urumçidə tanış olduğu, dostlaşdığı insanlardan söhbət açır, orada gördüklərini, eşitdiklərini bizə danışmaqla kifayətlənmirdi. Uyğur dostlarını, onların ailə üzvlərini də Bakıya gətirir, bizlərlə tanış edirdi. Beləcə, Qənimət Səfərovun hesabına uyğurlarla çanlı bağlantı da qura bilmişdik.

1920-ci illərdə bölgədə Sovetlər Birliyinin təsiri güclü olsa da, SSRİ-də və Türkiyədə Türk xalqları ərəb qrafikalı əlifbadan latın qrafikalı əlifbaya keçsələr də, Uyğurlar bu hərəkata qoşulmadılar. Lakin Çin hökuməti 1958-ci ildə uyğurların ərəb qrafikalı əlifbadan Latın qrafikalı əlifbaya keçmələri

haqqında qərar verdi. 1960-1965-ci illərdə yeni uyğur əlifbası adlandırılan Latın qrafikalı əlifbaya keçid başa çatdı. Lakin, nədənsə, bu o qədər də uzun sürmədi. Çin hökuməti 1982-ci ildən ənənəvi ərəb qrafikalı əlifbaya keçid haqqında qərar verdi.

Orta yaşlı insanlar məktəblərdə Latın qrafikalı əlifba ilə yazılmış dərslikləri, çap olunan qəzet və jurnalları oxuduqlarından Qənimət bəyin Azərbaycandan apardığı kitabları, qəzet və jurnalları da rahat oxuyurlarmış.

Urumçidə geniş və yaraşıqlı bir xiyabanla gedərkən Qənimət bəy yolun sağındakı və solundakı binaları göstərərək deyir: "Bunların hamısı ali və orta təhsil ocaqları, texniki peşə məktəbləridir. Hər birinin yanında müəllimlər üçün mənzillər, tələbə və şagirdlər üçün yataqxanalar var. Şagirdlər və tələbələr burada qalmaqla yanaşı, onların dərs vəsaitləri, yeməkləri, geyməkləri dövlət tərəfindən qarşılanır. Təhsil haqqı pulsuzdur. Azsaylı xalqların uşaqları ana dilində ibtidai təhsil alırlar. Sonra Çin dilində təhsillərini davam etdirirlər. Ölkədə təhsilə ayrılan büdcə heç də dövlətin istehsalata ayırdıı vəsaitdən az deyil".

Küçədə boynunda qırmızı qalstuq olan məktəbliləri görəndə yadıma uşaqlığım düşdü. Bizi də müəllimlərimiz məktəbə gələrkən mütləq üçkünc qırmızı qalıstuk bağlamamızı məcbur edirdilər. Qapıda duran növbətçi müəllim kimin boğazında

qırmızı qalustuk olmursusa onu məktəbə girməyə qoymurdular. Dəcəllər məktəbin arxa tərəfindəki pəncərədən sinif otaqlarına girəndə isə müəllimlərimiz çox vaxt heç nə demirdi.

Çin Sovetlər Birliyi kimi qapalı ölkə olsa da, 1980-ci illərin sonlarında xaricdə təhsil almağa getmək istəyən gənclərini üzünə qapılarını açdı. Xarici ölkələrə gedənləri çoxu təhsilini başa vurub geri döndü. Sərbəst iqtisadi zonalar yaradılması ölkəyə sərmayə axınına və xaricdə təhsil alanların vətənlərində işlə təmin olunmasına şərait yaratdı.

Qənimət bəy deyir ki, ölkədə kitab mağazalarının sayı hesabı yoxdur. Hər kitab mağazasının işərisində oxu zalı da var. Kim istəsə, gəlib mağaza rəfindən kitabı alıb oxu zalında rahat oturub oxuya bilər. Kitabı oxuyub başa çatdırmadınsa, onu yerinə qoyub səhər gəlib yenidən davam edə bilərsən.

Qənimət bəy deyirdi ki, biz Urumçiyə yeni gedəndə əhalisi 1 milyona yaxın olsa da şəhərdəki evlərin əksəriyyəti Bakının Alatava, Xutor deyilən məhəllələrindəki evlər kimi idi. Əhalini güzaranı da çox pis idi. Kasıbçılıq, qıtlıq hər addımda hiss edilirdi.

Şəhərin surətlə inkişafında iki faktor önəmli rol oynadı. Birinci və ən başlıca amil Dən Siyaopinin (Deng Xiaoping) “iqtisadiyyatda kaptalizm,

siyasətdə sosializm" siyasəti, ikinci Sovetlər Birliyinin surətlə çöküşü.

Keçmiş SSRİ-də deyil, Avropadakı sosialist ölkələrində də əhalinin ucuz məhsullara böyük ehtiyacı olduğunu görən Çin hökuməti bölgəni Azad iqtisadi zona elan etdi. Ölkənin hər yerindən iş adamları Urumçiyə axışdılar. Öncə yaranmış kiçik bazarların yerini nəhəng ticarət mərkəzləri tutdu. Ticarətlə yanaşı yeni istehsal sahələri də yarandı. 30 ildə 1 milyon əhalisi olan geridəqalmış Urumçi şəhəri 5 milyon nüfuzlu yüksək inkişaf etmiş bir şəhərə çevrildi. Bununla hökumət bölgədə çinlilərin sayının surətlə artmasına da nail oldu.

İsgəndər Tursun oğlunun, xanımı Mahirənin, oğlu Mövlanın, qızı Müqəddəsin Bakıya gəlişi yalnız ailələrimizdə deyil, onları tanış etdiyim iş yoldaşım arasında da bayram əhval-ruhiyyəsi yaradırdı. Onların bir-birləri ilə tərcüməçisiz danışması, atmacalarına atmaca ilə cavab verməsi, gənclərin daha çox xoşuna gəlirdi. Bir dəfə iş yoldaşlarımdan Vəfa Saleh və Aynur Qəzənfərqızından Müqəddəsi İçərişəhərdə gəzdirmələrini xahiş etmişdim. Onlar da böyük həvəslə, nəinki İçərişəhəri gəzdirmişdilər, uyğur qızına Azərbaycanı tanıtmağa çalışmış, onu bərkə-boşa da çəkmişdilər.

Qız qalasındakı muzeyi gəzib yorulduqda fikirləşiblər ki, qalanın dibindəki çayxanada əyləşib Azərbaycanın çay dəstgahını Müqəddəsə

göstərsinlər, dinclərini aldıqdan sonra durub gəzintilərini davam etdirsinlər. Süfrə arxasında Vəfa Saleh Müqəddəsdən xəbər alır: “Sən kimin qızısan?” Müqəddəs ilk tanışlıqda atası, anası, qardaşı və başqa qohumları haqqında bilgi verib adlarını deyibmiş. Başa düşür ki, Vəfa atasının adını unutduğundan təkrar xəbər almır. Onun hazırcavablığını yoxlamaq istəyir. “Əli müəllimin qızıyam!” Qızlar onun çoxbilmişliyinə güləndə pərt olmur. “Urumçidə İsgəndərin qızıyam. Bakıya gələndə Qənimət bəyin evində qalır, ailə üzvlərindən birinə çevrilir, onun qızı oluram. Ona görə kim xəbər alsa, Qənimət bəyin qızıyam deyirəm. Məni gəzdirməyi sizə Əli müəllim tapşırıb. Demək onun qızıyam ki, siz mənə belə qayğı göstərirsiniz”, − cavabını verir.

Müqəddəs bir neçə dil bilən, savadlı, diribaş, hazırcavab bir qızdı. O, Pekindəki milli azlıqlar üçün açılmış, ildə 25 tələbə qəbul edən universitetdə qiymətlərinə görə birinci olmuş, sonra da yeni ixtisas qazanmaq üçün ikinci bir universiteti bitirmişdir.

Çin Xalq Respublikasında “azınlıq” deyilən xalqların eləsi var ki, sayı 100 milyonu keçir. Buna baxmayaraq Çində azsaylı xalqlar ölkə əhalisinin cəmi 2 faizini təşkil edir. Onların arasında sayına görə monqollar birinci, uyğurlar ikinci yerdədir. Qazaxların, tatarların, özbəklərin sayı isə 0000-dan sonra gələn rəqəmlə göstərilir.

Xanımım da Mahirə ilə, Müqəddəslə söhbət etməkdən, Bakını birlikdə gəzməkdən, birlikdə Azərbaycan yeməkləri hazırlamaqdan ləzzət alır. Azərbaycan mətbəxinə böyük maraq göstrən Mahirə xanım ali təhsilli və təcrübəli həkimdir. Onun atası, anası, bacısı, qardaşı da həkimdir. Mahirə xanım Azərbaycandan Urumçiyə getmiş onlarla insanı müalicə edib vətəninə yola salmışdır.

Şəkildə
Murad Əziz



İsgəndərin sayəsində uyğur araşdırıcısı Murad Əzizlə tanış olmuşdum. Ona yalnız Azərbaycanda deyi, xarici ölkələridə keçiriləcək elmi konfransların da dəvətnamələrini göndərirdim. Var gücümlə çalışırdım ki, beynəlxalq toplantılarda iştirak etsin, əsərləri xarici jurnallarda nəşr edilsin. Məqalə və məruzələrinin beynəlxalq tələblərə uyğun hazırlanmasında gənc və bacarıqlı işçilərimiz ona

təmənnasız kömək edirdilər. Murad Əziz də böyük həvəslə elmi toplantılarda iştirak etmək istəyirdi. Mənə yazırdı: "Hörmətli ustadım Əli Şamil, necəsiniz?

Sizin göndərdiyiniz simpozium materiallarını aldıqdan bir ay sonra başqa heç bir iş görmədən çox zəhmət çəkərək bu üç məqaləni hazırlaşdım. Əvvəl tələblərə uyğun olaraq türk və ingilis dillərində abstrakt hazırlayıb sizə göndərdim. Zəhmət olmasa baxıb dəyərli fikirlərinizi bildirərsiniz. Çox təşəkkür edirəm.

Hörmətlə, sizi xatırlayan: Murad Əziz"

Lakin ölkəsindəki sıxıntılar istəklərimizin reallaşmasına imkan vermirdi. Ölkədən kənara çıxılmasına yaradılmış əngəllərə baxmayaraq o, şeytanın qıçını qırdı, bir neçə dəfə Türkmənistanda, Türkiyənin Bursa şəhərində keçirilən elmi toplantılara qatıldı. Geri dönəndə onu sorğu-suala çəkəcəklərini bilirdim. Ona görə yazırdım ki, çəkinməsin, qorxmasın, onların suallarına dəqiq cavab versin. O, cəsusluq etmir, siyasi toplantılara qatılmır. İşi, araşdırmaları ilə bağlı elmi toplantılara qatılır.

Murad Əziz beynəlxalq elmi toplantılara qatıldığına görə onu millətçilikdə, Çini parçalamağa cəhddə suçlayırdılar. O, bu suçlamalardan yaxa qurtarmaq üçün doğulub, boya-başa çatdığı yerdən çox uzaqlarda, Çinin güney ucqarındakı Ninkin

Normal Universitetində işə düzəlmişdi. Fikirləşirdi ki, orada onu millətçilikdə suçlamasınlar. Lakin arzuladığı kimi olmamışdı. Çinlilər arasında da həmişə xüsusi xidmət orqanlarının basqısı ilə rastlaşdığını görmüşdü.



Şəkildə: 2012-ci il mayın 14-15-də Aşqabadda keçirilən "Dövlətməmməd Azadi və 18-ci yüzil Türkmən həyatı" mövzusunda Beynəlxalq Elmi Konfransda. Soldan: uyğur Murad Əziz, Əli Şamil, Ramiz Əskər və türkmən, filologiya elmləri doktoru Mırat Tuvakov

Çox istəyirdi ki, mütləq mən də onunla eyni elmi toplantıda iştirak edim. Bu da mümkün olmurdu. Bircə dəfə Türkmənistanın Mərv şəhərində keçirilən elmi konfransa birlikdə qatıldıq.

Mən işlərimi düzüb-qoşub, onun proqramına uyğunlaşdıra bilmirdim. Buna baxmayaraq, hansı toplantıya getsəydi, orada iştirak edən soydaşlarımızla mütləq mənə hədiyyə göndərərdi. Özü də hədiyyənin həcmi kiçik olmazdı. Vaqif Sultanlı kimi səfərə çıxanda minumum tələbatına uyğun dəyişək götürən adam da Murad Əzizin göndərdiklərini gətirər və deyərdi: "Bu çantanı orada atıb gələrdim. Sadəcə uyğurlara qıymadığıma görə qəlbinə dəyə bilmirəm". Onun dediyinin səmimiyyətinə inanırdım. Türkiyəli, İranlı, Avropalı bir dostum mənə elə bir hədiyyə göndərmək istəsəydi, Vaqif Sultanlı onu sərt şəkildə qəbul etməzdi. Yalnız Vaqif Sultanlı deyil, başqa araşdırmacı dostlarım da Murad Əzizə, uyğurlara qayğı və səmimiyyətlə yanaşırdılar.

Murad Əziz Türkmənistanda iştirak etdiyi ilk beynəlxalq elmi konfransdan geri döndükdən sonra mənə yazırdı: "Hörmətli ustadım Əli Şamil, Urumçi gömrüyündə və sərhəd keçid məntəqəsində məni çox sorğu-suala tutmadılar. Allaha şükür, hər şey qaydasında oldu. Axır ki, 4 saata Türkmənistana çatdım. Aşqabadda keçirilən "Novruz – Sülh və əminamanlıq bayramı" konfransında iştirak etdim. Məruzəmi yaxşı qarşıladılar. Novruzun nə olduğunu yenidən anladım… Vətəndəki qardaşlarımın Novruzdakı halını düşünəndə gözlərimdən istər-

istəməz yaş axdı… XXI əsrdə dünyada uyğurlar kimi yazıq bir millət varmı?!



Şəkildə soldan Əli Şamil, ortada Murad Əziz və sağda Qənimət Səfərov Mahmud Kaşqarlı muzey kompleksinin girişində

Martın 22-də sağ-salamat Şanxaya qayıtdım. Bu dəfə də Siz mənə yenə kitab (Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı" kitabını

nəzərdə tutur - Ə.Ş.) və "Qız qalasının" heykəlini göndərmisiniz. Çox sevindim, təşəkkür edirəm. Çinə qayıdan kimi kitabdan 25 səhifə oxudum, çox xoşuma gəldi.

Sizi xatırlayaraq, sevinc hissi ilə: Murad Əziz. 29.03.2013"

Mən Murad Əzizə yalnız ixtisası üzrə məruzələr hazırlatmaq istəmirdim. İstəyirdim, o, uyğur-Azərbaycan ədəbi əlaqələrini də araşdırsın. Ona yazdığım məktuba aşağıdakı cavabı göndərmişdi: "Hörmətli ustadım, Əli Şamil, dünən 9 may tarixli məktubunuzun məzmununa əsasən indi hər tərəfdən məlumat toplamağa çalışıram. Bu mövzunu yaxşı bilən şəxslərin çoxu artıq vəfat edib, tədqiqatçılar isə demək olar ki, yoxdur. Kitabxanalardakı tarixi materialları araşdırıram. Dissertasiyanın ümumi işi barədə də beynimdə müəyyən plan qurmuşam. Siz rahat olun və mənə inanın. Sizin məndən gözlədiyiniz ümidləri doğruldacaq, vətəninizdəki dostlarınız qarşısında sizin nüfuzunuzu yüksəldəcək real nəticə verəcəyəm.

İlkin plan:

1. "Arşın mal alan"ın bu bölgəyə gəlmə tarixi, tərcümə müəllifi.
2. 1936-cı illərdə bölgənin vəziyyəti (sosioloji və tarixi baxış).

3. Operanın burada nə vaxt, harada və kimlər tərəfindən səhnələşdirilməsi. Əsas obrazlar və iştirak edən aktyorlar.

4. Əsərin məzmununun təsiri və Azərbaycanlı qardaşların qədim mədəni yolunun yeni səhifəsini açması.

5. Operanın yenidən səhnəyə qoyulmasının səbəbləri.

6. 1980-ci illərdə Ürümçidə səhnələşdirilməsinin ictimai təsiri və müasir uyğur ədəbiyyatına töhfəsi.

Bu plan üzrə yazsam uyğun olarmı? Hörmətlə, Murad Əziz".

2016-cı ilin payızında Qənimət Səfərov mənə muştuluq xəbəri verdi. Dedi: "İsgəndər oğlu Movlamla, qızı Müqəddəsin toyunu qarşıdakı Qurban bayramında edəcək. Səni də aparacam. İşlərini qaydaya sal". Uyğurları görmək üçün quşdan qanad almağa hazır idim. Sanki uçacaqdım. Bütün işlərimi təxirə salıb pasportumu Qənimət bəyə verdim.

Öncələr ticarət əlaqələri, xüsusən "çanta ticarəti" geniş olduğundan Bakıdan Urumçinə birbaşa təyyarə reysləri vardı. Deyəsən, yüklər maşınlarla daşınmağa başlandığından, ticarətdə təmərküzləşmə baş verdiyindən təyyarə reyslərinin sayı azalmışdı. Viza, bilet almaq məsələlərində Qənimət bəy usta idi. Mən heç bir əziyyət çəkmədən bir həftənin içində hər şeyi həll etdi.

Toya böyük bir heyətlə gedirdik. Qrupumuzda Qənimət bəyin xanımı, qızı, iki balaca nəvəsi, bacısı,

yeznəsi də vardı. Ailədən kənar yeganə adam mən idim. Biz təyyarə ilə Qazaxıstanın paytaxtı Astanaya, orada bir neçə saat gözlədikdən sonra 2016-cı il sentyabrın 10-da Urumçiyə uçduq.

İsgəndər bəyin bizə köhnə Urumçinin yerində ucaldılmış yeni binaların arasındakı çoxmərtəbəli hoteldə yer ayırtdırması təsadüfi deyildi. Hotelin yerində bir zamanlar onun babasının mülkləri varmış. Bu mülklərdə babası həm ailəsi ilə birlikdə yaşamış, həm də Urumçi-Daşkənd nəqliyyat şirkətini idarə etmişdir. Hökumət 1980-ci illərin sonlarında mülkləri ailənin əlindən almış, orada hotel tikintisinə başlamış, ailənin əli iş tutan üzvlərini də burada fəhlə kimi işlətmişdir.

Qaldığımız hotelin pəncərəsindən köhnə bir məscid görünürdü. İsgəndər bəy gördüyümüz məscidin Noqay məscidi adlandırıdığını dedi. Onu da əlavə etdi ki, ətrafında çoxlu binalar olub. Çoxunu sel aparıb, ya da təbii fəlakətlərdən dağılıb. Noqay məscidini elə yerdə tikiblər nə qədər sel gəlsə də oranı tutmayıb. Öncələr şəhər seldən çox zərər çəkirmiş. İndi çayı elə ram ediblər, nə qədər sel gəlsə də şəhər zərər vurmur.

Urumçidə nə qədər məscid olduğunu bilmədim. Amma bizim qaldığımız hotelin yanındakı köhnə məsciddən hər gün azan səsi gəlirdi.

Çin Xalq Respublikası sosialist ölkəsi olduğundan uzun illər aparılmış zorakı siyasət

nəticəsində əhalinin əksəriyyəti ateist olduğunu deyir. Ancaq dini inanc məsələsində milli azlıqlardan monqolların, tibetlilərin, uyğurların, qazaxların, özbəklərin, tatarların, hətta az sayda olan rusların belə vəziyyəti Çinlilərdən yaxşı sayılır.

Qənimət bəylə İsgəndər bəy, işi elə planlaşdırmışdı biz yalnız toyda iştirak etməyək, həm də bölgə ilə yaxından tanış olaq. Urumçidə olduğumuz birinci axşam yeməyi, sanki uyğur süfrəsinin zənginliyini nümayiş etdirmək üçün təşkil edilmişdi.

Səhəri gün İsgəndər bəy bizi Urumçi ilə tanış etməyə çalışdı. Təxminən 5 milyon əhalinin yaşadığı şəhərlə bir gündə tanış olmaq mümkünsüzdü. Biz, əsasən, müsəlmanlar yaşayan köhnə şəhəri gəzirdik. Murad Əziz də gəlib bizə qoşulmuşdu. Şər qarışanda qaldığımız hotelin yanındakı kiçik parkdan keçərkən, Murad Əziz solumuzdakı bir binanı göstərərək: "Bura sənin haqqında dəfələrlə yazdığın, veriliş hazırladığın Lütpulla Mütəllipin müəllim işlədiyi məktəbdir. Milliyətcə özbək olan qaynanam da bu məktəbdə oxuyub və orada dərs deyib. Lütpulla Mütəllipi də görüb. Hərdən onun haqqında söhbət edərdi."

Biz uyğur və Azərbaycan türkcələrində elə sözlər seçib danışırdıq ki, bir birimizi anlaya biləkBu zaman parkda oturub sohbət edən üç yaşlı adam ayağa qalxıb bizimlə salamlaşdılar. Danışığımızıdan Azərbaycandan gəldiyimizi bildilr. Onlardan arıq ucaboylu, şux qamətli birisi: “Mən Urumçidə göstərilən “Arşın mal alan” tamaşasında Əsgər rolunu oynayırdım. Teatr salonu həmişə dolu olardı. Adamlar rollarda söylədiklərimiz az qala əzbər bilərdilər. Küçədə, bayır bacada, dükanda, bazarda Əsgərin, Süleymanın, xalanın, Vəli ilə Tellinin mahnılarını oxuyurdular. Tərəf müqabilim Gülcöhrə də sağdır. İstəsəniz, sizi onunla da görüşdürə bilərəm.



Belə bir görüşü çox istərdim. Amma imkanımız olmadığından görüşə bilmədik.

Səhərisi gün tezdən İsgəndərin müəyyənləşdirdiyi 20-22 nəfərlik bir qrupla Mövlanın qaynatası gilə getdik ki, qızlarının xeyir-duasını alaq. Neçə vaxtdır Mövla nişanlanıb. Toy günü müəyyənləşdirilib. Dəvətnamə paylanıb. Necə deyərlər, hər şey həll olunub. Belə bir vaxtda xeyir-dua almağa getmək mənə artıq görünürdü. Fikrimi İsgəndər bəyə deyəndə: "Əlbəttə, yersizdir. Amma ənənəyə əməl etməli, onu yaşatmalıyıq. Bunları unutsaq, nəhəng Çinin içərisində çoxdan əriyib getmişdik. 19-cu yüzilin ortalarına kimi bu şəhərdə çinlilərdən kiməsə rast gəlinmirmiş. İndi 5 milyonluq şəhərdə 1 milyon, 1 milyon 200 min müsəlman var. Qalanı çinlidir".

Deyəsən, hörmət əlaməti olaraq məni məscidin imamı ilə bir maşında oturtmuşdular. 40-45 yaşlı imam diribaş birisi idi. Türkiyə türkcəsində, ərəb dilində, Çin dilində sərbəst danışa bildiyini söylədi. Mən ondan Urumçidə yaşayan uyğurların hansı məzhəbdən olduğunu xəbər alanda: "Əlhəmdulla, biz hamımız müsəlmanıq. Təriqət, məzhəb ayrı-seçkiliyimiz yoxdur" deyə cavab verdi.

Mövlanın qaynatasıgil bizim "xruşovka" dediyimiz evlərdə yaşayırdılar. Səhər yeməyinə zəngin bir süfrə açmışdılar. İmamın duası ilə qızlarını oğlumuza istədik və valideynləri xeyir-duasını aldıqdan sonra yeməyə başladıq. İmam dua oxuyanda gördüm Hənəfilər sayaq dua oxudu. Orada heç nə

demədim. Geri qayıdanda isə özümü saxlaya bilmədim. Maşındaca dedim: “Gedəndə deyirdiniz, bizdə məzhəb, təriqət ayrı-seçkiliyi yoxdur. Bəs nədən Hənəfilər kimi dua oxudunuz?” O gülümsəyərək: “Sovetlər Birliyi ateist bir ölkə idi. Fikirləşdim ki, belə şeylərin sizin nəslin nümayəndələri bilməz. Ənənədən uzaqlaşa bilmirik. Amma sözdə, təbliğatda məzhəb, təriqət ayrılığı yoxdur.”

Qız evindən çıxanda hərəmizə bir torba verdilər. Mən götürmək istəməyəndə imam torbanı götürməyimə işarə etdi. Maşından geri dönərkən imamdan torbanın nə üçün verildiyini, içərisində nələr olduğunu xəbər aldım. İmam dedi: “Keçmişdə qızın valideyinlərinin xeyir duası alındıqdan sonra hamı birlikdə məscidə gedər, namaz qılar, dua oxuyardılar. Ona görə ev sahibi namaz qılmağa gedənlərin hərəsinə bir canamaz, ayaqlarına geymək üçün tərlik və s. verərdi. Biz qız evindən çıxandan sonra məscidə gedib namaz qılmasaq da ənənəni yaşadırıq. Kimsə onun üçün ayrılanı götürməsə, bu ev sahibinə hörmətsizlik sayılır.”

Bu halı bəyin atası evində də gördük. İmamla birlikdə günorta valideyinlərin xeyir-duasını almaq üçün bəy evinə getdik. Yenə imam dua oxudu. Yenə zəngin bir süfrə arxasında yeyib-içdik. Oradan çıxanda yenə hərəmizə bir bəzəkli torba verilər. Bu torbada da hamam xalatı, dəsmal, kisə, sabun,

şampun, bir sözlə hamama gedənə nə lazımdı vardı. Biz evdən çıxıb bəy hamamına getmədik. Bəy öz yaşıdları ilə hamama getmişdi. Biz hotelə gəlib dincəldik. Axşam toy keçiriləcək restorana gedəcəkdik.

Urumçidə olarkən Azərbaycandakı "parçabiçdi" adlandırılan mərasimdə biz iştirak etməmişdik. Qənimət bəy öncələr burada olarkən "Qız toyu"nda iştirak etmişdi. O deyirdi ki, qız evinə hədiyyələr aparmağa öncədən ciddi hazırlıq görülür. Adamları və hədiyyələri aparacaq maşınlar bəzədilir. Mütləq maşının qarşısında bəzəkli bir qoç olur. Məclisi yüksək səviyyəli, peşəkar aparıcı idarə edir. Azərbaycandan fərqli olaraq orada iştirakçılara söz verilmir. Aparıcı toyla, bəy, gəlinlə bağlı şeirlər deyir. Gəlinə bəyin atası və qızın atas maddi imkanlarına görə hədiyyələr və pul verirlər. Verilən hədiyyələrin siyahısı tutulmur.

Azərbaycan toylarındakı israfçılıqdan həmişə narazı qalmışam. Uyğurların toylarındakı israfçılığı görəndə fikirləşdim ki, bizlərə min şükür.

Səhərisi axşam yenə restoranda olduq. Bu toplantı dünənki toydan yalnız adamlarının sayı ilə fərqlənirdi. Təxminən 100-120 adam olardı. Müqəddəs və bəy restoranın qapısında qapıda durub gələn qonaqları salamladığdan sonra qonaqlara süfrə arxasındakı yerlərini göstərirdilər. Sən demə uyğurlarda belə adət varmış: toyda adam çox

olduğundan, qohumlar, yaxın adamlar bir biri ilə tanış ola bilmirlər deyə bir gün sonra yeni ailə yaxın qohumlarını, dostlarını çağırıb bir süfrə arxasında tanış olma imkanı yaradırlar. Öncə bəy birinci dərəcədən olan qohumunu çağırıb onun adını, qohumluq dərəcəsini deyir. Sonra gəlin özününkülərini növbə ilə çağırıb məclisdəkilərə tanıdır. Beləcə məclisdəkilər bir-birini tanımış olur. Həmin adamlar sonradan başqa yerdə görüşəndə bir-birlərini tanıyır, görüşür, salamlaşırlar.



Kaşqarda şəhəriçi marşrut

Mənimlə bir süfrədə İsgəndərin baldızı və baldızının oğlu da əyləşmişdi. Yaraşıqlı, deyib gülən oğlanın 25-27 yaşları olardı. Atası dünyadan köçdüyündən anası dul qalmışdı. Mənə anasını göstərib zarafat edirdi. Onun bu zarafatından anası incimir, gülərək qarşılayırdı. Mən oğulun anası ilə belə zarafatlarını Təbrizdə çox eşitdiyimdən özümü narahat hiss etmirdim.

Mahmud Kaşqarinin, Yusif Xas Balasanqunlunun vətəninə gələsən və onların qəbrini ziyarət etmədən geri dönəsən. Bu olmayan iş idi. İsgəndər bəyə istəyimizi qənimət bəy çatdırdı. O, nədənsə xeyli fikirə gedib razılaşdı. Amma başı toyla bağlı işlərə qarışdığından bizimlə Kaşqara gedə bilməyəcəyini söylədi. Razılaşdıq ki, bu səfərdə Murad Əziz bizə bələdçilik etsin. Bu da o qədər asan oladı. Onun xanımı xəstəliyini bəhanə gətirərək ərinin bizlə getməyini istəməmişdi. Söhbətdə iştirak edən qızı isə Murad Əzizə təklikdə deyib ki, anama demədən get. Mən onu bir gün yola verərəm.

Urumçi ilə Kaşqar o qədər də yaxın məsafədə deyil. Ümumiyyətlə, Sincan Uyğur Muxtar Rayonunun ərazisi 1664897 kvadratkilometrdir. Bunun Türkiyənin ərazisindən 2 dəfə, Azərbaycanın ərazisindən az qala 20 dəfə böyük olduğu deməkdir. Yükümüz olmasa da aeroportda hamı kimi biz də çox ciddi yoxlamadan keçdik. Saat 7.45-də havaya qalxan təyyarəmiz bizi Tanrı dağlarının və Aksu

şəhərinin üstündən keçirib saat 9.40-da həsrətində olduğumuz Kaşqar şəhərinə çatdırdı. Qənimət bəy, təklif etdi ki, şəhərlə tanışlığı sonraya saxlayaq, birbaşa Mahmud Kaşqarlının qəbrinə ziyarətə gedək. Biz də razılaşdıq. Mahmud Kaşqarlının qəbirüstü məqbərəsinin şəhərdən təxminən 25-30 kilometr aralıda olduğunu öyrənmişdik.

Qənimət bəy Mahmud Kaşqarlının qəbri olan Upal (Opal) kəndinə getmək üçün taksi sürücüsü ilə danışanda mən də onlardan aralanıb başqa sürücülərlə danışmağa başladım.



Şəkildə Murad Əzizlə Mahmud Kaşqarinin qəbri başında

Bilirdim ki, dünyanın hər yerində taksi sürücüləri müstərilərdən daha çox pul qoparmağa

çalışır. Müştərinin qərib, mülayim xasiyyətli olduğunu bildikdə vay onun halına. Mən yol yoldaşlarımın yanına gəldikdə gördüm Murad Əziz Qənimət bəyə yumşaq şəkildə etiraz edir. Mən taksinin qiymətini xəbər aldım, Qənimət bəy qiyməti deyəndə gözüm kəlləmə çıxdı. Mənim danışdığım taksi sürücüsünün dediyi qiymətdən onun kirələdiyi taksi ikiqat çox pul istəmişdi. Qənimət də razılaşmışdı. Murad Əziz də sən demə buna görə Qənimətə etiraz edirmiş.

Qənimətin danışdığı taksi sürücüsü, müştərisinin əldən çıxacağından ehtiyatlanaraq, Murad Əzizlə mənə hirslənir, Qəniməti dilə tuturdu. Qənimət bəy dedi: "Dünyanın əksər ölkələrində taksi sürücüləri müştəridən daha çox pul qoparmağa çalışır. Mahmud Kaşqarinin ruhu xatirinə onun yerlisinin bizi aldatmasına göz yumdum. Etiraz etməyin, əyləşin gedək. Çinlilərin belə bir atalar sözü var: Səfərə çıxanda cibinin ağzını açıq qoy, yoxsa daha çox xərcin çıxar."


Onun bu sözündən sonra nə deyə bilərdim ki?!

Yol boyu solda başı qarlı Himalay dağları görünür. Qənimət bəy deyir ki, Kaşqardan sərhədə təxminən 80 kilometrdir. Oradan Pakıstana, Nepala gedən yol ildə bir neçə ay işləyir, sonra qar yolu tam tutur. Yay aylarında da yolu qar və daş uçqunu, torpaq sürüşmələri kəsir. Ona görə də həmin yollara "ölüm yolu" deyirlər.

Kaşqardan Upal (Opal) kəndinə kimi olan yerlər mənə Özbəkistanın Xarəzm bölgəsindəki kəndləri xatırladırdı. Yol boyu bir neçə böyük qəbristanlıq gördük. Buradakı qəbirlərin quruluşu da Özbəkistandakı qəbirlərin quruluşuna oxşayırdı.

Bir çox yerlərdə olduğu kimi Upalda (Opal) da qədim qəbristanlığı dağıdaraq Mahmud Kaşqarlıya mavzoley düzəldiblər. Böyük ensiklopedistə hörmət və məhəbbətim çox olsa da bir sual məni düşündürdü: Görəsən, burada Türk xalqının daha hansı dahilərinin qəbri varmış?! Mavzoleydə bu haqda heç bir bilgiyə rast gəlmədik.

İllərlə görmək, ziyarət etmək, ruhuna fatihə oxumaq istədiyimiz qəbrin önündəyik. Sakit-sakit bu qəbirdə yatan insanı düşünürük. Onun ömür yolu, dünyaya səs salan əsəri haqqında çox oxumuşuq. Hər üçümüz öz içində danışır. Bir-birimizlə söhbət etməyə, fikir bölüşdürməyə ehtiyac duymuruq.



Mahmud Kaşqarlı kompleksində Şirin qırx bulağın başında. Şəkildə: soldan Əli Şamil və Qənimət Səfərov

Yol boyu Murad Əzizlə söhbət edərkən dediyi bir sözü xatırlayıram. Sizın Mahmud Kaşqarlı haqqında bilginiz də, sevginiz də bizim uyğurların çoxununkundan qat-qat artıqdır. Urumçidə, Aqsuda, Xotanda, Qulcada yaşayanları demirəm, buradan 40-50 kilometir aralıdakı Kaşqarda yaşayanların bəlkə də 15-20 faizi buraya, Mahmud Kaşqarini ziyarətə gəlməyib.

Onun dediklərinə etiraz etmədik, çünki ziyarətgahda olduğumuz 2-3 saatda bizdən başqa heç kimi görmədik.

Mahmud Kaşqarinin məzar odasının yanında kiçik bir bina da var. Buranın mədrəsə olduğu, böyük ensiklopedistin də bu mədrəsədə dərs dediyini

yazırlar. Binanın quruluşundan açıq-aşkar görünür ki, 11-12-ci yüzildə tikilməyib. Məlumdur ki, o zaman tikilsə də indiyə kimi qalmaz, uçub dağılar. Yəni rəmzi bir mədrəsə tikiblər.

Biz orada olanda nə ənənəvi mücöyürə rast gəldik, nə də muzey işçisinə. Qəbir olan otaqın içərisində Mahmud Kaşqari haqqında və onun əsərinin bir neçə dildə tərcüməsi vardı. Biz də özümüzlə gətirdiyimiz Ramiz Əskərin dilimizə çevirdiyi "Mahmud Kaşqari, Divanü lüğəti-it türk" kitabının bir cildini oraya qoyduq. Bina və komplek səliqə səhmanlı idi. Aydın görünürdü ki, hər gün buranı silib-süpürən var.

Mahmud Kaşqarlının qəbrinin ətrafını kiçik bir istirahət mərkəzi kimi düzəldiblər. Ətrafda isə bərpa işləri aparılırdı. Görünür parkın mavzoley kompleksini genişləndirəcəklər. Bu genişləndirmələr hər yerdə olduğu kimi burada da yüzlərlə qəbirin yox olması, onlarla tanınmış aydının izinin silinməsinə səbəb olacaq. Ziyarətə gələnlərin oturub dincəlməsi üçün skamyalar da qoyublar, ağaclar da əkiblər ki, kölgə salıb, sərinlik yaratsın. Oradakı bulaq Novruz bulağı adlandırılır. Bulaqdan axan suyun toplanması, sərinlik yaratması üçün kiçik bir hovuz da tikiblər. Ümumiyyətlə, bölgədə su qıt olduğundan, burada bulaqların çoxuna "şərbət bulaq" deyirlər. Suyun içməli olub olmadığını xəbər almadan, Mahmud Kaşqarinin xatirinə biz də Norvuz bulağından su

içdik. “Şərbət bulaq” adlandırılan bulağın suyu torpaq dadı verirdi. Bir sözlə, bizim dağlardakı bulaqların suyu kimi dadlı deyildi.

İstəyimizə çatdığımızdan, içimiz sakitləş-diyindən, bizi aparan taksiyə əyləşib Kaşqar şəhərinə qayıtdıq. Planımız o idi ki, oradan da bir taksiyə əyləşib Yusif Xas Balasaqunlunun qəbrini ziyarətə gedək. Taksi şoferi söhbətimizi eşidib bizi oraya da aparacağını dedi. Deyəsən, Qənimət bəy yolpulunu çox verdiyindən qısa məsafə üçün, yəni Yusif Xas Balasaqunlunun qəbirüstünə aparmaq üçün əlavə pul istəmədi.

Yusif Xas Balasaqunlunun qəbirüstu abidəsi Mahmud Kaşqarlınınkından daha zəngin idi. Binanın içərisinə və oranı əhatə edən hasarın iç tərəfinə firuzeyi kaşılarla şairin şairin məşhur beytləri yazılmışdır.

Burada da nə mücöyür vardı, nə də muzey işçisi. Buna baxmayaraq ətraf da, binanın içərisi də səliqə səhmanlı idi. Hər iki dahinin qəbirlərini ziyarət etməmiz ruhumuzu sakitləşdirdi, mənəvi zövq aldıq.

Taksi bizi Kaşqarın köhnə şəhər deyilən hissəsində qoyub getdi. Biz Murad Əzizin bələdçiliyi ilə bizi İçərişəhəri xatırladan Kaşqarın köhnə məhəlləsini gəzməyə başladıq. Şəhər baxımsız və səliqə-səhmandan uzaqdı. Amma Kaşqarda olduğumuz üçün burada hər şey bizim üçün gözəl və ruhoxşayan idi. Sanki başqa dünyada idik.

Gördüyüm hər şeyə maraq göstərirdim. Küçədə közdə bişirilmiş qarğıdalı da alıb yeyirdik, əncir yarpağı arasında qoyulmuş 3 inciri də alırdıq, narı da alıb yeyirdik. Qarğıdalıların dənələri kiçik olsa da, bizdə əkilən qarğıdalılardan dadlı idi. Uşaqlıqda yediyim xırda dənəli qarğıdalıların dadını yadıma salırdı. Bir istədim toxumundan alıb gətirib burda tanışların bağında əkəm. Azərbaycanda son onilliklərdə əkilən sıx və böyük dənəli qarğıdalıların dadı elə bil qaçıb.



Qənimət Səfərov Kaşqarın köhnə məhəllələrinin birində

Küçədə tez-tez əncir və nar satanlarla da rastlaşırdıq. Bu onu göstərirdi ki, Doğu Türküstanda subtropik meyvələr boldur. Əncirlər Azərbaycandakı ağ əncirlərdən böyük olsa da bizimkilər qədər şirin və ətirli deyildi. Narlar da böyük olsalar da Azərbaycan narları kimi dadlı deyildi.

Murad Əzizə təklif etdik ki, naharı restoranlardan birində deyil, ənənəvi, küçədə, açıq havadakı kababxanalarda edək. Etiraz etmədi. Yan-yana düzülmüş kiçik yeməkxanaların birində tapçanda (balaça taxtlar) oturduq.

Hər kababxananın yanında 2-3 quzu və ya erkək bağlayıb qarşılarına da ot qoyublar. Heyvanlar otdan yeyib gövşək vurur, bir saatdan, bir gündən sonra başlarına nə gələcəyini sanki düşünmürlər. Əyləşib kabab yeyəciyimiz və yanından keçdiyim yeməkxanaların hamısını yanındakı heyvanların bozax cinsindən olduğunu görürəm. Azərbaycanda da, adətən, kabablıq üçün bozax cinsindən olan heyvanlar seçilir.

Qəribəmə gələn odur ki, bizdən min kilometrlərlə uzaqda yaşayan uyğurların, qazaxların, tatarların, qırğızların da ağız dadı eynidir ki, kabablıq üçün də eyni cinsdən olan heyvanı seçirlər. Amma oradakı bozax cinsindən olan heyvanlar Azərbaycanda gördüklərimdən çox böyük idi. Bizdə orta bozax çinsli erkəklərin 20-25 kilo əti olursa

kababxanaların yanında saxlananları kəsəndə 35-40 kilo ət verərdi.

Hər kababxanada manqalla yanaşı bir neçə balacalı-böyüklü təndir də vardı. Görünür, müştərilərin çoxu təndir kababı yeməyə üstünlük verirlər. Biz də təndir kababı sifariş verdik. Qənimət bəy, deyəsən, təndirlərin yanındakı qablarda duru xəmirə oxşar maddədən diksindi. Kababçılar əti şişə çəkib ocağa qoymamışdan öncə şişləri qabdakı mayeyə salıb 3-5 dəqiqə gösləyirlər ki, ətin üstünü örtsün. Sonra şişləri qabdan çıxarıb təndirə sallayır, ağzını da möhkəmcə örtürlər. Qənimət bəy təkid etdi ki, onun üçün hazırlanan kababı duru xəmirə batırmasınlar. Kababçı bizim qonaq olduğumuzu görürdü. Sakitcə bizə başa salmağa çalışırdı ki, şişlərdəki ətin üzəri örtülməsə isti vurduqca ətdəki yağ əriyib təndirə töküşəcək və yağın hisi kababı acılaşdıracaq. Onu yemək mümkün olmayacaq. Həm də his təndiri bir günə salacaq ki, orada iki gün kabab bişirmək mümkün olmayacaq.

Qənimət bəy Qarabağda doğulub boya-başa çatıb. Kababın necə bişirildiyini də yaxşı bilir. Dünyanın neçə-neçə ölkəsini gəzib. Xalqların məişətini, mədəniyyətini, yaxşı bilir. Amma bu dəfə nədənsə tərsə düşdü. Onun üçün kababın manqalda bişirilməsi ilə də razılaşmadı. Təkid etdi ki, təndirdə bişirsinlər.

Qonağa hörmət edən uyğur kababçısı öncə bizim kababları gətirdi. Yeməyə yenicə başlamışdıq ki, kababçı Qənimət bəyin tapşırığı ilə təndirə salladığı kabab şişlərini gətirmək üçün təndirin ağzını açdı. Acı bir tüstü ətrafı bürüdü. Biz oturduğumuz kababxanadakılar o yana, qonşu kababxanadakılar, küçədən keçənlər də burunlarını tutub oradan uzaqlaşmağa başladılar. Ətin yağı təndirdəki közün üstünə tökülüb ağzı bağlı təndirdə acı bir tüstü yaranmışdı.

Günortadan sonra bizi köhnə Kaşqar şəhəri ilə tanış eləməyə apardılar. Burada ən diqqətimi çəkən 13-cü yüzildə tikilmiş məscid idi. Məscidin minarəsi və kümbəzi yox idi. Damı düz olan məscididin içərisi ornamentlərlə bəzənmişdi. Tikintidə əsasən ağacdan istifadə edilmişdi. 15 min nəfərin eyni vaxtda namaz qıla biləcəyi məscid bölgədə dövrünün ən böyük məscidi olub.

Məscidin ətrafı da çox səliqəli və abad idi. Burada da ziyarətçilər "şərbət bulaq"dan axan sudan içərək yanğısını söndürür, dəstəmaz alır və həmin bulağın suyu ilə suvarılan ağacların kölgəsində əyləşib sərinləyirlər.



Şəkildə: Qənimət Səfərovla Mahmud Kaşqarinin qəbirüstü abidəsi qarşısında

Biz gedəndə məsciddə və məscidin həyətində heç kim olmasa da qapısı açıq idi. Yəni adamlar gecə və gündüz məscidə gələ burada, namaz qıla, kitab oxuya bilərlər. Yerə qədim xalçalar döşənmişdi. Məndə belə bir qənaət yarandı ki, buralarda məscidlərdə oğurluq edən olmur.

Axşamüstü cavan bir oğlan da gəlib bizə qoşuldu. Söhbətindən bildik ki, Kaşqardan 60-80 kilometr aralıdakı hansı kənddəsə müəllim işləyir.

Murad Əzizin tələbəsi olub. Müəllimi deyəndə ki, Azərbaycandan qonaqları gəlib, o da bizi görmək, tanış olmaq üçün dərslərini başa vurduqdan sonra Kaşqara gəlib.

Birlikdə şəhəri gəzdik, dərdləşdik. Müəllimlərin iqtisadi, siyasi vəziyyəti ilə maraqlandıq. Gənc müəllim gileyləndi ki, burada bizləri sıxışdıran çinlilərdən çox özümüzdən olan məmurlardır. Hər sözümüzdə, fikrimizdə millətçilik, İslam terrorizmi axtarırlar.

Gənc müəllim bizi Kaşqarın milli xörəklər hazırlanan yeməkxanasına apardı. Tox olduğumuzdan yemək həvəsində deyildik. Buna baxmayaraq, gənc müəllim qonaqpərliyini göstərmək üçün menyunu qarşımıza qoydu. Mən yemək seçmədim. Qənimət bəy menyuda yazılanları oxuya bilmirdi. Şəkildəki görüntüyə görə "Bəxtə şah Abbas" deyib bir şəklin üzərinə barmağını qoydu. Çini bir qazanda bölgədə ən çox sevilən və yeyilən lağmən gətirdilər. On nəfər yesə, onu axıra çatdıra bilməzdi.

Günorta kababı iştahla yediyimdən acmamışdım. Ona görə lağmən da yemək istəmədim. Qənimət də onlara kömək olsun, xörək qabaqdan qayıtmasın deyə, bir neçə dəfə lağmən yeməyimi təklif etdi. Yemədim. Süfrədəkilər çox üz basdıqdan sonra menyunu gözdən keçirdim. Elə bil uzunsov kiçik boşqaba quzuqulağı yarpağı düzmüşdülər. Öz-özümə dedim: "Qoy bunu gətirsinlər, quzuqulağı

yüngül və iştahaçandır. Sifariş verdiyim xörək gələndə gördüm böyük bir boşqabdır. Buradakı yemək də bir adamlıq deyil, təxminən 10 adamlıqdır. Yarpağın birini çəngəllə götürəndə gördüm altında qovrulmuş tikə ətlər düzülüb. Gözümüz kəlləmizə çıxdı. Süfrədəkilərdən mənim üçün gətirilən yeməyi bölüşməyi xahiş edəndə Qənimət bəy dedi: "Tökəydin ovcuma, yaxaydım üzünə". Onun sözünə hamımız güldük. Bilmədim uyğurlarda da belə deyim var, yoxsa təxmini məzmunu başa düşdülər.

Bilgisizlidən böyük israfçılığa yol verdim. Lağmənin də, mənim sifariş verdiyim yeməyin də üçdəbirini yeyə bilmədik.

Kaşqar səfərimizi başa vurub Urumçiyə qayıtdıq. İsgəndərin başı toya qarışsa da bizim Urumçini yaxşı gəzməyimiz üçün əlindən gələni əsirgəmirdi. Gah muzeyə aparırdı, gah istirahət mərkəzinə, gah da qazaxların yaşadığı yaylaqlara.

Şəhərin mərkəzindənki "Xalqlar dostluğu" muzeyi həm böyüklüyü ilə, həm də qurluşu ilə diqqəti çəkirdi. Muzeydə bölgədə yaşayan uyğurların, qazaxların, qırğızların, tatarların, rusların, donqanların (müsəlman çinlilər) hər birinə bir neçə salon ayrılmışdı. Hər bir xalqın mədəniyyəti, məişəti, yaşam tərzi, adət-ənənəsi haqqında burada geniş bilgi almaq olur. Muzeyi gəzərkən, deyirsən, bu ölkədə xalqlar xoşbəxt yaşayırlar, heç birinin hüququ tapdalanmır.

Oradan küçəyə çıxanda isə başqa mənzərənin şahidi olursan. Tez-tez küçədə, xüsusən, küçələrin kəsişdiyi yerlərdə 7 nəfərlik, əllərində dubinka olan hərbçinin gəzdiyini, "nizam-intizam yaratdığını" görürsən. Böyük mağazalarda da kiçik dükanlarda da gözəl mətbəx bıçaqları, baltalar, dəhrələr görürsən. Pulunu verib alanda isə sənin ünvanını tələb edirlər. Yəni kəsici alətləri adamların əlinə vermirlər, evlərinə göndərirlər. Bunu da onunla əsaslandırırlar ki, 2009-cu ildə Urumçidə baş vermiş qiyamda müsəlmanlar bu kəsici alətlərdən istifadə edib çinliləri öldürüblər.

Deyilənlərə görə, həmin günlərdə şəhərdəki çinlilər ya gizlənmiş, ya da müsəlmanlar sıx yaşadıqları məhəllələrdən qaçıb uzaqlara getmişdilər. Çin ordusu toqquşmanı qəddarlıqla yatırdıqdan sonra evdəyişmə prosesi başlayır. Hökumət çinliləri şəhərin yeni məhəllələrində, müsəlmanları isə köhnə məhəllələrdə yerləşdirir. Beləliklə, şəhər əhalinin dini mənsubiyyətinə görə iki yerə bölünür.

Dediklərinə görə, həmin günlərdə 5 milyonluq əhalisi olan şəhərdə 2 milyon əhali qalmayıbmış. Yəni çinlilər qısa müddətdə ev-eşiklərini, mağazalarını, hotellərini qoyub qaçıblarmış. Qiyamı yatırmaq üçün gələn Çin hərbçiləri isə adamların gözünü qorxutmaq üçün ağına-bozuna baxmayıb, olmazın qəddarlıqları ediblər. Küçədə çörək bişirib satan bir ailəni hamının gözü qarşısında yanan təndirə

atıb, təndirin də qapağını bərk-bərk örtüblər. Çin hərbçilərinin qəddarlıqla öldürdükləri, yaraladıqları, həbs etdikləri müsəlmanların sayı haqqında dəqiq bilgi heç yerdə bilinmir.

Həmin gündən sonra Urumçi və ətrafdakı qəsəbə və kəndlər hərbçilərin sərt nəzarəti altında yaşayır.

Toydan iki gün sonra İsgəndər bəy bizi şəhərin 9-10 kilometrliyindəki bir istirahət mərkəzinə apardı. Bir zamanlar buradan isti meneral sular axıb gedirmiş. Son illər burada çinlilər Fi-şi-qu adlı nəhəng bir istirahət mərkəzi yaradıblar. Girişi 25 dollar olan istirahət mərkəzində dincəndiyin çarpayıların ayaq tərəfində bilgisayar və televizor var.



Şəkildə: Murad Əzizlə aeroport qarşısında

Sən qulaqlıqla istədiyin verilişə baxa bilrəsən. Bir metrliyindəki çarpayıda uzanıb dincələn, yatan, kitab oxuyan, yaxud sənin kimi bilgisayara, televizora baxan heç bir səs eşitməz.

Bu istirahət mərkəzi qadınlar üçün daha çəlbedicidir. Qadınlar orada saçlarını boyada, dırnaqlarını düzəltdirə, bədənlərinə döymə vurdura, dodaqlarını şişirdə, bir sözlə nə arzulayırlarsa, onu edə bilərlər. 25 dollara bir gün orada istirahət etmək mənə heyrətləndirici dərəcədə ucuz göründü.

İsgəndər bəy bir gün də bizi Tanrı dağlarındakı bir istirahət mərkəzinə apardı. Danışırdı ki, bir zamanlar bura qazaxların yaylağı idi. Gəlib onlardan ucuz qiymətə heyvan alıb kəsib kabab edər, at, dəvə kirələyib dağları gəzərdik. Bulaqların başında məclis qurardıq. Son illərdə işbaz çinlilər, arxalarını hökumətə dayayaraq bu yerləri qazaxlardan satın aldılar. Ağılsız qazaxlar da verilən pula kimisi maşın aldı, kimisi Urumçidə ev aldı, kimisi də azaçıq bir yerdə özlərinə ev tikib qəsəbə saldılar.

Çinlilər isə burada kanat çəkdilər, böyük bir qəsəbəni xatırladan restoranlar şəbəkəsi yaratdılar. Necə deyərlər, pul qoyub pul götürdülər. Gəlirləri sel kimi axır.

Tanrı dağlarındakı istirahət mərkəzi çox xoşuma gəldi. Çinlilər təbiəti qorumağı bacarır. Biz orada olanda dağ yamacında yeni bir istirahət mərkəsi

qururdular. Təxminən 500 hektarlıq zirinc, itburnu və b. kol bitkiləri ilə örtülmüş ərazidə bizim neft daşlarını xatırladan estakadalar qururdular. Yüngül materiallardan qurulmuş iki, üç, dörd, beş otaqlı qonaqlamaların hər birinin yanında kabab manqalları və sair vardı. Bir sözlə, kolların arasında bastırılmış dirəklərin üzərində qurulmuş bu qəsəbədə təbiətə heç bir ziyan vurulmurdu. Kiçik ərzaq daşıyan, təmizlik işləri görən maşınlar kollardan bir metr ucada estakada ilə hərəkət edirdi. Adamları da bu estekadadan aşağı kollara baxa-baxa gəzməsinə, meydançalarda idmanla məşğul olmasına, oturub dincəlməsinə şərait yaratmışdılar.

Yeni qurulmuş istirahət mərkəzindən 300-500 metr aralıda isə qazax çadırları, çadırın ətrafında at, dəvə, qoyun, toyuq və s. vardı. Bu çadırlarda qazaxlar yaşayırdılar. Əslində, bunlar təbliğat məqsədi daşıyırdı. Bölgəyə istirahətə gələnlər yerli camaatın necə yaşadıqları ilə tanış olsunlar deyə bunları yaratmışdılar.

Hər çür şəraiti olan iki otaqlı qonaq evinin qiyməti ilə maraqlandım. Dedilər ki, mövsümə görə dəyişir. Biz olanda gələn turistlərin sayı azaldığından qiymət 10 dollara düşmüşdü.

Qəsəbədə hər bir restoran girişində burada hansı yeməkləri verildiyini öncədən bildirən lövhələr asmışdılar. Müsəlman dunqanlar, qazaxlar, qırğızlar,

tatarlar, uyğurlar yeməkxanalarının önündə müsəlman yeməkxanası olduğuna bildirən maraqlı elanlar vurmuşdular.

Urumçidəki üç mərtəbəli "Retro" adlandırılan bir restoran da diqqətimizi çəkdi. Çölü və içərisi milli ornamentlərlə bəzədilən, milli musiqi səsləndirilən, qab-qacağı da milli ornamentlərlə bəzədilmiş bu restoranda da milli yeməklər verilirdi. Qəribəmi çəkən o oldu ki, milli geyimdə sacı-saqqalı ağarmış iki qoca durmadan milli musiqi sədaları altında oynayır, qonaqları rəqsə dəvət edir, onlarla şəkil çəkdirirdilər. Yaşlı insanlardakı enerjiyə heyran qalmışdım. İsgəndər dedi ki, bunlar restoranın ştatda olan işçiləridir. 6 saatda bir dəyişilirlər. Geyimləri, makyajları eyni olduğundan restorana gələnlər onların vaxtları çatanda dəyişdiklərini hiss etmirlər, elə bilirlər eyni adamlardır.

Sentyabrın 16-da bizi yola salanda diqqətimi bir şey də çəkdi. Çoxlu hədiyyələr gətirmişdilər. Onları qablaşdırmaq, baqaja vermək mənə mümkünsüz görünürdü. Murad Əzizin bağışladığı yun yorğanı yerləşdimək üçün böyük çanta lazım idi. Qənimət bəyin bacısı və qaynı bir ara "çanta ticarəti" ilə məşğul olduqlarından yük vurmaqda təcrübəli idilər.



Turistlərə qazaxların yaşamını göstərmək üçün qurulmuş qazax yurdları. Burada qazax ailələri yaşayır və turistlərə xidmət edir.

Hotelin xidmətçilərinə tozsoran gətirməyi tapşırdılar. Tozsoranla yorğanın içərisindəki havanı sorub onu kiçik bir çantaya yerləşdirmələrinə heyrətlə baxırdım.

İsgəndər bəyin bizə bağışladığı hədiyyələr arasında çox gözəl bir zərf də vardı. Onu da dostlarımın balalarını sevindirərmək üçün həvəslə götürdüm. Yolda zərfin içərisində pul olduğunu Qənimət deyəndə təəccübləndim.

Qənimət bəy gülə-gülə dedi: “Burada keçmişdən qalmış adətləri hələ də yaşadırlar. Toya uzaqdan gələnlərin evinə rahat qayıda bilsin deyə yolpulunu

verirlərmiş. Hamı toya gələndə gəlib qayıtma xərclərini ölçüb biçsə də, yenə də ənənəni qoruyur, uzaqdan gələnlərə müəyyən məbləğdə pul verirlər.

Qənimət bəyin məni Urumçiyə aparması ömrümün ən gözəl hədiyyələrindən oldu. O, başqa dostlarımı, tanışlarımı da Urumçiyə aparmışdı. Amma inanmıram onların səfəri mənim səfərim qədər maraqlı olsun.

Urumçidən dönəndən sonra səfər təəssuratımı isti-isti yazmaq istədim. Bakıya çatanda biz yolda olarkən Murad Əzizin emailimə yazdığı uzun bir məktubu oxudum. Səfər təəssüratımı yazmamağımı xahiş edirdi. Bunun ölkədəki sıxıntı ilə bağlı olduğunu bildiyimdən yazdığımı çap etdirməyəcəyimə söz verdim. Lakin cavabım Murad Əzizi qane etmədi. Telefonla zəng vurdu, emaillə yazdı. Hər dəfə də az qala yalvarırdı. Ona elə gəlirdi Çinin xüsusi xidmət orqanları mənim bilgisayarda nə yazdığımı da nəzarətdə saxlayır.

Türkiyədə tanış olduğum, uyğur araşdırcılarının, sənətçilərinin Çinə döndükdən sonra həbs olunmalarını, ölüm xəbərlərinin çıxmasını eşidəndə Murad Əzizin nədən belə təkid etdiyinin səbəbini başa düşdüm.

Ölkədə rejim vəziyyəti o qədər gərginləşdirmişdi ki, dostlarımız, tanışlarımız telefonlarımıza, emaillərimizə cavab vermədilər. Uzun zaman onların öldü-qaldısınından xəbər tuta bilmədim.

ELMİ MƏQALƏLƏR

UYĞUR TÜRKLƏRİNDƏ FOLKLOR VƏ ƏDƏBİYYATIN İNKİŞAFI[1]

Özət

Çin Xalq Respublikasının Sintszyan Uyğur Muxtar Rayonunu (Şincan Uyğur Avtonom Rayonluk) Azərbaycandan təxminən dörd min kilometrlik bir məsafə ayırır. Eyni soydan olduğumuza görəmi, yoxsa tarixin gedişindənmi oxşar taleyi yaşayırıq. Əlaqələrimiz zamanın sürətiylə ayaqlaşmasa da, qan yaddaşı sayəsində hələ də ədəbi əsərlərimizin adlarında, mövzularında bir oxşarlıq var. Toponim və şəxs adlarımızın da böyük bir hissəsi eynidir.

Bu gün Çində yaşayan soydaşlarımız *uyğur*, biz isə *azərbaycanlı* adlanırıq. Hər birimizin də ayrıca (az qala bir-birindən tədric olunmuş) tarixi, ədəbiyyat tarixi, dil tarixi və s. yaradılıb. Əslində, 20-ci yüzilədək Azərbaycan türklərinin ədəbiyyatı Osmanlı türklərinin ədəbiyyatından nə qədər

[1] "Mədəniyyət dünyası" toplusunun (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti), 2006, sayı XIII, səh. 277-292-də çap olunmuş məqalədən burada geniş istifadə etdiyimdən təkrarçılıq olmasın deyə onu kitaba daxil etmədim.

fərqlənirdisə, uyğurların yaratdığı ədəbi əsərlər də özbəklərinkindən bir o qədər fərqlənirdi. Ona görə də bunlar daha çox oğuz və cığatay adıyla adlandırılırdılar. Bu iki qrup arasında elə ciddi fərq də yox idi. Hətta XIX yüzildə yaşamış şairlərimizin əsərləri arasında cığatay türkcəsində yazılmış nümunələrə rast gəlindiyi kimi, Özbəkistanda yaşamış şairlər də 20-ci yüzilədək oğuz türkcəsində də qələmlərini sınamışlar.

Dünyada baş verən siyasi hadisələr, bizləri təsir altına alan dövlətlərin strategiyalarının hazırladığı çoxsaylı planlar isə bu fərqi artırmağa xidmət edirdi. Beləliklə, uyğur folkloru, ədəbiyyatı, uyğur nəsri, uyğur poeziyası, uyğur dramçılığı və s. terminlər meydana gəldi. Uyğur ədibləri rus təsiri altında qalan qardaşları aracılığı ilə və ya məhz Rusiya vasitəsilə dünyanın inkişafını izləyərək Avropa ədəbiyyatından gəlmə janrları da mənimsədilər. Çağdaş uyğur dramçılığı, uyğur teatrı beləcə formalaşdı və şöhrət qazandı. Hazırda uyğur dili və ədəbiyyatı Çinin Sintszyan Uyğur Muxtar Rayonunda, Qazaxıstanda və Özbəkistanda inkişaf edir. Çinin quzeyində bizimlə eyni dil ailəsinə mənsub olan xalqlardan uyğur, qazax, qırğız, tatar, özbək, salur və sarı uyğur türkləri yaşayırlar.

Məqalədə uyğur folklorundan və yazılı ədəbiyyatından danışılacaq. Bu ədəbiyyatın Abdurehim Nizari (1776-1849), Sadır Pəlvanı (1798-1871), Turduş Axun Qəribi (19-cu yüzil), Noruz Axun Ziyai (19-cu yüzil), Bilal Nazım (1824-1899), Abduxaliq Uyğur (1901-1933), Molla Şakir (1825-1898), Armiya Nimşehit (1906-1972), Zunun Qədiri (1911-1989), Ahmed Ziyati (1913-1989), Lutpulla Mutəllip (1922-1945), Xevir Tömür (1922-1991), Abdurihim Ötkür (1923), Turqun Almas (1924), Abdulkərim Xoca (1928-1988), Teyupcan Əliyop (1930-1989), Muhəmmətcan Sadiq (1934), Abduşükür Muhəmmətimin (1934-1995), Qəyyum Turdi (1937-1997), Zordun Sabir (1937-1998), Qurban Barat (1939), Muhammətəli Zunun (1939), Muhəmmətcan Raşidin (1940), Əxət Turdi (1940), Boğda Abdulla (1941), Calalidin Bəhram (1942), Tursun Yünüs (1942), Ruzi Sayit (1943-2001), İmin Əxmədi (1944), Məmtimin Hoşur (1944), Tursuncan Litıp (1945), Toxti Ayup (1945), Muhəmmət Osmancan Savut (1946), Nurmuhəmmət Toxti (1949), Abdulla Savut (1950), Əxmət İmin (1950) İbaydulla İbrahim (1951), Muhəmmət Bağraş (1952), Xalidə İsrail (1952), Əxtəm Ömər (1963) və b. nümayəndələri

uyğur dilinin zənginləşməsi və ictimai fikrin formalaşması üçün az iş görməmişlər.

Açar sözlər: *Sintzsyan Uyğur, ədəbiyyat, folklor, çağdaş dramçılıq, teatr, opera*

Giriş

Pekinin 90 kilometrliyindəki Çin səddindən ta Xəzər dənizinədək olan bölgə yüzillər boyu coğrafi məkan kimi Türküstan adlandırılmışdır. Türküstanı Sibir, Çin, Monqolustan, Əfqanıstan, Pakistan, Hindistan, İran və s. ərazilər çevrələyir. Türküstan Doğu və Batı Türküstana, onlar da, öz növbəsində, daha kiçik bölümlərə ayrılır. Bu bölümlərin də hər birinin öz adı var. Tarixin müxtəlif çağlarında burada neçə-neçə dövlətlər, imperiyalar yaranmış, inkişaf etmiş və çökmüşdür. Bölgədə aparıcı və hakim xalq türklər olduğundan yaradılmış zəngin ədəbiyyata da ortaq türk ədəbiyyatının bir parçası kimi baxılmalıdır.

Bu da təsadüfi deyildi. Türklərin hərbi, siyasi, mədəni çöküşü güclənən qonşu xalqların yüksəlişi ilə eyni illərə təsadüf edir. Miladi XII yüzildə Çingizxanın yaratdığı qüdrətli imperiyanın əsarətinə düşən Çin dövləti sonradan Minq sülaləsini hakimiyyətə gətirməklə (1368-1644)

müstəqilliyini bərpa etmiş oldu. XVII yüzildə ölkəni bürümüş kəndli üsyanları mərkəzi hakimiyyəti laxlatdı və dövləti dağılmaq təhlükəsi qarşısında qoydu. Üsyanları yatırmaq üçün dəvət olunmuş mancur hakimləri Çində Tzin (Qing) sülaləsinin hakimiyyətini (1644-1911) qura bildilər.

1759-ci ildə Sin Mancur hökuməti Doğu Türküstan torpaqlarını işğal edərək İli bölgəsində (Monqolustanın qərbində, Rusiyanın cənubunda, Qazaxıstanın şərqində yerləşən İli Qazax Muxtar Vilayəti, Çinin Sincan Uyğur Muxtar bölgəsinin quzey və quzey şərqindədir. Adını İli nəhrindən almıştır. Gulca (Yining əsas şəhəridir) minlərlə uşağı, qocanı, qadını, bir sözlə, savaşda iştirak edə bilməyən insanı öldürmüs, yüz minlərlə insanın isə malını-mülkünü müsadirə edib sürgünə göndərmişdi. 1840-cı ildə də Böyük Britaniyanın Çinə qoşun yeritməsi mərkəzi hakimiyyəti zəiflətmişdir. İngilislərə məğlub olmasına baxmayaraq, Sin Mancur hökuməti yalnız Doğu Türküstanı deyil, işğal etdiyi başqa dövlətləri və xalqları əsarətdən azad etmədi (Dünya dövlətləri, 1999: 203).

1864-ci ildə Çin əsarətindən qurtulmağa can atan Doğu Türküstanlılar Yakup bəyin öndərliyi

ilə “Sərqi Türküstan İslam Dövləti”ni qura bildilər. Lakin bu dövlətin ömrü o qədər də uzun olmadı. 1877-ci ildə Yakup bəyin qəflətən ölümündən sonra taxt-tac uğrunda gedən savaşlar ölkənin parçalanmasına və yenidən işğal altına düşməsinə səbəb oldu.

Çin imperatorunun 1884-ci il noyabrın 18-də verdiyi əmrlə Doğu Türküstana Çinin 19-cu vilayəti – Sincianq, Şincanq və ya Xinjianq adı verilmişdir ki, bu da hakim çinlilərin dilində “yeni sərhəd”, “yeni xətt”, “yeni qazanılan yer” anlamındadır. (ASE, 1984: 452, 9-cu cild, Cengiz, 1997: 1405). Azərbaycanda isə bölgənin adı rus dili vasitəsilə alındığından Sintzsyan şəklində yazılmağa başlanmışdır.

1819-1826-cı illərdə Doğu Türküstanda Cahangir xanın başçılığı ilə xalq mançur mənşəli Çinq sülaləsinin hakimiyyətinə qarşı üsyan qaldıranda Qarabağda, İrəvanda, Gəncədə Abbas Mirzənin başçılıq etdiyi hərbi hissələr də rus ordusuna qarşı vuruşurdu. 1830, 1831-ci ildə Car-Balakəni, 1831-ci ildə Lənkəranı, 1837-1838-ci illərdə Şəki və Qubanı, 1829-1861-ci illərdə Şeyx Şamilin başçılığı ilə Qafqazı bürümüş üsyanlar ilə Doğu Türküstanda 1830-cu ildə Yusup Xocanın, 1846-cı ildə Muhəmmətimin Xocanın, 1855-ci

ildə Vəli Xan Törənin başçılıq etdiyi üsyanlar bir-birlərinə çox bənzəyir (Türklük, 1991: 21). 1864-1872-ci illərdəki Qansu üsyanı, 1895-ci ildə Şansidəki salurların üsyanları 19-cu yüzillikdə də Çin müstəmləkəçilərinə qarşı mübarizənin davam etdiyindən xəbər verir.

1894-cü ildə Yaponiya Çinə savaş elan etdi. Bu savaşda nəinki Yaponiya Çinin bir sıra əyalətlərini öz təsir dairəsinə saldı, hətta Almaniya, Fransa, Böyük Britaniya və çar Rusiyası Çinin bir sıra ərazilərini "icra" adı altında ələ keçirmişdilər. (ASE, 1984: 352, 10-cu cild).

1911-1913-cü illərdəki Şin-xay inqilabı Çinq sülaləsini devirdi və Çin imperatoruluğuna son qoydu. 1912-ci ildə Çində respublika elan olundu. Doğu Türküstan yenə də Çinin müstəmləkəsi olaraq qaldı. İkinci Mançu istilası adlandırılan bu hadisələrdən sonra bölgənin hakimiyyətini vali ələ keçirdi. Lakin xalq heç də çinli valinin hakimiyyətilə razılaşmadı.

İki super gücün − Rusiya və Böyük Britanyanın ustalıqla qurduğu diplomatik əlaqələr və güclü siyasət nəticəsində Kaşqar xanlığı 1914-cü ilə qədər yaşamış, ən önəmlisi isə Kaşqar hökuməti Osmanlı sultanı Əbdülhəmid adına

xütbələr oxutmaqla birlikdə onun adına sikkələr kəsdirmişdir.

1917-ci ildə II çar Nikolayın taxtdan salınması Doğu Türküstanlıların hakimiyyət əleyhinə təşkilatlanmasını sürətləndirir. Yeni yaranmış Sovet hökuməti də bölgəni təsir dairəsinə salmaq üçün gizli planlar hazırlayır.

1925-1927-ci illər inqilabı Çankayşi (Canq-Cie-Şi) başda olmaqla Quomindanq (Çin dilində siyasi partiya deməkdir) Çin Milli Partiyasının hakimiyyətə gəlməsilə başa çatdı. 1931-ci ildə isə Yaponiya Çinin quzey-doğusunu, Mancuriyanı, Daxili Monqolustanın və Quzey Cinin bəzi rayonlarını işğal etmişdi. 1938-ci ildə isə yapon qoşunları Çinin quzeyini bütövlükdə, Mərkəzi Çinin xeyli hissəsini və Güney Çinin mühüm rayonlarını ələ keçirmişdi.

Bolşeviklər isə hakimiyyəti ələ aldıqdan sonra güneyə və doğuya doğru yürüş edib türklərin yaşadıqları bölgələri işğal edərək keçmiş Rusiya imperiyasının sərhədlərini bərpa etməyə çalışırdılar. Onlar hələ zəif olmalarına baxmayaraq Yaponiyanın Doğu Türküstanı, Çini işğal edərək güclənməsini istəmirdilər. Var gücləri ilə Çinə yardım edirdilər. SSRİ Çinə silah, hərbi texnika, döyüş sursatı və b. materiallar verir, oraya

özünün hərbi və mülki mütəxəssislərini göndərirdi. Yapon işğalçılarına qarşı təslimçilik mövqeyi tutan qomindanqçılar Doğu Türküstanlıların haqlı tələblərini qəddarlıqla qarşılayır, silah gücünə xalq hərəkatını yatırırdılar.

Bir-birindən çox-çox uzaqda olan iki dövlət eyni vaxtda türk bölgələrinə basqın edir, yeni torpaqlar ələ keçirirdilər. Türküstanda basmaçı hərəkatı sovetlərə ağır zərbələr vurur, Doğu Türküstanlılar isə müstəqil dövlətlərini qurmağa can atırdılar. 1931-ci ilin fevral ayında Qumul vilayətində Xoca Niyaz Həccı və Salih Dorğanın öndərliyi ilə xalq Çin-Şu-Jenin (1928-1933) hakimiyətinə qarşı üsyan qaldırdı. Üsyan dalğası sürətlə ölkəni bürüdü. 1933-cü ilin noyabrın 12-də Kaşqarda Doğu Türküstan İslam Cümhuriyyəti elan edildi (Kaşqari, 1992: 19).

Lakin qurulan bu dövlətin ömrü uzun olmadı. 1934–1944-cü illər arasında Sovetlər Doğu Türküstanı öz təsir dairəsində saxlamaq, ondan Yaponiyaya və Çinin bəzi dairələrinə təsir vasitəsi kimi istifadə etmək üçün diplomatik vasitələrdən və silahlı qüvvələrdən istifadə edirdi.

1937-ci ildə SSRİ ilə Çin arasında bağlanmış andlaşma Doğu Türküstan İslam Cümhuriyyətinin ləğv edilməsilə nəticələnir. Xalq kütlələri isə bu

müqavilənin şərtləri ilə razılaşmırdı. Ölkənin müxtəlif bölgələrində itaətsizlik, silahlı üsyanlar davam edirdi.

1938-ci ilin sonlarında müqavimət hərəkatı daha da güclənirdi. Xalqın iradəsini qırmaq üçün olmazın qəddarlığıa əl atıldı. Baymirza Hayit yazır ki, Kaşqarda polis idarəsinə rəhbərlik edən sovet vətəndaşı Mavlanov bir gündə 6000 nəfəri güllələdir, 300000-dən çox Doğu Türküstanlını həbs etdirir və 10000-dən çox ailənin malını müsadirə edilməsi haqqında əmr verir (Hayit, 1995: 322-330).

Zorakılığa, kütləvi həbslərə, sürgünlərə, bölgəyə çinlilərin yerləşdirilməsinə baxmayaraq xalqın narazılığı səngimək bilməmişdi. Sovetlər də xalqın bu narazılığından istifadə edərək ölkədə qarışıqlığı daha da dərinləşdirir, Çini öz təsir dairəsinə salmaq istəyirdi. Dağlarda və mağaralarda gizlənərək silahlı qüvvələrini formalaşdıran, hökumətə qarşı partizan savaşı təşkil edən Çin kommunistləri Doğu Türküstandakı hakimiyyətdən narazı qüvvələri dəstəkləyir, onlardan öz xeyirlərinə istifadə etməyə çalışırdılar.

1944-cü ilin iyulunda İli bölgəsində-Gulca (Yining) da Əli xan Törənin başçılığı ilə çinlilərə

qarşı yenidən azadlıq savaşı başladı və bu savaş qələbə ilə başa çatdı. 1944-ci ilin avqustun 7-də "Doğu Türküstan Cümhuriyyəti"nin qurulduğu elan edildi və hökumət başçısı Əli xan Törə seçildi. Lakin beynəlxalq güclər yeni hökuməti tanımaq istəmədilər.

SSRİ müttəfiqlərinin razılığını aldı ki, faşist Almaniyası üzərində qələbədən sonra qoşunlarını Mancuriyadan keçirib Yaponiyaya qarşı savaşa göndərsin. Bu, əslində, Sovetlərin Çini təsir dairəsinə salması demək idi. Sovet qoşunları Almaniyanın müttəfiqi Yaponiya üzərinə hərəkət edəndə Çin kommunistləri də silah gücünə hakimiyyəti ələ aldılar.

Sovetlər ilə yeni qurulmuş Çin hökuməti arasında sıx əməkdaşlıq yarandı, hərbi və iqtisadi, siyasi müqavilələr bağlandı. Sovetlərin daha Doğu Türküstan hökumətinə və bir zaman dəstəklədiyi demokratik qüvvələrə ehtiyacı qalmadı. Çin kommunistləri də SSRİ kimi hərbi qüdrətli, ikinci dünya savaşından qalib çıxmış bir dövlətə arxalandığından Doğu Türküstanın müstəqilliyini istəyən kommunistlərlə əməkdaşlığı düşmənçiliyə çevirdi.

Hər iki dövlətin təzyiqi altında 1945-ci ilin oktyabrın 22-də Urumçidə danışıqlar aparıldı. Zor

durumda qalan gənc Doğu Türküstan hökumətinin rəhbərləri hakimiyyəti Çinlilərlə bölüşməyə razılaşdı. Beləcə, 1946-ci ildə çinlilərdən və Doğu Türküstanlılardan qurulan şərikli hökumətin başına Çanq Çih-Çunq gətirildi. Lakin bu hökumət də ölkədə stabilliyə nail ola bilmədi. Çünki çinli əsgər və zabitlər xalqa olmazın zülm edir, çinli məmurlar isə müsəlmanların müstəqilliyə can atmasının qarşısını zor gücünə almaq, bölgəni müstəmləkə kimi idarə etmək istəyirdilər.

"Doğu Türküstan Cümhuriyyətinin Cümhurbaşqanlığına Əli xan Törə, Cümhurbaşqanı köməkçisinə Hakim bəy Hoca, Baş Katibliyə Abdulrauf Mahsum gətirildi. Doğu Türküstan Cümhuriyyəti Dövlət Şurasının 17 nəfərlik üzvü seçildi. Nazirliklər təsis edildi və nazirlər təyin edildi... Bu tarixi toplantıda yenə günlük "Şarki Türküstan Gazetesi"ni nəşr etmek qərarı verildi" (Kaşqari, 1993: 32).

1941-ci ilin avqustunda Sovet qoşunlarının İrana daxil olması ilə Güney Azərbaycanda milli hərəkat gücləndi və nəticədə 1945-ci ildə S.C.Pişəvərinin başçılığı ilə yeni hökumət təşkil edildi.

Gördüyümüz kimi, Doğu Türküstanda da hər şey Güney Azərbaycandakına oxşar şəkildə

cərəyan etdiyindən təfsilata varmağa ehtiyac duymuruq. Çünki ssenari eyni idi. Hər iki bölgədə Rusiya strateqləri türklərin milli hisslərindən məharətlə faydalanırdılar.

1946-cı ilin dekabrında şah orduları Güney Azərbaycanda qurulmuş dövlətin varlığına son qoyur və rəhbərləri, fəalları Sovetlər Birliyinə gətirilir. Güney Azərbaycanda qurulmuş, milli hökumətin rəhbəri S.C.Pişəvəri 1947-ci ildə Quzey Azərbaycanda avtomobil qəzası adı ilə öldürüldüyü kimi, "Doğu Türküstan Cümhuriyyətinin əsaslı liderlərindən rəis Ahmetcan Kasimi, Milli Qurtuluş Ordusunun komandiri general İshak bəy, komandir köməkçisi general Delil Xan, Milli Qurtuluş Ordusunun Siyasi komissarı Abdukərim Abbas kimi insanların Pekinə çatdıqdan sonra Mao-Ze-Dong ve Çin Kommunistlərinin Doğu Türküstan məsələsindəki fikirlərinə "bəli" deməsini istədilər. Amma Ahmetcan Kasimi, İshak bəy, Delil Kanlar Stalinin tövsiyələrini məharətlə rədd edərək, Pekində Çin Kommunist liderlərindən Doğu Türküstana dövlət statusu və müstəqillik istəyəcəklərini bildirdilər. Sonunda Stalin ilə Mao-Ze-Dong gizli anlaşarak "uçak qəzası" süsü verərək onları yox etdilər...

Sovetler Birliyinin dəstəyiylə Qızıl Çin Ordusu Doğu Türküstanı oktyabr 1949 tarixində işğal etdi" (Kaşqari, 1993: 36).

Doğu Türküstanın son yüzilliklərinə qısa bir nəzər salmamızın səbəbi xalqının azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan ictimai-siyasi xadimlərin millətinin maariflənməsi üçün folklordan, ədəbiyyatdan istifadə etdiklərini, bədii yaradıcılıqla məşğul olduqlarını, pyeslər yazdıqlarını diqqətə çatdırmaqdır.

***

Avropanın uyğurlara marağı 1878-ci ildə Regel heyətinin səfərindən sonra başladı. Təkləməkan çölündəki xaraba şəhərlər tarixçilərin də, etnoqrafların da, kulturoloqların da, folklorçuların da diqqətini özünə çəkdi. İngilis zabiti Boverin 1890-ci ildə Kuça xarabalıqlarından tapılmış miladi 4-cü yüzilliyə aid əlyazmaları satın alaraq Avropaya aparması dünyanın məşhur araşdırıcılarının diqqətinin bölgəyə yönəlməsinə səbəb oldu.

Almanlardan Qrünvedeldin 1902-1903, 1905-1907-ci illərdəki, V.Le Cokun 1904-1906, 1913-1914-cü illərdəki, ingilislərdən Aurel Steinin 1900-1901, 1906-1908, 1913-1916-cı illərdəki üç

səfəri, fransızlardan Pelliotun 1906-1909-cu illərdəki səfəri bölgəyə marağı daha da artırdı. Yaponlardan Otanif və Hedinin coğrafi araşdırmaları üzündən ruslardan Kozlo-Rovorovski, Oldenburqun yazıları 20-ci yüzildə dünya elmini sanki silkələdi. Bölgədən aparılan fresklər, yazılar, heykəllər dünya muzeylərini bəzədi (Hüseynova, 2015: 261).

Azərbaycanda isə uyğur folkloruna maraq sovet hakimiyyəti illərində başlamışdır. Senzura folklorun, ədəbiyyatın, tarixin ümumtürk kontekstində araşdırılmasına icazə verməsə də Azərbaycan folklorunun tarixindən söz açan araşdırıcılardan Vaqif Vəliyev "Azərbaycan folkloru" (1985), Kamil Vəliyev "Dastan poetikası" (1989), Pənah Xəlilov "Türk xalqlarının və şərqi slavyanların ədəbiyyatı" (1994), Nizami Cəfərov "Eposdan kitaba" (1999), Azad Nəbiyev "Azərbaycan şifahi xalq ədəbiyyatı" (2002) kitablarında, eləcə də Almaz Həsən qızı, Qətibə Vaqif qızı, Vüqar Ömər oğlu öz məqalələrində uyğur folklorundan və mədəniyyətindən geniş bəhs etmişlər.

1. Uyğur folkloru

Uyğurların folkloru zəngin olmaqla yanaşı janr əlvanlığı ilə də seçilir. Ona görə də qonşu xalqların folkloruna, ədəbiyyatına, təfəkkürünə də güclü təsir göstərmişdir. Ümumtürk folkloruna aid edilən bir sıra nümunələrin qədim Çin və fars qaynaqlarında qorunub saxlanması da dediklərimizə ən bariz nümunə ola bilər.

1.1. Miflər

Xalqlarımızın minilliklərin arxasındakı dünyagörüşünü öyrənmək baxımından miflər olduqca dəyərli informasiyaları özündə qoruyub saxlaya bilmişdir. Dini-mifoloji sistemin, inancların, əski dövr dünyagörüşlərinin günümüzədək gəlib çatmasında dastanların, əfsanələrin, nağılların və xalq şeirinin xüsusi yeri var. Bu janrlara türk xalqlarının folklorunda kifayət qədər rast gəlmək olur. Uyğurların toplayıb çap etdirdiyi miflərin əsksəriyyəti başqa türk xalqlarından toplanmış miflərlin oxşarı və ya variantlarıdır. Bunlar da bir daha eyni kökdən şaxələndiyimizdən xəbər verir.

Uyğur miflərində qadın qəhrəmanlardan biri Umay Anadır. Umay türk mifoloji sistemində yer alan önəmli tanrılardan biridir. Türk

mifologiyasında “tanrı” göylə yerin birliyi səklində düsünülən ilahi düzənlə və bu düzəni yaradıb yaşadan ulu güclə bağlı olan güc kimi təsvir edilir. Uyğurlardakı “Yer və ilahi öküz”, qazaxlardakı “Göy necə yüksəldi”, salurlardakı “Xudanın Göy və Yeri üfürərək yaratması”, tuyqunlardakı “Göy ilə Yerin yaranışı”, monqollardakı “Göy ilə Yerin yaranışı” və b. yer ilə göyün bir olduğu, onların sonradan ayrıldığı ilə bağlı miflərdir.

Mişer tatarları “əqrəba” (tuqankay), “qardaş” (qarindeşkey) kimi çox yaxın qohumlara “amıy” deyirlər. Bu söz Azərbaycanda atanın qardaşı - əmi kimi işlədilir. Bunun Umayla (Imay, Amıy) bağlılığı haqqında bir sıra maraqlı araşdırmalar vardır. Tatar alimi N. İsenbet “ama”, “eme”, “imi”, “emeci”, “emecek”, “imçek” kəlimələrinin kökündə də “analıq” anlamının olduğunu və onların hamısının da əski anaxaqanlıq dovrünün izlərini özündə yaşatdığını yazır (Tatar Miflari, 1996: 25-26).

1. Alimcan İnayet və Adem Öger “Uyğur Türklerinin mitolojik, dinî ve tarihî kadın kahramanları üzerine” məqaləsində uyğurların “Əsma Pəri” mifindən söz açarkən yazırlar: *“*Göy üzü mələklərinin padışahı bütün mələklərdən gözəl imiş və göy üzünün yeddinci qatında

yaşıyırmış. Təbiətdə baş verənlər bu mələyin əhvalındakı dəyişmələrdən asılıymış. Yəni bu mələk gözünü açanda gün doğar, bütün dünya işıqlanar, gözünü yumanda, yəni yatanda bütün dünya qaranlığa bürünər, ağlayanda yağış yağar, güləndə qar yağar, ağzını açanda tufan qopar, nəfəs alanda yel əsər, qaşını çatsa hava pozular, hirslənəndə zəlzələ olar, qaşını oynatsa, göy qurşağı meydana gəlirmis. Buna görə, ona Əsma Pəri deyirlərmiş". Buradakı "Əsma Pəri", yəni "göylərin pərisi" Göy Tanrıdan basqa bir şey deyildir (İnayet və Öger, 2009, 4/3).

Əsma Pəri ilə mifoloji Ana arasındakı bağlılıq açıq-aşkardır. Əgər yer ilə göyün baslanğıcda bir olduğu haqqındakı görüş doğru isə, göy ilə yerin ayrılması ilə, əslində, tək olan Ulu Ana və ya mifoloji Ana Göy Tanrı və Yer-Su Tanrısı olaraq ikiyə ayrılmış olmalıdır. O zaman Göy Tanrı və Yer-Su Tanrısının Ulu Ana / mifoloji Ana (Ana Yayaçı) kimi həm yaradıcı, həm yoxedici, həm həyatverici, həm öldürücü, həm verici, həm alıcı xüsusiyyətləri ortaq kökə dayanır. Yaradıcı Göy Tanrıdan Günəş Tanrı, Ay Tanrı, Uldız Tanrısı, Ülgen, Kayraxan; Yer-Su Tanrısından Umay /May Ene /Payana /Bayana /Ayısıt, dağ, çay və meşə əyələri ortaya çıxmışdır. Yoxedici Göy Tanrıdan

İldırım Tanrısı, Simsek Tanrısı, Əjdəha, Erlik; Yer-Su Tanrısından Albastı/Al Qarısı /Yalmavuz /Celbegen /Mestan Kempir /Qara Umay ortaya çıxmışdır. Bütün bu tanrılar, ilahlar və əyələr, Ulu Ana/mifoloji Ananın həm yaradıcı həm yoxedici, həm yasamverici, həm öldürücü, həm erkək, həm dişi xüsusiyyətlərini daşıyır. Yer-Su Tanrısından biri olan Umay da həm qoruyucu (Ağ Umay), həm yoxedici ölüm mələyi (Qara Umay) funksiyasına sahibdir. Umay türk mifoloji sistemində yalnız qadın və uşaqların qoruyucusu deyil, eyni zamanda heyvanların, qəbilənin də qoruyucusudur. Onun bu qoruyuculuq funksiyası, eyni zamanda, onun qəhrəman, savaşçı yönünə də işarət edir.

2. Uyğur türklərinin Umay sevgi ilahı, hamilə qadınların tapındıqları ilah və kiçik uşaqları qoruyan ilah olaraq anladılmaqdadır: "Aləmin üzəri yaradıcı Tanrının yaşadığı yer olub, nurlu və parlaq bir məkanmış. Üstdəki parlaq məkan ilə altdakı qaranlıq yer arasında Umay varmış. O, övladlarına torpaq və su verən "baxt ilahı" olaraq bilinirmiş. "Umay İlahə", eyni zamanda sevgi ilahı, hamilə qadınların tapındıqları ilah və kiçik uşaqları qoruyan ilah olaraq da qəbul edilirmiş" (İnayet və Öger, 2009, 4/3).

Dini-mifoloji varlıq olan Umayın qoruyucu və bu vəzifənin qarşılığı olan qəhrəmanlıq və döyüşçülük funksiyası xalq ədəbiyyatının müxtəlif janrlarında fərqli səkillərdə işlənmiş, şaxələnmiş və zənginləşdirilmişdir. Uyğurlar arasında müxtəlif kəramətləri ilə xatırlanan qadın qəhrəmanlardan Əmçək Xocam haqqındakı əfsanədə onun izlərini görmək olar. Əmçək Xocamın Turfanın Toksun qəsəbəsində qəbri var. Buraya insanlar, xüsusən də döşündə xəstəliyi olan, südü az və ya heç olmayan qadınlar ziyarətə gəlirlər. Araşdırıcıların fikrincə, bu ziyarətin kökündə tarixi qəhrəmana sayğıdan çox uyğurlarda Umay Anaya inancın yaşaması durur.

Uyğurlar arasında yadelli işğalçılara müqavimət göstərən qadınlar haqqında da maraqlı əfsanələr vardır ki, araşdırıcılar onlarda da Umayın izlərinin olduğunu yazırlar. Xalq arasında geniş yayılmış "Büvi Rabia haqqında" əfsanəni və "Ana qovuq haqqında" əfsanəni buna misal göstərmək olar.

Uyğurların "Ana kovuk hakkıdə" adlı əfsanəsindəki Kızılçı xanım Umay Ananı xatırlatmaqdadır. Kızılçı xanım "günəş ilə yarışan", "aydan geri qalmayan gözəlliyi", "savaşda kişi kimi geyinməsi", "cəsur", "çevik",

“bahadır”, “igid” özəlliyi, “qılıç” və “mızraq” işlətməsi, duasının qəbul olub “yerin yarılması” və “onu qoynuna alması” kimi epitetlərlə təqdim edilir ki, bunların da çoxu Umay Anada var.

Müsəlman uyğurların buddistlərlə apardıqları döyüşdən bəhs edən əfsanələrdə də qadın qəhrəmanların təsvirində Umay Ananın izləri görünür.

1.2. Dastanlar

Araşdırıcılar uyğurları türk xalqları arasında ilk oturaq həyata keçənlərdən sayırlar. Türk soyunun ən qədim abidələri hesab edilən “Törəyiş” və “Köç” dastanları uyğurların qədim inanc və təsəvvürlərini, bu etnosun yaranma tarixini poetik dillə ifadə edən mifik dastanlar sayılır. “Köç” demək olar ki, “Törəyiş”dən sonrakı hadisələri özündə əks etdirir. Bəzi araşdırıcılar isə hər iki mətni böyük bir uyğur dastanının parçaları hesab edirlər. Hər iki dastanın türkcə mətnləri günümüzədək gəlib çatmamışdır. Dastanların mətnləri Çin və İran mənbələrindən alınmışdır. 13-14-cü yüzillərdə yaranan “Çingiznamə” (Çingiz xan) dastanında da “Törəyiş” və “Köç” dastanları ilə oxşar motivlər vardır.

Uyğurların toplayıb çap etdirdikləri dastanların əksəriyyəti türk xalqlarının, xüsusən də oğuz türklərinin arasında da geniş yayılmışdır. Onların "Qərib ilə Şahsənəm", "Tahir ilə Zöhrə", "Yusup ilə Əxmət", "Məsud ilə Dilaram", "Sənevbər", "Qəmərşah ilə Şəmsi Canan" və b. dastanları, mövzusu Qurani-Kərimdən, Doğu ədəbiyyatından alınmış "Yusup ilə Zileyxa", "Fərhad ilə Şirin" və b. dastanlarla istər Azərbaycandan, istər İran türklərindən, istər Türkiyədən toplanaraq nəşr edilmiş dastanlar arasında oxşarlıq çoxdur.

Bir sıra dastanlar da vardır ki, bunlar uyğurların 19-20-ci yüzillərdə yaşamı və mübarizəsilə bağlıdır. Bu dastanlarda uyğurların yadelli işğalçılara qarşı mübarizəsi təsvir edilmişdir. "Abdulrehman xan Qoca" dastanı "Tümür Xəlpə" üsyanının təsiri ilə yaranmışdır. Üsyan isə 1911-ci ildə Qumulda baş vermişdir.

İşğalçılara qarşı müqavimət yalnız dastanların deyil, əfsanə, rəvayət və xalq mahnılarının da yaranmasına səbəb olmuşdur. Döyüş, müqavimət, etiraz, sevgi, məhəbbət, sədaqət kimi mövzular epik əsərlərin yaranmasına geniş imkanlar açdığından uyğurlar arasında son yüzilliklərdə maraqlı bölgəsəl dastanlar yaranmışdır. Bu

dastanlar arasında “Naziqim” (Nazuqum-Nuzuqum) dastanı daha geniş yayılmış və dillər əzbərinə çevrilmişdir. Dastanda Kaşqar xalqının 1826-ci ildə Çin hökumətinə qarşı başladığı milli azadlıq hərəkatı və bu üsyanın zor gücünə yatırılmasından sonra baş verən hadisələr təsvir edilmişdir. Beləliklə, Naziqim uyğurların milli azadlıq mübarizəsinin və müstəqillik uğrunda savaşının simvoluna çevrilmişdir.

Uyğur folklorunda qəhrəman kimi tanıdılan qadınlardan biri də İparxandır. İparxanın əsil adı Nur Əlanurdur. Apaq Xoca (Hidayitullah) tərəfindən Üçturfana sürgün edilən Saidiyə xanlığının hökmdarı Əmir Muhammədin nəvəsi olan Nur Əlanurxanın gözəlliyi dillər əzbəri olduğuna görə, ona xalq arasında İparxan deyilmişdir. “Kitabi Dədə Qorqud”dakı Banuçiçək kimi at minib ox atmaqda mahir olan, savaşlarda qəhrəmanlıq göstərən İparxan Mançu xanlarından İsinqnunun əsgərləri ilə döyüşdə əsir düşür. Onun gözəlliyinə və döyüşlərdə göstərdiyi hünərə heyran qalan İsinqnu xan bu qəhrəman qadınla evlənmək sevdasına düşür. Lakin İparxan əsir olsa da, İsinqnu xanın təklifini qəbul etmir, bütün hiylə və təzyiqlərə müqavimət göstərməyi bacarır.

Hər iki qadın qəhrəmanın haqqında dastanla yanaşı əfsanə, rəvayət və mahnılar da yaradılmışdır.

1864-1871-ci illərdə Mançu istilasına və onun yerlərdəki əlaltılarına qarşı bir neçə dəfə üsyan olmuşdur. Bu üsyanlarda qəhrəmanlıq göstərən qadınlardan biri də Mayimxan olmuşdur. Mançu hakimiyyətinə qarşı üsyanda göstərdiyi igidliyə görə xalqın sevimlisinə çevrilən Mayimxanı həbs edərək dar ağacından asmışlar. Ona həsr edilmiş xalq mahnılarının birində deyilir:

Zindan tami igiz tam - Zindan damı yüksək dam,

Unin içi gorustan - Onun içi görustan (qəbristan).

Erkinlikke bel bağlap - Azadlığa bel bağlayıb,

Şehit ölgen Mayimhan - Şəhid olan Mayimxan.

Mayimhan özi obdan - Mayimxan çox yaxşı,

Bezide huyi yaman - Bəzən də huyu yaman.

Unin canini aldi - Onun canını aldı,

Qan içer qara zaman - Qan içən qara zaman.

Doğu Türküstanda 1944-1945-ci illərdə baş verən milli azadlıq hərəkatını çox vaxt "Üç vilayət

inqilabı" adlandırırlar. Çin (Quomindanq) əsgərlərinə qarşı vuruşmalarda igidlik göstərən insanlardan biri də Rizvangül olmuşdur. Rizvangül 1944-cü ildə Gulcanın (Yining) Hərəmbağ bölgəsində yadellilərə qarşı savaşda şəhid olmuşdur. Bu cəsur və qəhrəman qızın şərəfinə də mahnılar qoşulmuş, hünərini öyən şeirlər yazılmışdır. Xalqın sevimlisinə çevrilən Rizvangül haqqında qoşulan mahnıların birində deyilir:

Xəvər kəldi goya bir -Xəbər gəldi guya bir,
Suldi digən qizil gül -Soldu deyə qızıl gül.
Vətən uçun can pida -Vətən üçün can fəda,
Emesmidu Rizvangül - Deyilmiydi Rizvangül?

Bunlar onu göstərir ki, minillikləri keçib gələn dastançılıq ənənəsi günümüzdə də yaşamaqdadır.

1.3. Koşak, mani-bayatılar

Uyğur folklorunda və yazılı ədəbiyyatında xalq koşaklarının xüsusu yeri var. Koşaklar istər mövzu, istərsə də forma baxımından rəngarəngdir. Zəngin tarixi keçmişə və ənənəyə dayanan koşaklar haqqında çox yazılmışdır və bu janr Azərbaycanda qoşma, bayatı, türkmənlərdə

dörtləmə, qazaxlarda şuvmak türi, qırğızlarda tört sap, özbəklərdə koşık, başqırd və tatarlarda dürtyıllık (şiğır), çuvaşlarda takmak adlandırılan şeir növü ilə demək olar eynidir.

"Divanü lüğat-it-türk"də "koşuğ - şeir, qəsidə" kimi izah edilir. Əmin Abid də 1920-ci illərdə yazdığı bir sıra məqalələrində bu mövzuya toxunmuşdur. Koşak-koşmak, koşuk, koşaş kimi şifahi danışıqda və ədəbi dildə müxtəlif deyiliş və yazılış şəkli olan düzgün, qafiyəli sözlərin müəyyən bir ölçü və ahəng içində bir araya gəlməsi şəklində izah edilir.

Uyğur koşakları Azərbaycan qoşmaları ilə eyniyyət təşkil etsə də, uyğurlarda koşak daha geniş anlamda işlədilir. Onlar koşak dedikdə, az qala şifahi xalq ədəbiyyatına aid etdiyimiz şeirlərin əksəriyyətini başa düşürlər.

Uyğurların "Xaliq eğiz icabiyiti" adlandırdıqları ədəbiyyatda koşaklar ən çox dördlüklər şəklindədir. İki, beş və altı misralı koşaklar olduğu kimi misralardakı hecalar da fərqlidir. Misraları 4 ilə 6 arasında dəyişən qəliblər olsa da, ən geniş yayılanı 7 və 8 hecalılardır. Onların qafiyə sistemi də bizlərdə və əksər türk xalqlarında olduğu kimi dördlüklər *aaaa, aaba, abab, aaab və abcb* şəklindədir.

Bizlərdə olduğu kimi uyğurlarda da araşdırıcılar koşaqları bölgülərə ayıranda bir-birindən fərqlilik ortaya çıxır. Məsələn, "Uyğur xaliq eğiz icadiyiti" kitabında koşaklar aşağıdakı kimi təsnif edilir:

1. Emgek koşakları (əmək koşakları),
2. Mevsim-mərasim koşakları (mövsüm-mərasim koşakları),
3. Işki-muhəbbət koşakları (eşq-məhəbbət koşakları),
4. Tarixi-qəhrəmanlık koşakları (tarixi-qəhrəmanlıq koşakları),
5. 16-cı il koşakları (1916-ci ilin hadisələrini əks etdirən koşaklar) (Uyğur Xelq Eğiz İcadiyiti, 1983).

Muhəmmət Zunun və Abdulkərim Rehmanın təsnifi isə belədir:

1. Emgek koşakları (əmək koşakları),
2. Siyasiy koşaklar (siyasi koşaklar),
3. Turmuş koşakları (gündəlik həyatla bağlı koşaklar),
4. Muhəbbət koşakları (məhəbbət koşakları),
5. Balilar koşakları (uşaq koşakları)

Araşdırıcı Osman İsmail isə koşakları bu şəkildə təsnif etmişdir:

1. Emgek koşakları (əmək koşakları) ,

2. Örp-adət koşakları (adət-ənənə koşakları),
3. Siyasiy koşaklar (siyasi koşaklar),
4. Turmuş koşakları (gündəlik həyatla bağlı koşaklar),
5. Muhəbbət koşakları (məhəbbət koşakları),
6. Balilar koşakları (uşaq koşakları**)**

Uyğur xalq koşakları içərisində bizlərin bayatı dediyimiz janr ağırlıq təşkil etməkdədir. Araşdırıcılar onları aşağıdakı kimi bölgülərə ayırırlar:

1. Düğün, nişan gibi ortamlarda sevgi ve aşkı ifade etmek için söylenen koşaklar.

2. Kızlarla oğlanlar veya aşıklar arasında atışma amacıyla söylenen koşaklar.

3. İşte çalışırken söylenen koşaklar.

4. Ramazanda yardım toplanırken söylenen koşaklar.

5. Dünürlükte kız isteme sırasında söylenen koşaklar.

7. Çocuk oyunlarında, eğlence amaçlı söylenen koşaklar.

8. Nevruz, bahçe, kavun bayramı gibi şenliklerde söylenen koşaklar.

9. Kış aylarında, sazlı-sözlü ortamlarda eğlenmek amacıyla söylenen koşaklar (Öger,

Mani Tarzındaki Uyğur Halk Koşakları Üzerine Bir Degerlendirme).

Bizim bayatılarla demək olar ki, eyni olduğundan, hətta oxşar bölgülərə ayrıldıqlarından üzərində geniş durmadan bir neçə nümunə verməklə kifayətlənirik.

Yarimnin leven sözi - Yarımın gözəl sözü,
Oynap turidu közi - Oynayıp durur gözü,
Aymikin kuyaşmikin - Aymıdı, günəşmidi
Yarimnin güzəl üzi - Yarımın güzəl üzü.

Su bolsa suzuk bolsa - Su olsa, təmiz olsa,
Erikta ekip tursa – Ərikdə əkib dursa,
Aşik bilen meşuklar - Aşiq ilə məşuqlar,
Yan xoşna yakin bolsa – Bir-birinə yaxın olsa.

Yagliğimni yudurdum –Yaylığımı yudurtdum,
Bağka alma yaydurdum - Bağa alma yaydırdım,
Aran tapkan yarimni - Çətin tapdığım yarımı,
Karakçiğa aldurdum -Quldura aldırdım.

Karliğaç kara bolur –Qaranquş qara olur,
Kaniti ala bolur - Qanadı ala olur,
Yarin bivapa bolsa - Yarın vəfasız olarsa,
Beşiga bala bolur - Başına bəla olur.

Yar boyini körsətti - Yar boyunu görsətdi,
İçim ot tolup ketti - İçim od dolub getdi.
İşik oti yamanken - Eşq odu yamanmış,
Yürekni kavap etti – Ürəyi kabab etdi.

Aymidu, aylarmidu - Aymıdır aylar mıdır?
Ayğa bulut daldimidu - Aya bulud gəldimi,
Yar yiraktin kəlgüçe - Yar uzaqdan gəlincə,
Akkan yeşim deryamidu - Axan yaşım dəryamıdır?

Əksər türk xalqları mani-bayatılarını, uyğurlar da koşakları toylarda, bayramlarda, qış gecələrində təşkil etdikləri əyləncələrdə, tarlalarda, dağlarda dincələrkən, uşaqlarını oynadarkən, eləcə də uşaqlar bir-birlərilə oynayarkən oxuyurlar.

1.4. Uyğurların 12 mukamı

Uyğur ağzında "mukam" olaraq tələffüz edilən termini Türkiyədə "makam", Azərbaycanda "muğam" kimi tələffüz edirlər. Əslində, muğamların sayı müxtəlif dövrlərdə çoxalıb-azalsa da, "on iki mukam" şəklində günümüzədək gəlib çatmışdır. Musiqi folklorunun əvəzsiz

nümunəsi olan “12 mukam” həm yazılı, həm şifahi ədəbiyyatın gözəl nümunələrini qoruyub saxlamışdır.

Uyğurlarda “on iki mukam” rak-rəhab, çebbayat-hüseyni**,** müşavirək-rast, çargah-hicaz, pencigah-büzürg, özhal-köşək, əcəm, üşşaq, bayat, nəva, segah, iraqdan ibarətdir. Muğamların da hər biri “Çonq nəğmə” (böyük nəğmə), “Dastan” “Meşrep” olmaq üzrə üç yerə bölünür:

- “Çonq nəğmə” (böyük nəğmə) 9-10 lirik mahnıdan təşkil olunur. “Çonq nəğmə” (böyük nəğmə) öz içərisində yenə “təzə”, “səlikə”, “təkit”, “nushə”, “cula”, “sənəm”, “peşru” kimi bölmələrə ayrılır.
- “Dastan” qismində 3 ilə 6 arasında dəyişən sayda nəğmə vardır. Bu nəğmələrdə bir sujet, təhkiyə var. Yəni “Pərhad ilə Şirin”, “Qərip ilə Sənəm”, “Tahir ilə Zöhrə” kimi xalq dastanlarından alınan parçalar oxunur. Hər nəğmədən sonra bir mergül gəlir. Mergül muğamda bir şöbədən o birinə keçərkən çalınan keçid, rəng, melodiyadır.
- “Meşrep” qismində 3 ilə 6 arasında dəyişən sayda nəğmə olur. Bunlar əvvəlcə yavaş başlayan, getdikcə coşğunlaşan ritmik mahnılardır.

Uyğur muğamlarından bəhs edən araşdırıcılar onların kökünün miladdan öncə 5-6-cı yüzilliklərdən əvvələ gedib çıxdığını yazırlar.

Musiqi folklorunun ən qədim və olduqca zəngin qolunu təşkil edən muğamlar həm də yazılı və şifahi ədəbiyyatın əvəzsiz nümunələrinin qorunub saxlanmasında böyük rol oynamışdır. Prof. Abdulkərim Rehmanın araşdırmasına görə, uyğurların "on iki mukam"ında 28 şairin 1945 misrası, xalq ədəbiyyatından 931 misra şeir oxunur.

Uyğur xalq mahnılarında əsasən "koşak" və "beyt"lər oxunur. Bunlardan başqa, "takmak" (çaçma) adıyla bilinən bir şəkli də vardır. Bu da rəqs və musiqinin müşayiətilə oxunan duetlərdir. Onlardan bir nümunə belədir:

Bu tağlar igiz tağlar - Bu dağlar uca dağlar,
Qərip yolini bağlar – Qəribin yolunu bağlar.
Qərip ölse kim yığla - Qərib ölsə kim ağlar,
Qəripka qərip yığlar – Qəribə qərib ağlar.

Uyğurlarda da bir çox mahnılar tarixi hadisələrlə bağlıdır. Tarixi şəxsiyyət olan Nazqumun, Sadır Pəlivanın və Mayımxanın

həyatlarından, onların faciəli ölümlərindən bəhs edən "Nazuqum mahnısı", "Sadır Pəlvan mahnısı", "Mayımxan mahnısı" bunlardandır.

Diqqəti çəkən odur ki, uyğur muğamlarında Kaşqari Mahmudun "Divanü lüğat-it-türk"ündən alınmış şeirlər də oxunur. Amma şeirlər Divanda olduğu kimi oxunmur. Divanın ayrı-ayrı yerlərindəki şeirlər birləşdirilərək yeni bir mahnı mətni yaradılır.

Uyğurlar "on iki mukam"da dastanlardan da geniş istifadə edirlər. Belə ki, iraqda 24 misra, segahda 56 misra, əcəmdə 8 misra "Yusup ilə Əxmət" dastanından alınıb oxunduğu kimi, rak mukamının dastan şöbəsində "Məsu ilə Dilaram" dastanından 8 misra, qalan misralar isə "Qərip ilə Sənəm" dastanından alınaraq oxunur.

Ümumiyyətlə, uyğurların "on iki mukam"ında "Qərip ilə Sənəm", "Bəhram ilə Dilaram", "Sənevbər", "Yusup ilə Əxmət", "Kəmərşah ilə Şəmsi Canan", "Hörlika ilə Həmracan", "Şahzadə Nizamidin ilə Məlikə Rəna", "Pərhad ilə Şirin", "Şahzadə Dildar ilə Məlikə Mihirlıka", "Şahzadə Fərrux ilə Məlikə Gülrux", "Yusup ilə Zileyxa" dastanlarından seçilmiş şeir parçaları oxunur.

Çebbayat muğamının üçüncü dastan şöbəsində "Qərip ilə Sənəm" dastanından belə bir şeir parçası oxunur:

Başvan bolup başın içrə - Bağban olub bağça içində,

Tərsəm taza güllərindin - Dərsəm təzə güllərindən.

İgəm səni xoş yaratmış - Mövlan səni xoş yaratmış,

Egsəm nazuk bellərindin - Tutsam nazik bellərindən.

Məni sorisan uşbu halda - Məni sorsan işbu halda,

Rəngim seriķ, közüm yolda - Üzüm sarı, gözüm yolda.

Başrım daşı çahar başda -Bağrımın daşı çahar başda,

Şipa tapsa ķollarındin – Şəfa tapsa qollarından.

Mənzinnin əsli lalədur - Bənzinin əsli lalədir,

Ķarışın canı aladur - Baxışın canı alandır,

Ağzın altun piyalədur - Ağzın altın piyalədir,

Ķuyup içsəm çaylarındin - Koyup içsəm çaylarından.

İraq muğamında da qəhrəmanlıq dastanı olan "Yusup ilə Əxmət"dən bəzı mahnılar oxunur (Alimcan, 2007, 2/2).

1.5. Uyğur tapmacaları

Nəzm və nəsr şəklində olan tapmacalar türk xalqlarının hamısında olduğu kimi uyğurlar arasında da geniş yayılmışdır. Şifahi xalq ədəbiyyatının janrlarından biri olan tapmacalar "Divanü lüğat-it-türk"də *"tabuzğu, tabuzğuk, tabzuq, tabızmak, tabuzmak, tapuz, tapzuk nenq"* şəklində ilk dəfə yazıya alınmışdır.

Tapmaca terminini Azərbaycan türklərində *bilməcə, tapmaca*, Abakan tatarlarında *tabcan*, Altay türklərində *tabıskak, tabışkak, tabkak, taptıruv, taptırgış, tabıska, tabısak, tapkış, tavısak, tavusak, tavuskak, tapkır, takpır, tabışkak*; başqırd türklərində *tabışmak, yomak, yomatgar;* xakas türklərində *tapçan nımah, tapçan umak, sespak nımak;* qaraçay türklərində *yumak*, qaraqalpaq türklərində *jumbak*, karaim türklərində *tapmaca*; qazax türklərində *jumbak*, Kıbrıs türklərində *mesel*; qırğız türklərində *tabışmak, tabcang-nımah*; noqay türklərində *tapmacak*, özbək türklərində *tapişmak cumak, çöpçak, matal, tapar,*

tapmaca, tatar türklərində *başvatkıç, sir, tabışmak*; tuva türklərində *tıvızık*, türkmən türklərində *matal, tapmaca*; saka (yakut) türklərində *taabırın,* uyğur türklərində *tepişmak* termini işlədilir.

Uyğur tapmacaları istər forma, istərsə məzmun baxımından qohum olduğu başqa türk xalqlarının tapmacaları ilə demək olar ki, eynidir.

Onlardan bir neçə nümunə verməklə mövzunu yekunlaşdırırıq.

1. Bir dövidə yette töşük? – *Bir təpədə yeddi deşik*? (İnsanın başında olan iki burun, iki göz, iki qulaq və bir ağız dəliyi nəzərdə tutulur).

2. Qizil kala yatip qaptu, *Qızıl inək yatıb durur*,

Qara kala ketip qaptu? - *Qara inək gedib durur?* (Od ilə his, tüstü)

3. Qara atni qanturup qoydum, - *Qara atın yəhərini çəkdim,*

Qara cuvini böktürüp qoydum? - *Qara kürkünü çiyninə qoydum?* (Qazan ilə odun tüstüsü)

4. On beş keçə körsətsə yaruk üzini,- *On beş gecə göstərsə parlaq üzünü,*

On beş keçə körsətməs sizgə özini?- *On beş gecə göstərməz sizə özünü?*(Ay)

5. Mindin köptür çəçigi, - *Mindən çoxdur çiçəyi,*

İkki talla yopurmigi? - *İki dənə yaprağı?* (Ulduz, gün, ay) (Öger, 2011).

1.6. Uyğur folklorunun başqa janrları

Uyğur folklorunda istər Azərbaycan, istərsə də başqa türk xalqlarının folklorundan fərqli janrlara rast gəlinmir. Mövzu baxımından da oxşarlıq çoxdur. Fərqlilik son yüzillərdə yaranan folklor nümunələrinin mövzusundadır. Onlarda da əski dönəmin folklor nümunələrinin izləri görünməkdədir.

Ona görə də uyğur folklorunun janrlarının hamısı haqqında söhbət açmağa ehtiyac duymadıq. 19-20-ci yüzillərdə sosial ədalətsizliyi, haqsızlığı, istismarı, müstəmləkəçiliyi kəskin tənqid edən xalq şairlərinin şeirləri sürətlə yayılırdı. Seyid Noçi, Tümür Xəlpə və başqaları xalq arasında daha populyar olmuşdur. Onlar çox vaxt SSRİ-də baş verənlərin əsil mahiyyətini anlamadan orada zülmə, haqsızlığa son qoyulduğunu, hamının bərabər yaşadığını düşünmüşlər. Seyid Noçinin "Dihkanin ahi" (Dehqanın-əkinçinin ahı), "Cen kilayli xalayik" (Cəng edəli xalqım), "Lenin hikməti" (Lenin hökuməti), "Şura biznin dostumiz" (Sovet bizim

dostumuz) kimi şeirləri dediklərimizə nümunə ola bilər.

Çin Milli Partiyası Qomindanın yeritdiyi siyasət əleyhinə xalqın qoşduğu mahnılar da geniş yayılmışdır. Xotənlilər arasında geniş yayılmış "Abdulrehman xan Qoca" dastanında da xalqın etirazı öz əksini tapmışdır. Bütün bunlar da yazılı ədəbiyyatın inkişafına güclü təsir göstərmişdir.

2. Uyğur ədəbiyyat tarixindən

Qədim dövr türk dili və ədəbiyyatı tarixindən yazan elə bir araşdırıcı yoxdur ki, bu və ya başqa şəkildə Orxon-Yenisey abidələrindən, Yusif Xas Hacib Balasaqunlunun "Qutadğu bilig", Kaşqarlı Mahmudun "Divanü lüğat-it-türk", Əhməd Yuqnakinin "Hibət əl-həqaiq" (Həqiqətlət töhfəsi) əsərlərindən bəhs etməsin. Özbək də, qazax da, qırğız da, tatar da, qaqauz da, başqaları da türk kökənli olduqları ilə qürur duysalar da, bu gün hər biri özünü ayrı bir millət sayır. Amma hamısı ədəbiyyat tarixlərini yazanda ümumtürk qaynaqlarına söykənir.

Uyğur ədəbiyyatının araşdırıcıları, miladi təqvimlə 8-ci yüzillikdən başlayaraq, yaranan dini mətnləri də ədəbi nümunələr kimi öyrənirlər. Bu dua

mətnləri ilk poetik nümunələrdir. Sonralar uyğurlar islam dinini qəbul etsələr də, ondan əvvəlki inanclar zamanı istifadə etdikləri dua mətnlərini də qoruyub saxlaya bildilər.

Kaşqarlı Mahmud zamanında türklər yaşayan bölgənin günçıxanından günbatanına atla doqquz aylıq bir yol idi. İnsanların əksəriyyəti ölənədək doğulduqları kənddə və ya şəhərdə yaşayırdı. Çox az insan ticarət və döyüşlərlə əlaqədar başqa ölkələrə gedərdi. Yəni indiki kimi əlaqələr qurmağa və davam etdirməyə şərait yox idi. Ancaq bununla belə türklər öz dahi şəxsiyyətlərinin yaratdıqları əsərlərə yiyə durur və onu yayırdılar.

Bu gün isə bilgisayar arxasında əyləşməklə dünyanın hər hansı bir guşəsi ilə bağlantı qura bildiyimiz bir zamanda Mahmud Kaşqarlının yerliləri ilə normal əlaqələr yarada bilmirik. Yalnız Mahmud Kaşqarlının nəvələri uyğurlarlamı? Xeyr! Colan türkləri ilə də, Mosul - Kərkük - Ərbil türkləri ilə də, Balkan türkləri ilə də... Az qala Əlcəzairdə yaşayan oğuzları tamam unutmuşuq. Onlar haqqında tarix kimi danışırıq. Bu gün onların varlığından, yoxluğundan xəbərsizik.

Əslində, Orxon-Yenisey abidələrini, Mahmud Kaşqarlının "Divanü lüğat-it-türk" əsərini

ədəbiyyat tariximizə daxil ediriksə, həmin bölgədə bu gün də yaşayan soydaşlarımızın ədəbiyyatını öyrənib təbliğ etməliyik. Bununla, uyğur ədəbiyyatının araşdırıcısı kimi görünmək iddiasında deyiləm. Sadəcə olaraq, nüfuzlu araşdırıcılarımızın diqqətini Çindən Balkanadək uzanan məkandakı türk ədəbiyyatına yönəltmək istəyindəyəm.

Uyğurların 19-cu yüzilədək olan ədəbiyyatları ümumtürk ədəbiyyatının cığatay qrupunda danışan toplumun yaratdığı bədii nümunələr olduğundan bu gün də bəzi şairləri uyğurlar da, özbəklər də öz klassikləri sayır, ədəbiyyat tarixlərinə daxil edir, öyrənirlər.

Qəribə burasıdır ki, son illər Azərbaycan, özbək, qazax, qırğız, türkmən tarixçiləri ah-vayla Rusiya işğalından danışırlar. Balkan türklərinin, uyğur tarixçilərinin həmin dövrə dair əsərlərində də eyni sözlərlə rastlaşırıq. Sadəcə rus sözü Çin, serb, bolqar, yunan, ərəb, fars və s. sözləri ilə əvəzlənir. Əslində isə miladi 18-ci yüzillikdən türklərin bir millət kimi sürətlə qocaldığının, çökdüyünün, tarix səhnəsindən geri çəkildiyinin şahidi oluruq.

Təfəkkür tərzimiz eyni olduğundan, eyni taleyi yaşamış, eyni cür düşünmüş, oxşar

ədəbiyyat yaratmışıq. Türk dünyasının ayrı-ayrı bölgələrində baş verənləri bütövlükdə qarşılaşdırmaq geniş araşdırma istəyir. Burada yalnız Azərbaycanla ondan az qala 4 min kilometr uzaqda olan Doğu Türküstanı müqayisə edəcəyik. 19-cu yüzillikdə Azərbaycanda A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi və başqaları Azərbaycan ədəbiyyatını, mədəniyyətini avropasayaq tərzdə inkişaf etdirməyə çalışırdılar. "Gülüstani-İrəm", "Dərbəndnamə", "Qarabağnamə"lər, Şəki xanlığının, Quba xanlığının tarixləri kimi əsərlər yaranırdı.

Kaşqarda isə Abdurehim Nizari, Turduş Axun Qəribi, Noruz Axun Ziyai, Bilal Nazım, Sadır Pəlvan, Molla Şakir və b. ədəbiyyata yenilik gətirməyə çalışırdılar. Onlardan biri, şair Muhəmmət Sadıq Kaşqari "Zübdətül-məsail", "Təzkireyi-əshabi-Kəhf" adlı tarixi əsərləri yazır və ərəb tarixçisi Təbərinin əsərini uyğur türkcəsinə çevirir. 1830-cu ildə Molla Xocamniyaz Muhəmmətniyaz Kaşqari isə Fəxrəddin Əttar Nişapurlunun "Təzkireyi-övliya" əsərinin üzünü köçürüb çoxaldır. Muhəmmət Abduləli Kaşqari "Təzkireyi-Mevlana Fakie imam Zeynalabdin Kağiraki", İsmail bəy Binişan "Pəndnamə" adlı təsəvvüfə aid on min misralıq didaktik fəlsəfi əsərini

və “Təzkere-i Buğraxan” dastanını yazırlar. Qafur Kaşqari Mirzə Heydərin “Tarixi-raşidin” əsərini tərcümə edir.

Uyğur ədəbiyyatşünasları ədəbiyyat tarixlərini üç mərhələyə bölürlər: birinci mərhələni “Klassik dövr ədəbiyyatı” adlandırırlar. Buraya 1500 ilə yaxın bir dövrün ədəbi-bədii əsərlərini daxil edirlər. Burada türk xalqlarının abidələri, xüsusən də bizlərin özbək ədəbiyyatı klassikləri kimi tanıdığımız ədiblərin əksəriyyətinin irsi öyrənilir. İkinci mərhələ “Müasir dövr ədəbiyyatı” adlandırılır və buraya 20-ci yüzilliyin başlanğıcından 1949-cu ilədək, yəni Doğu Türküstanın Çin tərəfindən son işğalınadək olan dövrdə yaradılmış ədəbi-bədii əsərlər daxil edilir. Üçüncü mərhələ “Bugünkü zamanın ədəbiyyatı” adlandırılır. Buraya son Çin işğalından sonra yaradılmış ideoloji yonlü, təbliğat xarakterli, sosializmi və müstəmləkəçiliyi tərənnüm edən ədəbi nümunələr daxil edilir (Uyğur bugünkü zaman ədəbiyyat tarixi, 2002: 1).

3. Ədəbiyyatda yeniləşmə

Yakup bəyin ölümündən sonra Çin hakimlərinin əsarəti altında otuz üç il (1878-1911)

qalan uyğur xalqı 19-20-ci yüzildə dünyada meydana gələn dəyişikliklərin təsirilə təkrar milli azadlıq savaşına atılır. Xalq bu mübarizədə ilham qaynağını ədəbiyyatdan alır. Beləcə, uyğur ədəbiyyatında da bir yeniləşmə baş verir. Türkiyədə, Avropada, Rusiyada və Misirdə oxuyub vətənə dönən uyğurlar dəyişiklikliyə, yeniliyə can atırlar. Bu hərəkat da Türküstanda "Cədidçilik hərəkatı" kimi məşhurlaşır.

"Cədidçilik hərəkatı"nın təsirilə Doğu Türküstanda da ziyalılar, yazıçı və dramaturqlar, yeni janrlarda şeirlər yazan şairlər yetişir, qəzet və jurnallar yaranırdı. Çinin hökumət məmurları, xüsusən senzorları bu dəyişimə əngəl olsalar da, qarşısını tam ala bilmirdilər.

Azərbaycanda, Krımda, Tatarıstanda olduğu kimi, Doğu Türküstanda da bəzi yazıçı və şairlər əsərlərini türk dünyasının hər yerində oxuna biləcək bir dildə yazmağa çalışırdılar. Xüsusən, İstanbulda təhsil alan, İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Yusif Akçuralı və b. türkçülərin yolunu davam etdirən uyğur gənclərinin əsərlərində bunu daha aydın müşahidə etmək olur. "Tərcüman" qəzetinin təsiri də açıq-aydın hiss olunurdu.

19-cu yüzilliyin başlarından yeni istiqamətdə formalaşan ədəbiyyatın aparıcı şəxsiyyətləri Abdurehim Nizari, Turduş Axun Qəribi, Noruz Axun Ziyai, Bilal Nazım, Sadır Pəlvan, Molla Şakir, Seyid Muhəmmət Kaşi və başqaları olmuşdur. Bunlardan Abdurehim Nizari, Turduş Axun Qəribi, Noruz Axun Ziyainin dünyagörüşləri, yazı üslubları yaxın olduğu üçün onların əsərlərindən bəziləri 19-cu yüzilliyin birinci yarısında, yəni 1841-1842-ci illərdə "Ədiblər hekayəsi" adı altında toplanaraq əlyazma şəklində xalq arasında sürətlə yayılmışdır. 30 min misradan çox olan bu kitaba bir çox dastanlar, qəzəl və müxəmməslər daxildir.

Başqa bir əlyazma kitaba Abdurehim Nizarinin (1776-1849) "Pərhad ilə Şirin", "Leyli ilə Məcnun", "Məhsun ilə Gülnisa", "Rabiyə ilə Seyiddin" lirik dastan-poemaları, "Çahar dərviş" kimi didaktik dastan-poemaları, Əlişir Nəvainin qəzəllərinə yazdığı təxmislər[2] daxildir. Şair mövzularının əksəriyyətini ənənəvi Şərq süjetlərindən götürsə də, "Rabiyə ilə Seyiddin" mövzusunu yaşadığı zamanda baş verən

[2] Təxmis – şərq, o cümlədən Azərbaycan şeirində lirik janrın nisbətən az yayılan şəkillərindən biri.

hadisələrdən almışdır. Ona görə də real hadisələrdən bəhs edən bu əsər sosial ədalətsizliyə, zülmə, haqsızlığa qarşı güclü etiraz notları ilə seçildiyindən xalq tərəfindən sevilə-sevilə oxunmuşdur.

"Ədiblər hekayəsi"ndə Turduş Axun Qəribin uyğur ədəbiyyatının yeniləşməsinə güclü təsir göstərən yeni fikirli qəzəlləri və dastan-poemaları, Noruz Axun Ziyainin "Vamik-Üzra", "Məsud ilə Dilara" adlı vəfa və vəfasızlıqdan, eşqə sədaqətdən bəhs edən məhəbbət dastan-poemaları da vardır.

Yuxarıda adı çəkilən şairlərin müasiri olan Mir Həsən Saburu qəzəllərini və bir çox şeirlərini Sedai təxəllüsü ilə yazmışdır. 1804-cü ildə Əlişir Nəvainin "Səddi-İsgəndər" əsəri üzərində işləmiş şairin şeirlərində vətən həsrəti özünü daha qabarıq göstərir. Qəzəllərinin əsas mövzusu məhəbbət, sədaqət, ədalətdir.

Həmin dövrdə İsmayıl bəy Bınışan da ciddi bədii yaradıcılıqla məşğul olmuşdur. Təsəvvüf ədəbiyyatının öncüllərindən olan sənətkarın 10 min misralıq "Pəndnamə" əsəri insanları mənəvi saflığa, doğruluğa, düzlüyə, ədalətə çağırdığına görə zülmün baş alıb getdiyi bir zamanda oxucuların sevə-sevə mütaliə etdiyi kitaba çevrilmişdir.

Bədii yaradıcılıqla məşğul olan sənətkarlar tərcüməyə də diqqəti artırmışdılar. Kaşqari Muhəmmətniyaz bin Qafur tarixçi Mirzə Heydərin farsca yazılmış "Tarixi-Rəşidi" əsərinin bir hissəsini, Şah Muhəmmət bin Nizami Əbulqasım Firdovsinin "Şahnamə"sini tərcümə etmişdir.

Azərbaycan ədəbiyyatında olduğu kimi, uyğur ədəbiyyatında da ciddi yeniləşmə 19-cu yüzilliyin ikinci yarısından başlamışdır. Bu, şifahi xalq ədəbiyyatında da, yazılı ədəbiyyatda da ictimai mövzulara diqqətin artması, real həyat hadisələrindən bəhs edən əsərlərin çoxalması ilə özünü biruzə verir.

Bundan sonra milli azadlıq hərəkatından bəhs edən əsərlər yaranmağa başladı. Bilal Nazım, Molla Şakir, Seyid Muhəmmət Kaşqari kimi ədiblər milli azadlıq hərəkatına daha çox diqqət yetirirdilər. Bilal Nazım "Qazavat der mülki-Çin (Çin mülkünə qarşı qəzavat)", "Çangmoza Yusupxan" dastan-poemalarında və başqa şeirlərində uyğur xalqının mübarizəsini tərənnüm etməklə yanaşı, millətini oyanmağa, azadlığa səsləyirdi. 61 yaşlı Molla Şakir "Zəfərnamə" əsərində Kuçada baş vermiş üsyanı böyük ilhamla tərənnüm etmişdir. Şair ahıl yaşlarında böyük həcmli bu əsəri yazmış və 1886-cı ildə (beş aya),

tamamlanmışdır. Əsər bir növ həmin günlərin tarixi salnaməsi rolunu oynamışdır.

Diqqəti çəkən odur ki, milli azadlıq mübarizəsini qələmə alan sənətkarların əksəriyyəti yaşlı nəslin nümayəndələri olmuşdur. Onlar sanki yaşları çox olduğuna görə döyüş meydanına atıla bilmədiklərindən qələmləri ilə bu mübarizədə iştirak etmişlər. Yaşı 60-ı keçmiş Kaşqari Seyid Muhəmmət 1882-ci ildə tamamladığı "Şərhi-şikəstə" əsərində İli üsyançılarının Yeddisuya köçməzdən əvvəl işğalçılara qarşı apardıqları döyüşlərdən, xalqın müqavimət hərəkatından, müstəmləkəçilərin və onların əlaltılarının qəddarlığından geniş söhbət açır. Bu, müəllifin günümüzədək gəlib çatan yeganə əsəri olsa da, bədii cəhətdən o qədər bitkindir ki, sənətkarın başqa əsərlərinin də mövcudluğu qənaətinə gəlmək olur. Bu əsər 1909-cu ildə Kazanda rusca və uyğur türkcəsində çap olunmuşdur.

Milli azadlıq hərəkatından bəhs edən əsərlər sırasına Muhəmmət Sadiq Yarkəntlinin "Risaleyi-məktub", Aşur Axun Qəribinin "Əmir Əli" əsərlərini də daxil edirlər. İkinci əsər 1864-1867-ci illərdə Xotəndə Çin işğalçılarına qarşı baş vermiş üsyandan, Yaqup bəyin tunqanlara (döngənlərə) qarşı apardığı müharibələrdən, milli

dövlət qurma cəhdlərindən bəhs edir. Müəllif hadisələrin şahidi olduğuna görə "Əmir Əli" dastan-poeması həm də tarixi əhəmiyyətinə görə qiymətlidir.

Çin zülmünə qarşı xalqı mübarizəyə səsləyən şairlərdən söz açarkən Sadır Pəlvanı (1798-1871) unutmaq olmaz. 1864-1867-ci il üsyanında üç oğlu ilə birgə iştirak edən xalq nəğməkarının heca vəznində qoşduğu şeirlər dillər əzbəri olmuşdur. Yalnız üsyan günlərində deyil, sonralar da el sənətkarı xalqını azadlığa səsləyən nəğmələr, şeirlər yazmışdır. Onun şeirləri mahnı kimi xeyir-şər məclislərində oxunmuşdur.

20-ci yüzilliyi uyğur ədəbiyyatının ən qarışıq və ən zəngin dövrü adlandırmaq olar. Divan ədəbiyyatını davam etdirənlərlə heca vəznində xalq şeiri yazanlar ədəbiyyatı ənənəvi qaydada davam etdirib yaşadırdılar. Ədəbiyyata yeni gəlmiş bir qrup isə Avropa ədəbiyyatının təsirilə nəsri, dramçılığı inkişaf etdirməyə çalışırdı. Poeziyada janr baxımından da dəyişikliklər baş verirdi. Avropanın təsirilə sərbəst şeir yazanlar meydana atılsalar da, klassik Çin, Yapon şeir qəliblərindən yararlananlar da vardı.

Mövzu baxımından da ədəbiyyatda bir rəngarənglik, çoxçalarlılıq meydana gəlmişdi. Bir

qrup şair ənənəvi olan mövzuları (Pərhad-Şirin, Leyli-Məcnun və s.) yenidən və yerli şəraitə, xalqın adət-ənənəsinə uyğunlaşdırıb qələmə alırdılar, o biri tərəfdə isə realist ədəbiyyat inkişaf edirdi. Bir tərəfdən Çin işğalçılarına qarşı xalqın mübarizəsindən bəhs edən dəyərli əsərlər meydana çıxırdısa, o biri tərəfdən hakim təbəqəni tərifləyən tərənnüm ədəbiyyatı yaranırdı. Bir tərəfdən sosialist-realizmi adlandırılan metodun təsiri ilə sosial ədalətdən, kommunizmin işıqlı gələcəyindən, sosializmin qələbəsi uğrunda həyatlarından keçən insan obrazlarından bəhs edən ədəbi nümunələr ortaya çıxır, o biri tərəfdən milli azadlıq mübarizəsi bədii əsərlərin əsas mövzusuna çevrilirdi.

Milli azadlıq hərəkatının əsas ağırlığını heca vəznindən istifadə edərək, xalq şeiri ənənəsini yaşadan sənətkarlar daşıyırdılar. Uyğurlar "koşakçı", biz isə "aşıq" adlandırdığımız bu sənətkarlar kənd-kənd gəzərək milli ruhlu, mübariz əhval-ruhiyyəli mahnılar oxuyur, dastanlar danışırdılar. "Qeni Batur" dastanı, Muhmedemin Buğranın ölümünə Əxmət Tohti Həcci Ucatlının qoşduğu dastan, eləcə də 1911-ci ildə Tümür Xəlifənin (Xalipə) Qumulda başlatdığı üsyana həsr edilmiş "Tümür Xəlifə" dastanı milli

şüurun yüksəlməsində böyük rol oynamışdır. Xalqın anlayacağı sadə bir dildə şeirlər yazaraq millətini mübarizəyə səsləyən şairlərindən Sadır Pəlvanın, Abdulrəhman Paşanın, Seyid Noçinin və başqalarının adı bu gün də xalq arasında hörmətlə çəkilir.

Mançu-Qinq hökuməti xalqın xarici ölkələrlə əlaqəsini kəsməyə çalışsa da uyğur bölgəsinin qərbində - keçmiş Rusiyada və onun davamı olan Sovetlər Birliyində çap olunan qəzet və jurnallar, kitablar gizli olaraq uyğurlar arasında yayılırdı. Gənc uyğur ədibləri türk ədəbi dilindən bir çox kəlmələr və cümlə şəklini alaraq işlədirdilər.

Xaricdə təhsil alan və yaşayaraq vətənə dönənlər cədidçilik hərəkatını genişləndirirlər. Mədrəsələri Avropa tipli məktəblərlə əvəz edirlər. 1885-ci ildə Bavdun Musabay Kaşqarın Artuş bölgəsinin İksak kəndində Avropa tipli ibtidai məktəb açır. Osmanlıda yaşayan uyğurlardan olan Əbubəkir məktəbdə müəllim işləməyə gətirilir. 1907-cu ildə Həbibzadə Darülmüəllimi açılır. Burada dərs deməyə Osmanlı dövlətindən yeddi nəfər gətirilir ki, onlardan biri də bir müddət Bakıda müəllimlik etmiş, qəzet redaktoru olmuş, Mirzə Ələkbər Sabiri özünə stenoqrafçı götürmüş Əhməd Kamal olmuşdur.

1899-cu ildə “Matbaayı-xurşid”, 1910-cu ildə Kaşqarda Yenihisarlı Nur Həccının “Matbaayı-nur” adlı bir daş mətbəəsi açması, 1905-ci ildə yenə Kaşqarda “Şivit” mətbəəsinin, 1920-ci ildə Gulca (Yining) Kürədə bir daş mətbəəsinin qurulması kitab və qəzet nəşrinə təkan verir. “Şivit” mətbəəsində “Sultan Saltuk Boğraxan” və “Dünya coğrafiyası” adlı kitablar çap olunur.

1911-ci ildə Kaşqar şəhərində Kutluk Şevki açdığı “An” (Fikir), 1922-ci ildə nəşrə başlayan “İli dihkanlırı” (İli dehqanları-əkinçiləri), bu qəzetin davamı olan “İli Şincan” qəzeti, 1934-cü ildə Urumçidəki Uyğur Mədəniy Akartiş Uyuşmisi (Uyğur Mədəniyyətini İnkişaf Etdirmə Birliyi) tərəfindən nəşr edilən “Şincan uyğurları” qəzeti və “Keşker Şincan” (Kaşqar Şincan) qəzeti, “Şincan” qəzeti, “Aksu uçurliri” (Aksu xəbərləri) və b. qəzetlər, “Cahangirlikkə karşi birlik sep” (İmperializmə qarşı birlik), “Xalk birlik sepi” (Xalq birliyi), “Cənubtin avaz” (Cənubdan səs), “Şincan mədəniyəti”, “Küreş” (Savaş) jurnalları və başqa nəşrlər yalnız içtimai fikrin formalaşmasına deyil, ədəbiyyatın inkişafına da güclü təsir göstərmişdir.

1936-cı ildə İsa Yusif Alptəkinin rəhbərliyi ilə qurulmuş olan Altay nəşriyyatında işıq üzü görən kitabları uyğur ədəbiyyatının ən qiymətli

əsərlərindən sayırlar. Bu nəşriyyatda Məsud Sabri Beykozun çap etdirdiyi kitablar xüsusilə seçilir. Çünki bu kitabların dili ortaq türkcəyə yaxınlaşırdı.

1930-cu illərdə Çin və Sovet hökuməti arasında gizli danışıqlar nəticəsində Doğu Türküstanda cədidçilərə qarşı təzyiqlər artırıldı. Nəticədə xalq hərəkatı gücləndi. Çağdaş uyğur ədəbiyyatında Rozi Muhməd (Turpandan), Merup Seyidi, Xəlil Sattari, Nəzər Xoca (İlidən), Abduxaliq Uyğur və başqaları milli ruhlu əsərlər yaratmağa başladılar.

Ümumiyyətlə, 20-ci yüzillik uyğur ədəbiyyatının ən qarışıq və ən zəngin dövrü adlandırılır. Çünki bu dövrdə divan ədəbiyyatının nümayəndələri ilə heca vəznində, yəni xalq şeiri ruhunda yazanlar ənənəyə sədaqət nümayiş etdirirdilər. Avropa mədəniyyətinin təsiri altında ədəbiyyata gəlmiş bir qrup gənc isə nəsri, dramçılığı inkişaf etdirməyə çalışır, poeziyada da janr baxımından dəyişikliklər edir, sərbəst şeir yazırdılar. Onlar bir tərəfdən də klassik Çin, yapon şeir qəliblərini uyğur şeirinə tətbiq edirdilər.

Uyğur teatr sənətçiləri Avropa teatr məktəbi ilə çinlilərin szinsilərini uyğunlaşdırmaq və sintezini yaratmaq üçün cəhd göstərirdilər. Çin

aktyor sənətinin başlıca xüsusiyyəti sayılan təsəvvür olunan əşyalarla oynamaq, şərti ifadə vasitələri, üsulları, simvollaşdırılmış əl-qol hərəkətlərini uyğur teatrına gətirirdilər. Beləliklə uyğur ədəbiyyatı və mədəniyyəti bir axtarış dövrünü yaşayırdı.

Abduxaliq Uyğur (09.02.1901-13.03.1933). Qəribə taleli bir şair olan Abduxaliq Uyğur mətbuatın, nəşriyyatların geniş yayıldığı bir dövrdə yaşasa da, şeirləri sağlığında çap olunmamış, yaddaşlarda yaşayaraq günümüzədək gəlib çatmışdır. Yaddaşlardan toplanmış şeirləri 1988-ci ildə ayrıca kitab kimi çap olunmuşdur. Prof. Dr. Alimcan İnayət tərəfindən hazırlanmış olan Abduxaliq Uyğur "Şeirləri" adlı əsər 2008-ci ildə Türk Dil Kurumu tərəfindən yayınlanmış və şairin indiyə qədər bilinən şeirlərinin tamamı uyğur və Türkiyə türkçəsində verilmişdir.

Tacir ailəsində doğulan, evdə dini təhsil almaqla yanaşı, ərəb və fars dillərini də öyrənən Abdulxaliq sonra Turpan şəhərində Çin dilində təhsil verən məktəbdə oxumuşdur. Çin ədəbiyyatının klassik əsərlərindən "Su Boyida" (Su vadisi boyunda) və "Kizil ravaktiki çüş" (Qızıl çadırdakı yuxu) kimi romanları oxuyur, Sun-Cun-Şen və Lu-Şun kimi çinli yazıçıların əsərləri ilə

tanış olur. 8 yaşından etibarən şeir yazmağa başlayan Abdulxaliq 1923-cü ildə bir neçə yaşıdı ilə SSRİ-yə gələrək burada üç il təhsil alır. Rus yazıçı və şairlərindən A.S.Puşkinin, L.Tolstoyun, M.Qorkinin, M.Lermontovun və b. əsərlərini oxuyur, onlardan təsirlənir. Bolşeviklərin sosial ədalət, bərabərlik, sinfi mübarizə şüarları ona olduqca xoş gəlir. Necə deyərlər, bolşevik inqilabını ölkəsinə daşımaq istəyir. 1926-ci ildə vətənə dönərək cahillik, savadsızlıq əleyhinə mübarizəyə başlayır.

1927-ci ildə "Akartiş birləşməsi" (Mədəniyyət birləşməsi) adı altında təlim-tərbiyə dərnəyi quraraq, məktəb açır, oranı bitirənlərin bir çoxunu SSRİ-də oxumağa göndərir.

Xalqını maarifləndirməklə yanaşı, hakimiyyətə qarşı mübarizəyə də səfərbər etməyə çalışır. Onun mübarizəsi yalnız işğalçılara qarşı deyildi, həm də öz millətindən olan varlılara qarşı idi. İnsanlar arasındakı bərabərsizliyi aradan qaldırmaq istəyi ilə kasıbları varlılara qarşı üsyana səsləyirdi. Onun fəaliyyətində sovetlərdən aldığı təlimin təsiri açıq-aydın görünür.

Turfandakı milli azadlıq mübarizəsi zamanı gənc şair də döyüşçülər sırasında olur. 1933-cü ildə Çin Qomindan Partiyasının rəhbəri Şenq-Şi-

Şey Turpan şəhərinə gələrək şairi və dostlarını həbs etdirir. 1933-cü ilin martın 13-də Abduxaliq Uyğur edam edilir. Onu ölümə apararkən şair mübarizəsində haqlı olduğunu bildirmək üçün "Yaşasın azadlıq" deyə qışqırmışdır. Şair ölümü ilə də uyğur ədəbiyyatına qəhrəmanlıq mövzusu vermişdir.

Vətəninin və xalqının azad nəfəs ala bilməsi və müasir mədəniyyətlərə yiyələnməsi üçün ömrü boyu mübarizə apararaq "Oyan", "Zulumga karşi" (Zülümə qarşı), "Körüngən tağ yirak emes" (Görünən dağ uzaq deyil), "Könül xahişi" və b. şeirlərini yazır. Qadağalara, yasaqlara görə şairin şeirləri sağlığında çap olunmasa belə xalqı onun əsərlərini yaddaşında yaşatmışdır.

Xotən üsyanı zamanı döyüşə atılan uyğurlar onun "Sən kimin oğlusan, oylısanğçı" şeirini marş kimi oxuyurmuşlar. Bundan başqa, bir çox şeirləri də 1947-1949-cu illərdə milli hökumət zamanı məktəblərdə nəğmə kimi söylənirmiş.

Armiya Ali Sayram Nimşehit (1906-1972). 1906-ci ildə anadan olan Armiya Nimşehit yaradıcılığa klassık şeir ənənəsini davam etdirməklə başlamışdır. Dünyada baş verən dəyişikliklər, xaricə gəzməyə və oxumağa gedən

uyğur şairlərinin yeni janrlarda və yeni formalarda şeirlər yazması Nimşehitə də təsirini göstərir.

O uyğur ədəbiyyatında klassik şeirlə müasir şeir arasında körpü yaradan bir şair kimi tanınmışdır. Onun şeirlərindəki vətənsevərlik, yeni bədii ifadə vasitələri, üslub əlvanlığı yeni uyğur şeirinə güclü təsir göstərmişdir. Şairin "Vatan muhəbbəti", "Yürək sözü" adlı şeir kitabları və "Pərhad ilə Şirin" adlı dastanı vardır.

Doğu Türküstanda "Hannin tesnip kilgan yeni işləri" (Xanın gördüyü yeni işlər) adı ilə çıxan qəzet 1924-cü ildən "Şincan qəziti", daha sonra, yəni 1935-ci ildən Daniş Damollam tərəfindən "Aksu uçurliri" (Aksu xəbərləri) çap olunur. "Aksu uçurliri" qəzetinə 1939-ci ilə qədər Nimşehit redaktorluq etmişdir.

Şairə 1956-ci ildə Həcc ziyarətinə getmək nəsib olur. Həcc ziyarəti zamanı vətən həsrəti ilə "Sėşindim" (Darıxdım) adlı şeirini yazır:

Sėşindim mən, sėşindim mən, sėşindim
- *Darıxdım mən darıxdım mən, darıxdım,*
Vətən səni təşna bolup sėşindim
-*Vətən sənə təşnə olub darıxdım.*
Mihriz tolşan yürəkimdin sėşindim
- *Sevginin dolduğu ürəkdən darıxdım.*

Dolkunlişan kökrekimdin sèşindim
- *Coşan bağrımdan darıxdım.*

Onun şeirlərinin əsas mövzusunu vətən və millət sevgisi təşkil edir.

* * *

Klassik uyğur şeir ənənəsini yaşatmaqla onu yeniləşdirməyə çalışan, şeirlərinin əsas mövzusunu millətsevərlik və vətənsevərlik təşkil edən şairlər sırasında 1899-ci ildə Kaşqarın Artuşta kəndində doğulmuş və 1982-ci ildə dünyasını dəyişmiş Abdülaziz Mehsum, 1913-cü ildə Kaşqarda doğulmuş "Qara günlər", "Rabiyə ilə Seyiddin" adında pyeslərin və "Zəfər xatirəsi", "Tan faciası", "Ladah yolunda karvan", "Tuzimas çiçəklər" kimi kitabların müəllifi Ahmed Ziyati (1913-1989) və b. vardır.

Xalq həmişə milli azadlıq mübarizəsinə qalxanda şair oğlunu da öndə görmək istəyir. Onun sözünün bədii dəyərindən çox mübarizəyə səfərbəredici gücünə əhəmiyyət verir.

Bu dövrdə cədidçi aydınlardan Abdulqadır Damollam, Muhmədəli Əpəndi, Qutluq Həcci Şevqiləri də yada salmaq gərəkdir. Bu böyük aydınlar Buxara, Kazan, Krım, Bakı, İstanbul,

Qahirə və b. şəhərlərdə illərcə oxumuş və sonunda vətənlərinə dönərək böyük əsərlər yaratmışlar. Onlar millətinin yaddaşında izlər buraxsalar da, nə yazıq ki, zalımların qurbanına çevrilmişlər.

* * *

Zunun Qədiri - **(**1911, Tarbaqatay vilayətinin Dörbilcin qəsəbəsi - 24.09.1989, Almatı şəhəri). Kasıb bir ailədə dünyaya gələn Zunun Qədiri yeni uyğur ədəbiyyatında, xüsusən də nəsr və dramçılığın inkişafında böyük əməyi olan ədiblərdəndir. 1937-ci ildə yazdığı "Cahalətnin capası" (Cəhalətin cəfası) adlı pyesi ilə ədəbi mühitə atılan Zunun Qədiri "Uçraşkanda" (Görüşüncə), "Partizanlar etriti" (Partizanlar dəstəsi), "Hər işnin yoli bar" (Hər işin bir yolu vardır), "Qunçəm" (Qönçəm), "Gülnisa" dramları ilə uyğur ədəbiyyatını zənginləşdirmişdir.

Yeni uyğur nəsrində yeni bir cığır açan Zunun Qədiri 1940-ci ilin ortalarından etibarən hekayə yazmağa başlayaraq 1945-ci ildə "Muəllimnin xəti" (Müəllimin məktubu) və "Rodipay", 1946-cı ildə "Küçükkə hucum" (Küçüyə hücum) və "İkki barmikim bilən" (İki barmağımla), 1947-cü ildə "Güman" və 1948-ci ildə "Mağdur ketkəndə" (Məğdur gedərkən), 1950-ci ildə "Toy" dramını,

daha sonra isə əkinçilərin həyatından bəhs edən "Çin qış" (Çətin qış), "Rəhmət" (Təşəkkür), "Esləş" (Xatırla), "Qızıl gül" hekayələrini yazır.

1950-1960-cı illərdə uyğur nəsrinə və dramçılığına ən dəyərli əsərlərini verən Zunun Qədiri Qazaxıstana gələrək orada yaşamış və orada da ölmüşdür. Qazaxıstanda daha çox milli ruhlu əsərlər yaratdığına, Çində gördüklərini tənqid etdiyinə görə son illər o, Çinin hakim dairələri tərəfindən sevilməyən insana çevrilmişdir.

Lutpulla Mutəllip **(**16.10.1922, Qazaxıstan Respublikası, Almatı yaxınlığındakı Uyğur rayonu kimi tanınan Nilki qəsəbəsinin Çunçi kəndinin Sayboyu məhəlləsi -18.09.1945, Aksu).

Millətini azad və xoşbəxt görmək arzusu ilə yaşayan və bu yolda həyatını qurban verən ədiblərdən biri də Lutpulla Həzim Axund oğlu Mutəllipdir. Haqqında çox yazılsa da, doğum və ölüm tarixləri fərqli-fərqli göstərilmişdir. Əsasən də Şincanın Qulca (Yining) şəhərində doğulduğu fikri üzərində dururdular. Uyğur araşdırıcısı Tursun Erşidin 1998-ci ildə Urumçidə çap etdirdiyi "Lutpulla Mütəllip və unin keçürmişləri" kitabı şairin doğum ili, yeri və ölüm günü ilə bağlı yanlışlıqlara son qoydu. O, şairin atası Həzim

Axunda məxsus “Min bir hədis” adlı kitabın qapağına yazılmış tarixi əsas götürərək 1922-ci ilin noyabrın 16-da anadan olduğunu yazmışdır. Ailədəki müqəddəs kitabların qapağına mühüm tarixi hadisələr və uşaqların doğum günlərinin yazılmasının az qala bir ənənəyə çevrildiyi məlumdur. Həzim Axund da kitabın qapağına oğlunun doğulduğu günü yazıbsa, demək, ən doğru sənəd bu hesablanmalıdır.

Kiçik yaşlarından fitri istedadı ilə ətrafındakıların diqqətini cəlb edən, ilk təhsilini evdə atasından alan Lutbullahı Qulca şəhərindəki tatar ibtidai məktəbinə oxumağa göndərirlər. Üsuli-cədid məktəbi kimi tanınan bu məktəbdə 1936-ci ilədək oxuyaraq tatar və rus dillərini də öyrənmiş olur. Sonra təhsilini rus gimnaziyasında davam etdirir. İki il də burada oxuyur. 15 yaşında ikən “Mənim xalqım” adlı şeirini “İli qəziti”ndə çap etdirir.

Yeniyetməlik və gənclik illərində yazdığı üsyankar şeirlərinə görə onu “od yürəkli şair” adlandırırlar.

Lutpulla imtahan verərək Urumçi şəhrindəki Darülmuəlliminə qəbul olunsa da, maddi sıxıntı üzündən təhsilini davam etdirə bilmir. 1941-ci ildə sovet mühəndislərinin tərcüməçisi kimi Güney

Şincana gedir. Faşist Almaniyasının SSRİ-yə hücumundan sonra sovet mühəndisləri axtarış-kəşfiyyat işlərini yarıda buraxıb geri döndüklərindən Lutpulla Mütəllip işsiz qalır və yenidən Urumçiyə geri dönür.

Təhsilini davam etdirməklə yanaşı "Şincan" qəzetində də işləyir və qəzetdə "Ədəbiyyat gülzarı" adlı səhifə hazırlayır.

İstedadlı şair, publisist və dramçı Lutpulla Mütəllip 1942-ci ildə, yəni 20 yaşında yazdığı, elə həmin il də səhnələşdirilən "Gerçək moden" pyesi Çin valisi Şenq-Şi-Şey tərəfindən yasaqlanmış və ona qarşı təqiblər başlanmışdır.

Təqib və təzyiqlərə baxmayaraq o, bədii yaradıcılığını və siyasi mübarizəsini dayandırmır. Rus dilində təhsil alması, bu dilin vastəsilə inqilabi ədəbiyatla tanışlığı, Marksın, Engelsin, Leninin, Stalinin əsərlərini oxuması təsirsiz qalmamışdı. Lutpulla yeniyetməliyindən dünyada kabus kimi dolaşan kommunizm ideologiyasının təsiri altına düşmüşdür. O, bu ideologiya vasitəsilə xalqının azad və firavan yaşayacağına inanırdı.

O, ənənəvi əruz və heca vəznində şeirlər yazmaqla yanaşı, sərbəst vəzndə də qələmini sınayır, bu janrın çılğın təbliğatçısına çevrilir. Həm də "Borandan sonrakı aydınlıq", "Samsaq

ağa hirsləndi” kimi pyeslər yazmaqla oxuma və yazma bilməyən insanlara səhnədən müraciət etməyə, xalqını cəhalətdən qurtarmağa çalışır. Pyeslər yazarkən və onları səhnələşdirərkən rus rejissor və aktyorlarının təcrübəsindən bəhrələnir.

1943-cü ildə Şincanın siyasi həyatında dəyişmələr baş verir. Liberal, demokratik görünməyə can atan vali Şenq Şi-Şey Qomindan Çin Milli Partiyasına daxil olur. Bu, bölgədə tarazlığın pozulmasından, çinlilərin müstəmləkəçilk siyasətinin getdikcə şiddətlənəcəyindən xəbər verirdi. Şincanda yanvar ayında partiyanın vilayət şöbəsi təşkil edilir və iyun ayında partiyanın ən mühafizəkar üzvlərindən Fen Qun-Bini “Şincan” qəzetinə redaktor təyin edilir.

Qomindan Çin Milli Partiyasının hakimiyyətə gəlməsi Şincanda Lutpulla Mütəllip və onun kimi inqilabi əhval-ruhiyyəli, yenilik tərəfdarı vətənsevərlərin vəziyyətini ağırlaşdırır. Bir çox kitablar yığışdırılır, inqilabi ruhlu, vətənsevər kitablar çap edən nəşriyyatlar bağlanılır. Həbs edilmək və ya sürgünə göndərilməklə üzləşən Lutpulla Mütəllip 1943-cü ilin sonunda işdən çıxarılır. Onu Aksudakı “Şincan” qəzetinə redaktor müavini göndərirlər.

Lutpullanın gəlişi Aksu şəhrində vətənsevərlər tərəfindən sevinclə qarşılanır. Qəzetdə "Cənub şamili" adlı səhifə hazırlayır və buraya şair Nimşehit, Bilal Əzizi kimi gəncləri cəlb edir. Gənc şair elm öyrənməklə, bədii yaradıcılıqla yanaşı ictimai-siyasi işlərdə fəal iştirak etdir.

Aksu Vilayətlik Uyğur Mədəniy Akartiş Uyuşmisi (Aksu Vilayət Uyğur Mədəniyyətinin İnkişafı Birliyi) ilə "Aksu Şincan" qəzetinin birgə çıxartdığı "Cənubtin avaz" (Cənubdan səs) jurnalına məsul katiblik edən Lutpulla Mütəllip "Təsiratım" (Duyğularım), "Hoş" (Əlvida)," "Yillarka cavap" (İllərə cavab), "Pəryat" (Fəryad), "Hiyalçan tilək" (Xəyallı diləklər), "Küreş ilhami" (Mübarizə ilhamı), "Şair toğrusida Muveşşəh" (Şair hakkında müvəşşəh), "Muhəbbət həm neprət" (Məhəbbət və nifrət), "Oğlum hekkidə mərsiyə" (Oğlum haqqında mərsiyə), "Vətən ala, xəlik ala (Vətən ala, xalq ala), "Büyük mayak" (Böyük mayak) və b. şeirlərini, eləcə də "Əcəl hudukuşida" (Əcəl anında), "Padişah samuraylari ağir halsiraydu" (Padişah samurayları böyük yorğunluq içində), "Uniz kəlgüsi zor həm parlak" (Onun gələcəyi güclü və aydın) satirik məqalələrini və "Samsak akan kaynaydı" (Sarımsaq ağa əsəbləşir), "Küreş kizi" (Mübarizə qızı),

“Borandin keyinki aptap” (Borandan sonrakı günəş), “Çin moden”, “Çiməngül” adlı səhnə əsərlərinin, “Ədəbiyyat nəzəriyyəsi”, “Sənətkə muhəbbət” (Sənətə məhəbbət), “Tiyatirmız kelip çikişi və ravaclaniş tarihi” (Teatrımızın yaranması və inkişafı tarixi) adlı məqalələrini yazır.

Bir çox səhnə əsərlərinə rejissorluq edən, özü baş rolları oynayan gənc şair “Tahir ilə Zöhrə” və “Qərip ilə Sənəm” operalarının librettosunu da yazmışdır.

1945-ci ildə İli, Altay, Tarbaqatay bölgələrində yaşayan uyğurların Çin hökümətinə qarşı başladıqları etiraz hərəkatı tarixə “Üç vilayət inkilabı” kimi daxil oldu. “Üç vilayət inkilabı” təşkilatının liderlərinin Aksu şəhrinə göndərdiyi nümayəndələrlə görüşən, onların istəklərini öyrənən Lutpulla Mütəllip onlarla birgə bölgədə hakimiyyəti devirmək uğrunda mübarizə aparacağını vəd edir. Bundan sonra böyük bir eşq və ilhamla “Uçkunlar İttipakı” (Qığılcımlar İttifaqı) təşkilatını qurur. Tam adı “Şərqiy Türküstan Uçkunlar İttipaki” (Şərqi Türküstan Qığılcımlar İttifaqı) olan təşkilata millətini sevən Nimşehit, Bilal Əzizi, Muniridin Hoca, Abdulla Davutop, Yusupcan kimi vətənsevərlər daxil olur. Təşkilatın parolu “Biz cümə namaziga teret elip

koyduk. Cümə namazini silər bilən billə okumakçimiz" (Biz cümə namazını qılmaq üçün abdəst aldıq. Cümə namazını sizinlə bərabər qılmak istəyirik) olur.

"Üç vilayət inkilabi" ordusu Çin hökümət qüvvələrinə qarşı silahlı mübarizəyə başlayır. Lutpulla Mütəllip qurmuş olduğu "Uçkunlar İttipaki"nın üzvləri də döyüşə hazırlıq işlərini sürətləndirir, Qomindan partiyasının tabeliyində olan əsgəri birliyin silah anbarına girmək, oradakı silahları alaraq öz döyüşçülərinə paylamaq üçün gizlicə anbar qapılarının açarlarını hazırladırlar.

Satın aldığı xainlərin yardımı ilə Qomindan Partiyasının məmurları Lutpulla Mütəllipi və silahdaşları Bilal Əzizi, Müniridin Xocanı, Abla Mevlanjan, Rozi Turdiyof və 30 yaxın məsləkdaşını həbs edirlər. Xalqının azadlığı və xoşbəxtliyi uğrunda Qomindan ordularına qarşı cəsarətlə vuruşan "Üç vilayət inqilabı" əsgəri birlikləri 1945-ci ilin payızında qarlı dağları aşaraq Güney Şincana keçib Aksu şəhrinə doğru irəliləyir. Qomindançılar həbsdə olanların üsyan qaldıracağından, xalqın da onlara qoşulacağından qorxuya düşərək 1945-ci ilin sentyabrın 18-də Lutpulla Mütəllipi və məsləkdaşlarını güllələyirlər. "Uçkunlar İttipaki"nın (Qığılcımlar

İttifaqı) üzvlərinin güllələndiyini eşidən xalq kütlələri həbsxanaya hücum edib oranı dağıdırlar. Aksu şəhəri qomindançılardan azad olur. Həbsxanada Lutpulla Mütəllipin divarla qanıyla aşağıdakı misraları yazdığını görürlər:

Bu kən dünya mən üçün boldi duzəx - *Bu geniş dünya mənim üçün oldu cəhənnəm,*
Yaş gülümni şazaz kildi kanhor əbləh... - *Gənç gülümü xazan qıldı qaniçən əbləh...*

Lutpulla vətənin azadlığı uğrunda mübarizədə şəhid olsa da, onun ideyaları reallaşır. Doğu Türküstan hökuməti qurulur. Sovetlərin yardımı ilə Çində kommunistlər hakimiyyətə gətirilir. Lakin onlar vədlərini tez unudaraq, dünənki silahdaşlarına və əməkdaşlıq etdikləri insanlara divan tuturlar. Xalqlara azadlıq vəd etsələr də, müstəmləkəçilik siyasətini davam etdirirlər. İki imperialist dövlət, Çin və SSRİ gizli plan quraraq 1947-ci ildə Doğu Türküstanlıların liderlərini təyyarə qəzasında öldürür, hökumətin fəallarını və müstəmləkəçilərə müqavimət göstərənləri də məhv edirlər.

Lutpulla Mütəllip və dostlarının vəhşicəsinə edam edilməsindən beş il sonra xalq ayağa

qalxaraq yenidən həbsxanaya basqın edir. Həmin vaxt həbsxanada işləmiş nəzarətcilərə təzyiq göstərərək Mütəllip və məsləkdaşlarının cənazələrinin harada gizlədildiyini tələb edirlər. Həbsxana işçiləri canlarının qorxusundan həqiqəti deyirlər. Məlum olur ki, vətənpərvərlər həbsxana ərazisindəki donuz damında güllələnmiş, sonra da ora ayaqyoluna çevrilmişdir.

Həmin yeri qazaraq şairin və əqidə yoldaşlarının param-parça edilmiş cəsədlərinin qalıqlarını tapırlar. Aksu və ətrafından gələn xalq kütlələri bu vətən övladlarının param-parça edilmiş cəsədlərini İslam qaydaları və uyğur adət-ənənəsiylə dəfn edirlər.

Çin cəlladları Lutpulla Mütəllipin 18 yaşlı xanımı Sopiyam Baiz qızını təqib edir, nəticədə Lutpullanın yeganə övladı aclıqdan ölür.

Son illərdə Urumçidə baş verənlər onu göstərir ki, Lutpulla Mütəllipin ideyaları yaşayır, bu ideya uğrunda ölümə gedən uyğur gəncliyi var.

Abdurihim Teleşov Ötkür (13 iyun 1923, Sincan, Qumulda kəndi - 05.10.1995, Urumçi). Onun 1940-cı illərdə yazmış olduğu "Muzulqan şəhər" (Donan şəhər), "Bahar çillaymən" (Baharı çağırıram), "Cənubka xət" (Güneyə məktub), "Tan zibasi yokmidur" (Dan gözəli yoxmudur) adlı

şeirləri, “Yeni Çunqo Gülistanina” (Yeni Çin Gülistanına), “Keşker geçəsi” (Kaşqar gecəsi) dastanlarını, “Tamçə kandin miliyonlaran çeçəklər” (Damla qandan milyonlarca çiçək), “Çin moden” dramlarını, “Dənizdin sada” (Dənizdən səda), “Baş egim” (Baş geyim) kimi hekayələri vardır.

1946-ci ildə “Yürək munliri” (Ürək fəryadları), 1948-cı ildə “Tarim boyliri” (Tarım boyları) şeirlər kitabları çap olunub. 1950-1970-ci illərə qədər “Vicdan boyliri” (Vicdan boyları), “Səcdiqahımqa” (Səcdəgahıma), “Tova dep tuttum yaka” (Tövbə deyərək yaxa cırmaq), “Küz keçisi” (Payız gecəsi), “Nəvai gəzəligə muxəmməs” (Nəvainin qəzəlinə muxəmməs), “Ak emes saçimdiki” (Ağ deyil saçımdaki), “İz”, 1970-ci ildən sonra isə “Yaxşi”, “Sərlevhisiz şeirlar”, “Ömür hekkidə muxəmməs” (Ömür haqqında muxəmməs), “Keşker güzəligə” (Kaşqar gözəlinə), “Mən ağ bayraq emes” (Mən ağ bayraq deyiləm) kimi lirik şeirlər yazıb.

“Uluq ana hekkidə çöçək”, (Ulu ana haqqında çiçək), “Gül və azqan” (Gül və yabanı gül), “Şeir və şair”, “Kaştişiqa mədhiyə” (Süs daşına mədhiyə) kimi əsərləri, “İz” və “Oyqanqan zəmin”

adlı romanları yazmış ədib 1995-ci ilin oktyabrın 5-də Urumçidə dünyasını dəyişmişdir.

Turqun Almas (30 oktyabr 1924, Çin, Kaşqar şəhəri- 11 sentyabr 2001, Çin, Kaşqar şəhəri). Şair və tarixçi kimi tanınmışdır. İlk təhsilini doğulduğu şəhərdə alan şair sonra Qulca (Yining) şəhərinə gedərək orada oxuyur.

Urumçi şəhərindəki Darülmuəllimini bitirən Almas Qaraşəhərə müəllim işləməyə göndərilir. 1947-ci ilin mayında Turqun Almas və dostları Kaşqarda mitinq təşkil edirlər. Mitinqin təşkilatçılarını həbs edirlər. 1948-ci ilin aprelin 8-də xalqın təzyiqi altında Turqun Almas və yoldaşlarını həbsdən buraxmaq məcburiyyətində qalırlar. Həbsdən çıxan şair həmin il Qulca (Yining) şəhərinə gedərək orada "Alma" qəzetində işə girir. Sonra da isə Urumçi şəhərindəki "Tarım" jurnalında əmək fəaliyyətini davam etdirir.

Turqun Almas "Pıçaq" dramını yazmış, "Tarım şamalları" (Tarım yelləri), "Tan səhər" (Dan səhəri) kimi şeir kitablarını və "Hun tarihi", "Uyğurlar" adlı tarix kitaplarını çap etdirmişdir.

1922-ci ilin avqustun 22-də Qulca (Yining) şəhərinin Xudyar Yüzi kəndində doğulan Elkem Ehtəm 1930-cu ildə Korqas qəsəbəsində doğulan

Tayipcam Ali və başqaları da yeni uyğur ədəbiyyatının seçilən nümayəndələrindən sayılır. Elkem Ehtem "Tan" (Dan), "Tanq atti" (Dan attı), "Tan atkanda" (Dan atarkən), "Könüllər güldi" (Könüllər güldü), "Ümid dolkunliri" (Ümid dalğaları), "Küreş dolkunliri" (Savaş dalğaları), "Yeniş dolkunliri" (Zəfər dalğaları) kimi şeirləriylə yanaşı "Saadetxan", "Alvasti" kimi lirik dastanları, Tayipcan Ali isə "Şark nahşısı" (Şərq mahnısı), "Tıçlık nahşısı" (Sülh mahnısı), "Tüqümes nahşa" (Bitməz mahnı), "Vətənimni köyləymən" (Vətənım üçün yanıram), "Zepmu çıraylık gəldi bahar" (Nə qədər xoş gəldi bahar) adlı şeir kitablarıyla tanınır. Tayipcan Ali 1989-cu ildə dünyasını dəyişmişdir.

1950-1980-ci illər uyğur ədəbiyyatının tanınmış yazıçı və şairləri sırasında Erşiddin Tatlık, Turdi Samsak, Abdulkərim Xoca (1928-1988), Zordun Sabir, Sultan Mahmut (Kaşqari), Muhəmmətcan Sadiq, Cebbar Əxmət, Muhəmmət Ali Zunun, Ehad Turdi, Boğda Abdulla, Abdulhamid Sabir, Mırzayit Kərim, Mamut Zayit, Tursunay Hüseyin, Dilbər Keyum və b. adı çəkilir.

3.1. Uyğur ədəbiyyatında sosializmin tərənnümü

1949-cu ildə Çinin yenidən Doğu Türküstanı işğal etməsi, sosializm quruculuğu adı altında aparılan kütləvi həbslər və təqiblər ədəbiyyatdan milli məsələni, demək olar, tamam çıxardı. Sosializmi, kommunizmi, Mao-Ze-Donqu, Çin işğalını tərənnüm edən bədii yazılara geniş meydan açıldı. Yaşlı nəslin bir çox nümayəndələri də hakimiyyət orqanlarının təzyiqlərinə tab gətirməyərək sifariş ədəbiyyatı nümunələri yaratdılar.

Uyğur ədəbiyyatının üçüncü mərhələsinə tərənnüm və mədhiyyə ədəbiyyatının nümayəndələri daxil edilir. Onlarda da bizdəki kimi sosializm realizmi adı altında keçmişin tənqidi, real əsasları olmayan xoşbəxt gələcəyin tərənnümü, fəhlə və kəndlilərin firavan həyatı əsas yer tutur. Xalqın gerçək fikir və duyğularını, görüşlərini əks etdirən əsərlərə mətbuatda yer verilməz, vətən haqqında, millət haqqında tarixi həqiqətləri yazanları "millətçilikdə", "türkçülükdə", "əksinqılabçılıqda" suçlayıb cəzalandırırdılar. Hətta şeirlərdə "Tanrı dağı",

“Tarım çayı” kimi kəlimələrin işlədilməsi də qadağan edilmişdir.

Maonun ölümündən sonra Çində bir yumşalma hiss edilir. Uyğur ədəbiyyatı üzərindəki sərt sensor nəzarəti yumşalır. Ana dilində kitabların nəşri üçün böyük şəhərlərin əksəriyyətində nəşriyyatlar açılır. Ədəbi nəşrlərin də sayı çoxalır. “Tarım”, “Köprük” (Göstəri), “Şincan sənəti”, “Miras”, “Bulaq”, “Çolpan” (Dan ulduzu), “Kaşqar ədəbiyyatı və sənəti”, “Turpan”, “Qumul ədəbiyyatı”, “Aksu ədəbiyyatı və sənəti”, “İli dəryası”, “Bostan”, “Tenri Tağ” (Tanrı dağı) və b. jurnalları nəşr olunmağa başlayır. Bu jurnallarda milli dəyərli bədii, elmi əsərlər də çap olunur.

Beləcə, Uyğur şair və yazıçıları əsərlərini rahat nəşr etmək imkanı qazanırlar. Uyğur ədəbiyyatında bir irəliləmə hiss edilməyə başlayır. Şair və yazıçılar tarixi hadisələrdən bəhs edən bədii və elmi əsərlər yaradırlar. Bu əsərlərin içində Abdulla Talıbın 1981-ci ildə Lutpulla Mütəllipin həyatından bəhs edən “Kaynam örkişi”, Abdurihim Ötkürün 1980-ci ildə çap etdirdiyi “Kaşqar kecesi” (Kaşqar gecəsi) dastanı və 1985-ci ildə çap etdirdiyi “İz”, Xevir Tömürün 1980-ci ildə çap etdirdiyi “Molla Zeydin qissesi”, “Əli”

adlı tarixi romanı və Abduxaliq Uyğurun həyat mübarəzəsindən bəhs edən “Baldur oyanan adem” (İlk oyanan adam), Turdi Samsakın 1986-ci ildə çap etdirdiyi “Axirəttin gəlgənlər” (Axirətdən gələnlər), Qayrət Abdullahın 1983-cü ildə çap etdirdiyi “Taş abidə” romanları, Teyipcan Hadinin Mançu-Çin hökümdarlarının zulmünə qarşı 1864-1867-ci illərdə uyğurların İli vilayətindəki üsyana rəbərlik etmiş Sadır Pəlvanın fəaliyyətindən bəhs edən “Pəlvan gəldi” (Pəhlivan gəldi) hekayəsi, Muhməd Ali Zununun 1981-ci ildə Rabia Seyiddin, Ahmet Ziyatinin sevgi və azadlıq yolunda mübarizə apararaq sonunda qurban olan iki gəncin hekayəsini anladan, on mindən artıq misradan ibarət olan “Rabiyə ilə Sayddin” dastanları daha çox diqqətiçəkəndir. Lakin bu o qədər də uzun sürmür.

1990-cu ildə Aktu rayonunun Barın kəndində baş verən silahlı toqquşmalardan sonra senzor nəzarəti artır: yazıçı, şair, jurnalistlər və sənət adamlarına qarşı təqiblər başlayır. 1991-ci ilin fevralından sonra tanınmış uyğur alimi, yazıçı Turqun Almasın “Uyğurlar”, “Hun tarihi”, “Əski uyğur ədəbiyyatı” kitabları tənqid hədəfinə çevrilir, oradakı faktların təftişinə başlanılır. Turqun Almas və diğər nüfuzlu uyğur ədibləri

“pantürkist”, “Uyğur şovinisti”, “separatçı” deyə suçlanır, təqib və tənqidlərə məruz qalırlar. Beləliklə, uyğur ədəbiyyatının inkişafı ləngidilir, təkrar durğunluq dövrünə dönülür.

Bütün bunlara baxmayaraq Teyupcan Əliyop (1930-1989), Qəyyum Turdi (1937-1997), Muhəmmətcan Sadiq (1934), Boğda Abdulla (1941), Qurban Barat (1939), Osmancan Savut (1946), İmin Əxmədi (1944), Muhəmmətcan Raşidin (1940), Ruzi Sayit (1943-2001), Zordun Sabir (1937-1998), Xevir Tömür (1922-1991), Əxət Turdi (1940), Calalidin Bəhram (1942), Məmtimin Hoşur (1944), Muhəmmət Bağraş (1952), Xalidə İsrail (1952), Əxtəm Ömər (1963), Toxti Ayup (1945), İbaydulla İbrahim (1951), Nurmuhəmmət Toxti (1949), Abdulla Savut (1950), Abduşükür Muhəmmətimin (1934-1995), Əxmət İmin (1950) və b. üçüncü dövr uyğur ədəbiyyatının aparıcı ədiblərindən sayılırlar (Lokman, 2007: 42).

Azərbaycan araşdırıcılarından Güllü Yoloğlu, Vüqar Mustafa, Qətibə Vaqifqızı və başqaları uyğur mədəniyyəti, folkloru, tarixi və ədəbiyyatı ilə bağlı qəzet və jurnallarda bir sıra maraqlı məqalələr dərc etdirmişlər.

3.2. Dramçılığın tarixindən

Doğu Türküstanda ənənəvi janrlarda əsərlər çox yazılsa da, 1930-cu illərədək Avropa metodları ilə yazılmış pyeslərə rast gəlinmir.

1934-40-cı illərdə uyğur teatrlarında yerli müəlliflərin əsərləri ilə yanaşı, Ü.Hacıbəylinin "Arşın mal alan" operettası və özbək şairi Həmzə Həkimzadə Niyazinin 1918-ci ildə yazmış olduğu "Bay və muzdur" pyesi tamaşaya qoyulur. Bu əsərlər səhnədə həmişə alqışlarla qarşılanır.

Tamaşalarda aktyorluq, rejissorluq, bəstəkarlıq da edən gənc Lutpulla Mütəllip xalq dastanları əsasında hazırladığı "Qərip ilə Sənəm", "Tahir ilə Zöhrə" operalarını da xalqının mühakiməsinə verir.

Uyğur araşdırıcılarına görə, bölgədə teatrın mənşəyi çox qədimlərə gedib çıxır. Refik Ahmet Sevengil "Türk Tiyatrosu Tarihi. Eski Türklerde Dram Sanatı" kitabında yazır: "Çində hökümdar olan ilk üç sülalenin kurucuları da Türktür. Bunlar miladdan önce 2202 yılından başlayaraq miladdan önce 250 yılına kadar hüküm sürmüşlerdir. Görülüyor ki, Çinde ilk defa tiyatrodan bahsedilmesi - yani 1150 - türklerin idaresi zamanına aittir…. Çinde dram sanatını himaye

edenler ve ilerletenler Türkler olduğu gibi, orada bu sanatı kurmuş olanlar da Türklerdir" (Sevengül, 1969: 17-20).

Araşdırıcı Əli Əziz isə M.Ö. 139-cu ildə Türküstana gələn ilk Çin elçisi Canq Çienin: "Uyğurlar kendi dil ve yazısına sahib olmakla kalmayıp, kendilerine özgür müzik, dans, tiyatro, ressamlık ve heykelteraşlık alanında da çox zengin ürünlere sahiptirler" (Əziz, 1989) fikrinə dayanaraq uyğur teatrının 2000 ildən çox yaşı olduğunu söyləyir. Bu fikirləri davam etdirən Bilge Tigin "Uyğur Tiyatrosu" məqaləsində yazır: "Gerek M.S. 629-da Türküstana gelen Budda rahibi Şuan Zangın hatıralarında, gerekse M.S. 981-de Turfana gelen Çin elçisi Vanq Yendenin raporunda ve diger birçok Çin yıllıklarında benzer kayıtlar bulunmakdadır. Doğu Türküstanda "Kızıl ming öy" diye bilinen Budda tapınaklarındaki dans ve orkestro resimleri, 8-9. yüzyıla ait 27 ülüşlük tiyatro eseri "Maytrisimit"in Uyğur türkcesinde çevrilip sahnelerde oynanması, Uyğur Türklerinin zengin tiyatroculuk geleneğine sahip olduğunu göstermektedir". Alman türkoloqu Annemari fon Qabayn bu mövzuda daha irəli gedərək yazır: "...O dövrün daxili bölgələrindəki çinlilərlə müqayisədə qədim Sincanın (Şərqi Türküstan) bədii

istedadları, səssiz teatrı, rəqs teatrı, orkestri və ibtidai teatrı böyük cazibə gücünə malik idi. Mövcud əlyazmalara görə, türk uyğur əlifbası ilə yazılmış səhnə əsərlərinin mövzusu Çin səhnə əsərlərindən daha üstündür." (Tigin, 1992: 94).

Doğu Türküstanda teatrın geriləməsinə səbəb kimi İslamın yayılması göstərilir. Əslində, teatr zəifləməmiş, sadəcə formasını dəyişmişdi. Belə ki, bölgədə İslam yayıldıqca "rəqs, akrobatika, serik, konçak (kukla) tamaşaları, meşreplər (qrup rəqsləri), məddahlık (hekayə danışmaq), toy tamaşaları və səma (fırlanan dərviş rəqsləri) kimi teatr elementləri günümüzə qədər gəlib çatmış və müasir uyğur teatrının əsasını təşkil edir" (Tigin, 1992: 94).

Avropa tipli teatrın yaranması və inkişafı dolayısı ilə də olsa Çin işğalçılarına qarşı xalq üsyanları ilə bağlıdır. Xalq üsyana qalxanda qısa müddətli də olsa, müstəqillik, muxtariyyət əldə edəndə ədəbiyyatın da gücləndiyini görürük. Ən sanballı milli və bədii dəyərli əsərlər də həmin vaxtlarda yaranır.

Çin işğalçılarına qarşı döyüşmüş Xoca Cihanın dul qadını Dilşad Sultan Pekinə aparılaraq zorla Çin imperatoruna ərə verilməyə çalışılmışdır. O, buna etiraz etdikdə zəhərlənərək öldürülmüşdür. "Bu

nəcib türk qadını Çində və Şərqi Türküstanda iffət və şərəf simvolu hesab olunurdu. Çində və Avropada ədəbi əsərlər döyüşlərdə iştirak edən və öldürülmüş əri Xoca Cahanla birlikdə şücaət göstərən Dilşad Sultanın adına yazılıb" (Türklük, 1991: 19).

Uyğurlarda Çin işğalçılarına boyun əyməyən qadın yalnız Dilşad Sultan olmamışdır. Onların sayı yüzlərlə olsa da, təəssüf ki, çox az hissəsi simvola, ədəbi qəhrəmana çevrilmişdir. Belə ədəbi qəhrəmanlardan biri də Nazıqum xanımdır. "1827-ci il mücadiləsinə qoşulan Nazıqum idi. Nazıqum Kaşqardan İli vadisindən sürgün edilən qadınlardan biri idi. O, çinlilərə tabe olmadı. Müsəlman olmayan bir kişi ilə evlənmək təzyiqlərinə təkbaşına müqavimət göstərdi. Onun adı uyğur xalqının milli tarixində unudulmaz iz buraxdı. Şeirləri çinliləri pislədi və uyğur xalqının qəlbində yaşamağa davam etdi" (Turan, 1992: 769).

Nazıqum sürgün öncəsində və sürgündə bir çox cəngavər "koşakları" (mübariz, döyüşə çağırış ruhlu şeirlər) söyləmiş və onu xalqı arasında yaymışdır. Uyğur xalq ağız ədəbiyyatının önəmli əsərləri sayılmış bu "koşaklar" günümüzə qədər gəlmişdir. Yeni uyğur ədəbiyyatının öndərlərindən

olan, “Müsəlmanların çinlilərə qarşı cihadı”, “Çanmoza Yusupxan” və b. mübariz poemaların müəllifi Bilal Nazım (1824-99) bu qəhrəman qadın və həmin dövrdə xalqına tutulan divan haqqında “Nazıqum” povestində böyük sənətkarlıqla bəhs etmişdir (Kartkaya, 1972: 756). Qazaxıstan SSR xalq artisti K.Kojamiyarov 1956-cı ildə “Nazıqum” operasını yazmışdır.

“Doğu Türküstanda yaşamakda olan türklerin sayı (uyğur türkleri çoğunlukta olmak üzere kazak, kırgız, özbək, tatar) yaklaşık 30 milyon civarındadır. Bunların içinde Uyğur türklerinin sayı 20 milyona yakındır” (Kaşqari, 1992: 18). Buna baxmayaraq “Edebiyat ve sanat işlerinde Doğu Türküstan Türkleri real hayatı eks etdiren eserler yazma imkanına sahib deyiller” (Dış işlerinde, 1999: 5). Onu da etiraf etməliyik ki, Doğu Türküstanda Çin işğalçılarına qarşı xalqın müqavimətinə həsr edilən əsərlərin sayı Azərbaycan ədiblərinin Rusiya işğalçılarına qarşı yazdıqları əsərlərdən qat-qat çoxdur.

3.3. Çağdaş dramçılığın yaranması və inkişafı

Uyğurlar arasında səhnə əsərlərinin yaranmasında, formalaşmasında və inkişafında Sovetlər Birliyində yaşamış və burada təhsil almış

teatr xadimlərinin rolu böyükdür. “Bu sanatçılardan Mümin Efendi 1932-de arkadaşlarıyla birlikde kendi yazdığı “Perixun” adlı tiyatro eserini Urumçide sahnelemiş ve böylece Çağdaş Uyğur tiyatrosu 1932-den itibaren başlamış olur. 1934-de kurulan “Sincan Ölkilik Medeni Akartış Uyuşmisi (Doğu Türküstan Kültür Yayım Birliği) ve buna bağlı olarak Doğu Türküstanın mühtelif bölgelerinde tesis edilen “Sana-i Nefise” (20-ci yüzilliyin başlanğıc illərində Azərbaycanda bu adda mədəni-maarif təşkilatları vardı - Ə.Ş.) adındakı sanat heyetlerinin büyük çabalarıyla kısa bir süre içinde Urumçi, Turfan, Qulca (Yining) başta olmak üzere Doğu Türküstanın her yerinde tiyatro faaliyetleri canlanmış ve halk arasında ilgiyle izlenmiştir” (Tigin, 1992: 94).

Uyğur teatr sənətçiləri Avropa teatr məktəbi ilə Çinlilərin szinsilərini uyğunlaşdırmaq və sintezini yaratmaq üçün cəhd göstərirdilər. Çin aktyor sənətinin başlıca xüsusiyyəti sayılan təsəvvür olunan əşyalarla oynamaq, şərti ifadə vasitələri, üsulları, simvollaşdırılmış əl-qol hərəkətləri uyğur teatr tamaşalarını bizim alışdığımız tamaşalardan xeyli fərqləndirir.

1934-40-cı illərdə uyğur teatrlarında yerli müəlliflərin operettaları və özbək şairi Həmzə

Həkimzadə Niyazinin 1918-ci ildə yazmış olduğu "Bay və muzdur" pyesi də böyük müvəffəqiyyətlə səhnələşdirilmişdir. Həmin illərdə uyğur teatrının repertuarında "Anarhan", "Şərməndələr" (Rəzillər), "Qərip ilə Sənəm", "Pərhad ilə Şirin", "Qönçəm", "Kanlık tağ", "Şanq xai keçisi" (Şanxay gecəsi) pyesləri aparıcı yer tutur.

Ü.Hacıbəyovun "Arşın mal alan" operettası xalq arasında o qədər geniş rəğbət qazanmışdır ki, bugünkü nəsil belə operettanın mahnılarını zümzümə edir.

"Bu yıllarda Zunun Gediri, Şükür Yalkin, Armiya Ali Sayram (Nimşehit), Ziya Semidi, Abdulla Rozi gibi yazar ve bestecilerin "Perhad ilə Şirin", "Cahaletin cefası", "Leyli ilə Mecnun", "Garip ilə Sanem", "Ğunçəm", "Şanq xai keçisi" (Şanxay gecəsi), "Ögey ana" adlı tiyatro eserleri yıllarca sehnelerden inmemiştir (Tigin, 1992: 95).

Milli azadlıq mübarizəsi nəticəsində 1944-cü ildə uyğur öndərlərindən İsa Yusuf Alptekin, Muhammedemin Buğra, Məsud Səbri Beyköz çinlilərlə birgə qurulmuş hökumətdə yer aldı. Senzura daha onların yazılarına əngəl ola bilmirdi. Ölkədə bir milli oyanış vardı. 1947-ci ildə yeni hökumətin baş katibi İsa Yusuf Alptekin 80 nəfərlik "Sen min cu yi" (üç ölkə) gənclər teatrını

qurur. Urumçi səhnəsində Məsud Səbri Beyközün yazdığı "Niyaz qız" pyesi ilə Muhammedemin Buğranın yazdığı "Kutluk Türkan" operasının səhnəyə çıxması uyğur dramçılığının inkişafına güclü təkan verir (Turan, 1992: 778).

Ümumiyyətlə, milli şüurun oyandığı, Çin imperiyasının zəiflədiyi 20-ci yüzilliyin 30-40-cı illərini uyğur dramçılığının "altun dövrü" adlandırırlar. Çünki bu dövrdə Zunun Qədiri, Lutpulla Mütəllıp, Hamit Hakim, Ziya Səmidi, Qasimcan Qəmbəri kimi sənətkarlar "Cəhalətin cəfası", "Qönçəm", "Gülnisa", "Samsak akang kaynadı", "Kürəş qızı", "Çin moden", "Borandın keyinki aptap", "Kanlıq tağ", "Zülümğa zaval", "Pirixun", "Əmət ilə Sərrap" və s. dram əsərlərini yazırlar (Uyğur bugünkü zaman ədəbiyyat tarixi, 2001: 294).

Çox təəssüf ki, bu yüksəliş uzun sürmür. Sovet-Çin rəhbərlərinin birgə planı əsasında uyğur öndərləri 1949-cu ildə Moskvadan - sovet hökumət rəhbərləri ilə danışıqlardan geri qayıdarkən SSRİ ərazisində təyyarə qəzasına salınaraq öldürülürlər. Doğu Türküstan tamamilə Çin kommunist rejiminə tabe edilir. Bu ağır itki uyğur ədəbiyyatının da, ictimai fikrinin də böyük itkisinə çevrilir.

Təyyarə qəzasında həlak olanlar arasında dövlət adamı, siyasi xadim və dramçı Muhammedemin Buğra da vardı. Onun ölümü ilə dramçılıq sahəsində bir durğunluq yaranır. Buna baxmayaraq, səhnə boş qalmır. Dünya və Çin dramçılarının əsərlərindən tərcümələr edilərək səhnələşdirilməyə başlanır. Uyğur dramçıları sosialist realizmi adlandırılan metoda uyğunlaşaraq sinfi mübarizəni önə çəkən əsərlər yaradırlar. Bütün sahələrdə olduğu kimi, dramçılıqda da kommunist ideologiyası hakim olur. Əsərlərin əsas mövzusunu sinfi mübarizə, keçmişdə kasıbların varlılar tərəfindən istismar və təhqir edilməsi, kommunistlərin hakimiyyət uğrunda mübarizədə qazandıqları qələbələr, proletar diktaturasının dünyanı xilas edəcəyi ideyasının təbliği və s. təşkil edir.

Bu dövrdə "Toy", "Yeni yer", "Aşlık" (Qida, ərzaq), "Ağust boranliri" (Avqust boranları), "Toy marşı", "Tamğini tartiveliş" (Möhürü əldə etmə) kimi səhnə əsərləri meydana gəlir. Diqqəti çəkən odur ki, yollar kəsilsə, əlaqələr qırılsa da, ayrı-ayrı imperiyaların tərkibində yaşasaq da, yaradıcı insanlarımız eyni mövzu üzərində işləmişlər. Azərbaycanda Səməd Vurğun "Fərhad və Şirin" (1941) əsərini qələmə alıb, Çinin Sintzsyan-Uyğur

Avtonom (Muxtar) Rayonunda da Armiya Ali Sayram Nimşehit "Pərhat ilə Şirin" adlı əsər yazmışdır. Azərbaycanda Sabit Rəhman "Toy" komediyasını (1937), uyğurlarda isə Zunun Qədiri "Toy içində toy" (1954) pyesini (Bu pyes "Toy" adı altında səhnələşdirilib - Ə.Ş.) yazmışdır (Uyğur bugünkü zaman ədəbiyyat tarixi, 2001: 295). Zunun Qədirinın sosialist inqilabının qələbəsindən bəhs edən "Toy" pyesi 1956-cı ildə Çində azsaylı xalqların dram əsərlərinin müsabiqəsində birinci yer tutmuşdur. Həmin dövrün ən yadda qalan mədəniyyət hadisələrindən biri də Ahmet Ziyatinin "Rabiyə ilə Seyiddin" operasının tamaşaya qoyulmasıdır.

Sosializm quruculuğuna yeni alışan ədiblər ölkəni bürüyən "mədəni inqilab"la (Küljanr ixtilalı) üzləşirlər. "60-cı illərin ikinci yarısında Çində "mədəni inqilabi" adı altında aparılan siyasi kampaniyada milyonlarla adam cəzalandırılmış, bütün vəzifələr ordunun əlinə keçmiş, ölkənin iqtisadiyyatına böyük zərbələr dəymişdi. Bu kampaniya gedişində ziyalılar təqiblərə məruz qalmış, mədəni nihilizm təbliğ edilmişdir. Çin Elmlər Akademiyası, ali məktəblər bağlanmış, bir sıra mədəniyyət abidələri məhv edilmiş, bir çox

kitab və nəşrlər qadağan olunmuşdu" (ASE, 1987: 362, 10-cu cild).

"Mədəni inqilab" illərində uyğur səhnəsində sanballı bir əsər görünmür. Ötən illərdə yazılmış pyeslər, hətta xalq mahnıları belə "burjuaziya dövrünün ədəbiyyatı", "sarı əsərlər" kimi adlar altında yasaqlanır. Yerini "Kızıl çirak", "Ak çaçlı kız" (Ağ saçlı qız), "Kızılbayrak ləpildəməktə" (Kızılbayrak dalğalanmaqda), "Küreş yolı" (Mücadilə yolu) kimi çoxu çincədən çevrilmiş teatr əsərləri oynanır (Tigin, 1992: 96). Əsas mövzusu yapon və Çin millətçilərinə qarşı kommunistlərin mübarizəsinə, bu mübarizədə göstərdikləri qəhrəmanlıqlara, sinfi mübarizənin dünyanı xilas edəcəyinə həsr olunmuş bədii və sənətkarlıq baxımından sönük, yalnız təbliğat məqsədi daşıyan bu pyeslər özünə tamaşaçı cəlb edə bilmir.

"Mədəni inqilab" 1976-cı ildə başa çatır və bundan sonra Çin kommunist partiyası "Mədəni inqilab"ı tənqid edən qərar (1978) qəbul edir, zərər çəkənlərə bəraət verilir, lakin yaradıcı insanlar asanlıqla xofdan xilas ola bilmirlər. Buna baxmayaraq, əvvəllər yazılıb səhnələşdirilmiş əsərlər yenidən tamaşaya qoyulur, yeni əsərlər yazılmağa başlanır. Zunun Qədiri, Seypidin Əzizi,

Əli Əziz, Əxtəm Ömər kimi dramçılar səhnəni canlandırırlar. Məmteli Zunun, Tursun Yünüs, Tursuncan Litıp klassik irsdən yararlanaraq günün tələblərinə cavab verən əsərlər yazırlar. Zordun Sabir, Toxti Ayup, Səmət Duqaylı, Əxtəm Ömər, Turdi Samsaq, Həccı Əxmət kimi sənətkarlar psixoloji pyeslər yazmağa üstünlük verirlər.

Bu dövrdə dramçılığa Cappar Qasım, Əblət Qəyum, Pərhat Abdurehim, Nurnisa Osman kimi gənclər gəlirlər (Uyğur bugünkü zaman ədəbiyyat tarixi, 2001: 297). Uyğur dramçılığında tarixi dramları və zamanları bir - birinə qatan pyeslərin sayı artır. Bu da təsadüfi deyildi. Sözünü sərbəst demək imkanı tapmayan sənətkarlar tarixə üz tutmaqla təsvir etdikləri olayların baş verdiyi ölkəni və zamanı dəyişməklə fikirlərini çatdırmaq məcburiyyətində qalırlar. Başqa sözlə, milli şüuru oyatmaq üçün bu üslub onların əlində bir vasitəyə çevrilir. Xalqa doğma olan, yüzilliklərdən keçib gələn süjetlər əsasında söz deməkdə mahir olan uyğur dramçılarının yazdıqları "Qərip ilə Sənəm", "Pərhad ilə Şirin", "Tahir ilə Zöhrə" dramları uzun müddət səhnədən düşmür. Zunun Qədirinın "Gülnisa", Seypidin Əzizin "Amannisa" tarixi dramı aktuallığına görə bu gün də tamaşaçı marağından uzaq deyildir.

Muhammətəli Zunun “Məslihət çeyi”, “Rabiyə ilə Seyiddin”, “Muqam ustazi”, “Cənubtiki cəng marşı”, Tursun Yünüsun “Qanlık yıllar”, “Muqam əcdatları”, “Dunyavı tilsimat”, Tursuncan Litıpın “Siz bizgə işinəmsiz” (Siz bizə inanırmısınız), “Qeri yigitnin toyı” (Yaşı kecmiş dəliqanlının toyu), Cappar Qasımın “Cüləmxan”, İmin Əxmədiylə birgə yazdığı “Mölçərtağ boranları” (müəlliflər bu əsərin mövzusunu Mancur sülaləsinə qarşı uyğur türklərinin məşhur Üçturpan üsyanından almışlar - Ə.Ş.), Ablet Keyumin “Vətən qurbanları”, Tursuncan Litıp və Şahidin Göhərinin birgə yazdıqları “Çin moden”, Səmət Duqaylının “Sarı ölməydu”, “Rabiyə ilə Seyiddin”, Cappar Qasımın “Vicdan suti aldıda”, Tuxti Əyupun “Qisas”, Zurddim Sabirın “Tuman”, Əxtəm Ömərin “Sırıtmaq”, “Səpqəci”, Pərhat Abdurehimin “Örkəşlə”, “Sayqü dəryası”, Həccı Əxmət Kөltiqin “Yürügim” əsərləri daha çox səhnələşdirilmişdir.

“Qərip ilə Sənəm”, “Qanlıq yıllar”, “Mölçərtağ boranları”, “Çin moden”, “Qerı yigitin toyi” pyesləri dəfələrlə ölkədə keçirilən dram teatr müsabiqələrinin mükafatlarını alır. Cumlidin “Qulam xan” operası isə “Beş min quruluş” dram mükafatına layiq görülür (Sultan, 1997: 298).

Uyğur teatrşünasları son dövr dramçılığından bəhs edərkən Muhammətəli Zunun, Tursuncan Litıp və Tursun Yünüsə xüsusi diqqət yetirirlər.

Muhammətəli Zunun (1939, Kaşqar şəhərinin Saqiyə məhəlləsi) xırda alverlə məşğul olan bir ailədə doğulmuşdur. 1955-1958-ci illərdə sabiq Şincanq İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumuş, ali məktəbi bitirdikdən sonra uzun illər müxtəlif kəndlərdə ədəbiyyat müəllimi işləmişdir. İlk yaradıcılığa şeirlə başlayan Muhammətəli klassik irsdən səmərəli bəhrələnərək ahəngdar lirik poeziya nümunələri yaradıb. "Vüsal səhəri", "Gülmihri", "Qucaqla, o, sənin dədən" şeirlər kitabını oxucuların mühakiməsinə vermişdir.

Onun 80-ci illərdə çap etdirdiyi "İki oxuğucum", "Quş məscid", "Münapiqin ölümü" və başqa kitablarındakı nəsr nümunələri uyğurlar arasında ən çox oxunan və ən çox sevilən əsərlər sayılır. Muhəmmətəli Zunun ədəbi yaradıcılığa vicdanla yanaşan uyğur ədiblərindəndir. Hansı janrda yazmasından asılı olmayaraq əsərləri həmişə diqqət mərkəzində olur. Onun "Gömülməz izlər" faciəsi daha məşhurdur. Abdurihim Ötkürün 1910-cu illərin hadisələrini əks etdirən "İz" tarixi romanı əsasında yazılmış faciə milli qəhrəman

Tümür Xəlpinin zülmkar şaha qarşı mübarizəsindən bəhs edir.

Tursun Yünüs (1942, Yerkən bölgəsi) 1958-ci ildə orta məktəbi, 1964-cü ildə Teatr İnstitutunun aktyorluq fakültəsini bitirmiş, Şincanq Opera Teatrında işləmişdir. İlk yaradıcılığa şeirlə başlayan Tursun 1988-dən Tenqritağ kinostudiyasında çalışmış və 80-ci illərdə dramçılıqda gücünü sınamışdır. "Qanlı illər", "Muğam əcdadları" silsilə dramlarını, "Kötülmigən toy", "Karamət bir gün", "Altun böşük", "Həsən və Hüsən" və s. əsərləri yazaraq səhnələşdirmişdir.

Uyğurlar arasında məşhur olan 12 muğam əsasında yazdığı "Muğam əcdadları" silsilə dramlarını xalqının taleyinin bədii dillə əksi adlandırmaq olar. Diqqəti çəkən odur ki, Azərbaycanın tanınmış şair və dramaturqu Bəxtiyar Vahabzadənin yazdığı "Muğam" poeması yalnız ad oxşarlığı ilə deyil, mövzuca da "Muğam əcdadları"na yaxındır. B.Vahabzadənin poeması əsasında da televiziya və teatr tamaşaları hazırlanmışdır.

Tursuncan Litıp (1945, Urumçi) 1982-cı ildə Şincanqda Uyğur Ədəbiyyatçılar və Sənətçilər Birliyinə daxil olmuş, "Şincanq sənəti" jurnalında redaktor işləmişdir. 1983-cü ildə birpərdəlik

“İzitku”, 1984-cü ildə “Toxtang toxtimatı” komediyasını, 1986-cı ildə “Bizgə işinəmsiz”, 1990-cı ildə “Qeri yigitnin toyı” pyeslərini yazan ədibin bizə məlum olan son əsərləri “Tangsikəş tümür xutunlar” və “Kəçküzdiki qeribliq” adlı bir pərdəlik lirik dramlarıdır. 1990-cı ildə yazdığı “Qeri yigitnin toyı” dramında ənənəvi toy mövzusunu seçmiş, 1988-ci ildə operada fəaliyyətə başlamışdır.

Uyğur teatrının araşdırıcılarından Tigin Bilgə yazır: “Çağdaş Uyğur tiyatrosunun meydana gelişi ve gelişip bugünkü hale gelişmesinde, Kemberhanım, Zikri Elpetta, Hüsencan Cami, Reyhan Abliz, Aytilla Ela, Helçem Sidik, Abdulkərim Baki ve Ablimit Sadık gibi bir çok sanatçıların büyük emeği vardır. Özellikle, Kemberhanım ve Aytilla Elanın Uyğur folklorunu, sanatını dünyaya tanıtmada oynadığı rolu kaydetmeye değer... Uyğur tiyatro nazariyeçisi Tursun Yünüs şunu yazır: “Uyğur tiyatrosu Uyğur halkının destancılık sanatından doğmuştur ki, biz onu geliştirmede yine aynı yolu takip etmeliyiz, sakın bu yoldan çıkır da Avrupanın drama ve operacılık yoluna gitmemeliyiz. Bunun için her şeyden önce Uyğur halk destanlarının ifade kalıplarını, abartma

yollarını ve ondaki genel felsefi fikirleri kavra-yarak kendimize özgü bağımsız icabiyet üslubunu yaratmamız lazım" (Tigin, 1992: 94).

İstər azərbaycanlı, istərsə də türkiyəli oxucu və ədəbiyyatşünasın Doğu Türküstandakı soydaşlarımızın yaratdıqları ədəbi əsərlər haqqında geniş bilgiləri olmadığına görə Sekür Turan "Uyğur türk ədəbiyyatı" məqaləsini bu sözlərlə tamamlayır: "1950-ci ildən sonra ədəbi qaynaqlar kifayət etmədiyi üçün uyğur ədəbiyyatının bu dönəmdəki inkişafından danışmaq çətindir; çünki Doğu Türküstandan çox ağır şərtlərlə gələn kitablarda Çin idarəçiliyinin güclənən siyasi və mədəni basqıları açıq bir şəkildə görsənməkdədir. Bu da geniş bir araşdırma aparmaq üçün əngəl törədir" (Turan, 1992: 778).

Sekür Turanın bu fikirlərini, məncə, Azərbaycana şamil etmək olmaz. Çünki Azərbaycanla Doğu Türküstan uzun illər eyni ideoloji cəbhədə, həm də sosialist düşərgəsi ölkələrində olduğundan gediş-gəliş, kitab mübadiləsi o qədər də çətin olmamışdır. Bu gün də çətin deyil. Sintzsyan-Uyğurda bu gün yüzlərlə azərbaycanlı var. Onlar ticarət, iş üçün gediblər. Əlaqələri də çox sıxdır. Kaş onların yüzdə biri

qədər də araşdırıcımız gedəydi. Hələlik onları əngəlləyən yoxdur.

Çində yaşayan soydaşlarımızın sayları haqqında əlimizdə doğru bilgi yoxdur. Rəsmi qaynaqlar isə yalnız Sincang Uyğur Muxtar Rayonunun ərazisinin 1,6 milyon kvadrat kilometr olduğunu yazır. Bu, Türkiyə Cümhuriyyətindən 2 dəfə, Azərbaycan Respublikasından isə 20 dəfə böyük bir ərazidir. Bəzi qaynaqlarda isə Doğu Türküstanın ərazisi bir milyon 828 min kvadrat kilometr göstərilir (Kaşqari, 1992: 18, Türklük, 1991: 11). İlk baxışda diqqəti cəlb etməyən bu fərqdəki rəqəmə nəzər salsaq görərik ki, Azərbaycan, Ermənistan, Gürcüstan respublikalarının ərazisindən xeyli böyükdür.

Sonuc

Tarixçi Eberhardın yazdığına görə, Çinin 1875-ci ildə yenidən Doğu Türküstanı işğal etməsi 10 milyon insanın məhvinə səbəb oldu. Onlar arasında çoxlu istedadlı gənc şairlər, yazıçılar, sənətçilər də vardı. Ümumiyyətlə, Doğu Türküstanda daha çox şair və yazıçının gənc ikən dünyasını dəyişdiyi müşahidə olunur ki, bu da ölkədəki irticanın hökm sürdüyünü göstərir. Türk

memarlığına uyğun tikilən binalar sökülüb yerində Çin üslubunda binalar tikildi. Türkcə olan yer adları dəyişdirilib çinliləşdirildi. Əhali çincə oxumağa və çinlilərlə evlənməyə təhrik edildi. Milli əxlaqı pozmaq üçün qumarxanalar, meyxanalar, fahişəxanalar və s. yaradıldı. Doğu Türküstan, türk və Türküstan sözlərini işlətmək, qəzet, jurnal nəşr etmək, Türkiyədən və müsəlman ölkələrindən kitab və s. gətirmək yasaqlandı. Bu da ədəbiyyatın, sənətin, mədəniyyətin inkişafında bir durğunluq yaratsa da, milli şüuru da oyatdı. Çin strateqləri əhalini assimilə etmək üçün müsəlman, türk qızlarını zorla çinli kişilərə verməyi planlaşdırdılar. Bu plana qarşı çıxanlar xalq qəhrəmanına çevrilmiş, həyatları bədii əsərlərin mövzusu olmuşdur.

Beləliklə, ədəbiyyatı ümumbəşəri mövzulardan uzaqlaşdırıb xalqın gündəlik problemlərini əks etdirmək səviyyəsinə gətirmişlər.

1911-1933-cü illəri Doğu Türküstanda "Müstəqil çinli baş valilər dönəmi" adlandırırlar. Valilərin bütün təqib və təzyiqlərinə baxmayaraq, həmin illərdə ədəbiyyatda bir dirçəliş, oyanış hiss edilir.

Sovetlər Birliyinin təsiri altında (1933-1944) olduğu dövrdə kommunizm ideologiyasının

təbliğinə geniş yer verilmişdi. Aşağı təbəqədən olanların savadsızlığının aradan qaldırılmasına imkan yaradılmışdı. Bundan yararlanan ədiblər milli şüuru oyadan əsərlər yazmağa çalışırdılar.

1944-cü ildə qurulmuş hökumətdə baş nazir olan Dr. Məsut Sabir Bayquzunun "Niyaz qiz" pyesi, hökumət konseyinin üzvü olan Muhammetemin Buğranın "Kutluk Türkan" operası səhnəyə qoyulmuşdu. Bu da siyasi xadimlərin, dövlət adamlarının səhnə əsərlərinə yüksək qiymət verdiklərini göstərir.

Kommunist ideologiyasına xidmət edən, kommunizm quruculuğunu təbliğ edən səhnə əsərlərinin bir çoxunda sətiraltı, eyhamlı, amma milli hiss oyadacaq fikirlərə rast gəlinir.

Çindəki "mədəni inqilab" uyğur dramçılığına, teatrlarına ağır zərbə vursa da, onun inkişafını tam dayandıra bilmədi.

Son dönəmlərdə belə təqib və təzyiqlər azalmasa da, Çin hökumətinin ədəbiyyat üzərindəki nəzarəti zəifləməyə doğru gedir. Xüsusən səhnə əsərləri tamaşaya qoyulanda aktyorlar nəzarətin zəif olduğunu hiss edən kimi mətndən kənara çıxıb öz fikirlərini bir-iki ifadə ilə də olsa, deyə bilirlər. Bu da milli ruhun yüksəlməsinə kömək edir.

РАЗВИТИЕ ЛИТЕРАТУРЫ И ФОЛЬКЛОРА УЙГУРСКИХ ТЮРКОВ

Резюме

Около 4000 км. расстояния разделяют – Уйгурскую автономную область (Китайская Народная Республика) от Азербайджана. Но, видимо, единые корни предопределили и схожесть наших судеб. И сегодня, несмотря на отсутствие в прошлом должных взаимосвязей, мы видим как близки и схожи названия наших литературных произведений, их сюжеты, наши имена и пр. Также топонимические и антропонимические названия восходят к единому корню.

Сегодня наших сородичей в Китае называют уйгурами, а нас азербайджанцами. И каждый из нас создал свою отдельную (чуть ли не изолированную друг от друга) историю, историю литературы, историю языка и т.д. До 20-го века литература азербайджанских тюрков насколько отличалась от литературы турков-Османов, настолько и литература уйгурских тюрков отличалась от литературы узбекских тюрков. Поэтому они больше именовались огузскими и

джигатайскими именами. Между этими группами не было серьезных различий. Поэты, жившие в XX веке в Узбекистане, писали на огузском наречии. Как в XIX веке встречались стихи поэтов, писавшие на джигатайском наречии, так и в XX столетии поэты, жившие в Узбекистане пробовали, свое перо на огузском наречии.

Политические события, происходящие в мире, а также планы стратегов стран под чьим игом мы находились, способствовали увеличению этих различий. Таким образом, появились такие термины, как уйгурская литература, уйгурское издание, уйгурская поэзия, уйгурская драматургия и т.д. Уйгурские писатели усвоили и жанры европейской литературы. Сегодня существуют уйгурский театр и уйгурская драматургия, которая известна своими молодыми авторами. В настоящее время уйгурский язык и литература продолжают развиваться в Синцзянь-Уйгурской автономной области Китайской Народной Республики и в Казахстане и в Узбекистане. В Восточном Туркестане живут, говорящие с нами на одном и том же языке уйгуры, казахи, киргизы, татары, узбеки, сахиры и другие народы.

В статье говорится о творчестве Абдуррагим Низари (1776-1849), Садир Пехливан (1798-1871), Турди Гариби (19 в.), Норузахим Зияи, (19 в.), Билал Назим (1824-99), Молла Шакир (1825-98), Сеит Мухаммет Каши, Нимшехит (1906-72), Зунун Гадири (1911-89), Ахмед Зияти (1913-89), Лутпулла Муталлип (1922-45), Хывир Томур (1922-91), Абдулкарим Ходжа (1928-88), Теюпджан Алиоп (1930-89), Мухаммеджан Садик (1934), Абдушюкюр Магамматамин (1934-95), Абдуррагим Откюр (1937-97), Геюм Турди (1937-97), Зордун Сабир (1937-98), Курбан Барат (1939), Мухаммеджан Рашидин (1940), Ахад Турди (1940), Бугда Абдуллах (1941), Джалалиддин Бахрам (1942), Рузи Саит (1943-2001), Имин Ахмади (1944), Маметамин Хушур (1944), Тохти Аюб (1945), Усманджан Савут (1946), Нурмухаммат Тохти (1949), Убайдулла Ибрагим (1951), Мухаммат Баграш (1952), Халида Исраиль (1952), Абдулла Савут (1950), Ахмет Эмин (1950), Ахтам Омар (1963) и др. поэтах и писателях, которые также внесли немалый вклад в развитие уйгурского языкознания, формирование национального самосознания и т.д...

Ключевые слова: Синцзянь-Уйгур, литература, фольклор, современная драматургия, театр, опера.

DEVELOPMENT OF LITERATURE AND FOLKLORE BY UYGHUR TURKS

Abstract

A distance of 4 thousand kilometers separates Xinjaing-Uyghur Autonomous Region of China People's Republic (Xinjaing Uyghur Autonomous region) from Azerbaijan. Probably, either our unique origin or historical processes determined similarities in our fates. Although our relations do not catch up with today's world speed, titles of our literary works and their contents resemble based on the fact that we have blood-memory. Most of our toponyms and special names are the same.

Today our compatriots living in China are called *Uyghurs*, while we are called *Azerbaijanis*. Seperate (almost isolated from each other) history, history of literature, history of language was created for each of us. In fact until the twentieth century the difference between the Uyghur and the

Uzbek literature was as bigger as the difference between the literature of Azerbaijani Turks and the Ottoman Turks. For this reason they were mostly called Oghuz and Jighatay. These two groups had minor differences. It is possible to encounter works written in Jighatay Turkic by our poets from the nineteenth century whereas Uzbek poets created several works in Oghuz Turkic until the twentieth century.

Political events in the world, plans of ruling strategists which kept us under influence served to deepen the differences we had. Thus, such terms as Uyghur literature, Uyghur prose, Uyghur poetry, Uyghur drama, etc. emerged. The Uyghur writers mastered genres of European literature by observing the world development either with the help of their brothers who were under Russian influence or directly through Russia. As a result modern Uyghur drama and Uyghur theatre emerged leading to the fame of Uyghur dramaturgy. Nowadays Uyghur language and literature develops in Xinjiang Uyghur Autonomous Region, Kazakhstan and Uzbekistan. Uyghurs, Kazakhs, Kirgizs, Tatars, Uzbeks, Salurs and Sari Uyghur Turks belonging to the same language family along with us live in the north of China.

The article focuses on Uyghur folklore and written literature. The writers such as Abdurehim Nizari (1776-1849), Sadir Palvan (1798-1871), Turdush Akhun Gheribi (XIX), Noruz Akhun Ziyati (XIX), Bilal Nazim (1824-99), Molla Shakir (1825-98), Abdukhalik Uyğur (1901-33), Nimshehit (1906-72), Zunun Gadiri (1911-89), Ahmet Ziyati (1913-89), Khevir Tomur (1922-91), Lutpulla Mutallip (1922-45), Abdurrehim Otkur (1923), Abdushukur Muhammatimin (1934-95), Abdukerim Khoja (1928-88), Teyupjan Aliyop (1930-89), Muhammatcan Sadik (1934), Geyum Turdi (1937-97), Zordun Sabir (1937-98), Gurban Barat (1939), Muhəmmətcan Rashidin (1940), Akhet Turdi (1940), Boghda Abdulla (1941), Jalalidin Bahram (1942), Tursun Yunus (1942), Ruzi Sayit (1943-2001), Imin Akhmedi (1944), Mamtimin Hoshur (1944), Tursuncan Litıp (1945), Tokhti Ayup (1945), Osmanjan Savut (1946), Nurmuhammet Tokhti (1949), Abdulla Savut (1950), Akhmet Imin (1950), Ebaydulla Ibrahim (1951), Khalida Israil (1952), Muhammet Baghrash (1952), Akhtem Omar (1963) who represent this literature struggled hard for the development of Uyghur language and for the formation of public opinion.

Key Words: Xinjiang-Uyghur, literature, folklore, modern dramaturgy, theatre, opera.

Məqalə “Uyğur, Qaqauz, Quzey Qafqaz Türklərinin folkloru və ədəbiyyatı” (Bakı, Nurlan, 2011, 424 səh.) kitabının 26-91-ci səhifələrindən alınmışdır.

AZADLIQ SEVƏR UYĞURLAR ÜÇÜN ŞƏHİD ŞAİR LUTPULLA MÜTƏLLİP NÜMUNƏSİ



Əsasən uyğurlar yaşayan Sintszyan Uyğur Muxtar Rayonunu (Şincan Uyğur Aptonom Rayonluk) Azərbaycandan təxminən dörd min kilometrlik bir məsafə ayırır. Bölgə keçmişdə Doğu Türküstan adlandırılırdı. Çin buranı işğal etdikdən sonra imperator 1884-cü il noyabrın 18-də verdiyi əmrlə bölgəni Çinin 19-cu vilayəti – Sincianq, Şincanq və ya Xinjianq adlandırdı. Bu da hakim çinlilərin dilində "yeni sərhəd", "yeni xətt", "yeni qazanılan yer" anlamındadır**.** Qəribəsi budur ki, Çin imeratorluğu avropalıların təsir dairəsində olmasına, ölkənin ayrı-ayrı bölgələrinin xaricilərə "icarəyə verilməsi"nə, Yaponiyanın Çinin bir çox

ərazilərini işğal etməsinə baxmayaraq, məğlub Çin işğalçılıq siyasətindən əl götürmürdü.

Doğu Türküstanda uyğurlarla yanaşı qazaxlar, qırğızlar, tatarlar, altaylılar və b. türk xalqları da yaşayırlar. Eyni soydan olduğumuza görəmi, yoxsa tarixin gedişindənmi oxşar taleyi yaşayırıq. Əlaqələrimiz zamanın sürətiylə ayaqlaşmasa da, qan yaddaşı sayəsində hələ də ədəbi əsərlərimizin adlarında, mövzularında bir oxşarlıq var. Toponim və şəxs adlarımızın da böyük bir hissəsi eynidir.

Bu gün Çində yaşayan soydaşlarımız *uyğur*, biz isə *azərbaycanlı* adlanırıq. Hər birimizin də ayrıca (az qala bir-birindən təcrid olunmuş) tarixi, ədəbiyyat tarixi, dil tarixi və s. yaradılıb.

1819-1826-cı illərdə Doğu Türküstanda Cahangir xanın başçılığı ilə xalq mancur mənşəli Çinq sülaləsinin hakimiyyətinə qarşı üsyan qaldıranda Qarabağda, İrəvanda, Gəncədə Abbas Mirzənin başçılıq etdiyi hərbi hissələr də rus ordusuna qarşı vuruşurdu. 1830, 1831-ci ildə Car-Balakəni, 1831-ci ildə Lənkəranı, 1837-1838-ci illərdə Şəki və Qubanı, 1829-1861-ci illərdə Şeyx Şamilin başçılığı ilə Qafqazı bürümüş üsyanlar ilə Doğu Türküstanda 1830-cu ildə Yusup Xocanın, 1846-cı ildə Muhəmmətimin Xocanın, 1855-ci ildə

Vəli Xan Törənin başçılıq etdiyi üsyanlar bir-birlərinə çox bənzəyir.

1931-ci ilin fevral ayında Qumul vilayətində Xoca Niyaz Həccı və Salih Dorğanın öndərliyi ilə xalq Çin Şu Jenin (1928-1933) hakimiyətinə qarşı üsyan qaldırdılar. Üsyan dalğası sürətlə ölkəni bürüdü. 1933-cü ilin noyabrın 12-də Kaşqarda Doğu Türküstan İslam Cümhuriyyəti elan edilir. Lakin qurulan bu dövlətin ömrü uzun olmur. 1934-1944-cü illər arasında SSRİ Doğu Türküstanı öz təsir dairəsində saxlamaq, ondan Yaponiyaya və Çinin bəzi dairələrinə təsir vasitəsi kimi istifadə etmək üçün diplomatik vasitələrdən və silahlı qüvvələrdən istifadə edir.

1937-ci ildə SSRİ ilə Çin arasında bağlanmış andlaşma Doğu Türküstan İslam Cümhuriyyətinin ləğv edilməsilə nəticələnir. Xalq kütlələri isə bu müqavilənin şərtləri ilə razılaşmır. Ölkənin müxtəlif bölgələrində itaətsizlik, silahlı üsyanlar davam edir.

1938-ci ilin sonlarında müqavimət hərəkatı daha da güclənir. Xalqın iradəsini qırmaq üçün olmazın qəddarlığına əl atıldı. Kaşqarda polis idarəsinə rəhbərlik edən sovet vətəndaşı Mavlanovun bir gündə 6.000 nəfəri güllələtməsi, 300.000-dən çox insanı həbs etdirməsi və 10.000-dən çox ailənin malını müsadirə etməsi Azərbaycanda 1936-1938-ci

ildəki kütləvi həbslər və sürgünləri yada salırdı?!




1944-cü ilin iyulunda İli bölgəsində-Qulcada (Yining) Ali xan Törənin başçılığıyla çinlilərə qarşı yenidən üsyan baş qaldırdı və qələbə ilə başa çatdı. 1944-ci ilin avqustun 7-də *Doğu Türküstan Cümhuriyyəti*nin qurulduğu elan edildi və hökumət başçısı Ali xan Törə seçildi. Lakin beynəlxalq güclər yeni hökuməti tanımaq istəmir.

1946-ci ilin dekabrında şah orduları Güney Azərbaycanda qurulmuş hökumətin varlığına son qoyur və rəhbərləri, fəalları Sovetlər Birliyinə gətirilir. Güney Azərbaycanda qurulmuş, milli hökumətin rəhbəri S.C.Pişəvəri 1947-ci ildə Quzey Azərbaycanda avtomobil qəzası adı ilə öldürüldüyü

kimi, İosif Stalin ilə Ze-Dongın gizli razılaşmasıyla Doğu Türküstan Cümhuriyyətinin Prezidenti Ahmetcan Kasimi, Milli Azadlıq Ordusunun komandiri general İshak bəy, onun müavini general Delil Kan, Ordunun Siyasi Komissarı Abdukərim Abbas və b. təyyari qəzasına salınaraq məhv edildilər. Təşkil olunmuş bu təyyarə qəzasının ardından işğalçı ordu 1949-cu ilin oktyabrında Doğu Türküstanı tutur.

Ölkələrimizin taleyi kimi insanlarımızın taleyi də oxşardır. Uyğur inqilabçısı, şair və dramçı Lutpulla Mütəllipin gənc yaşlarında qəddarlıqla öldürülməsi Mikayıl Müşfiqin, sonradan sümüklərinin tapılaraq təntənə ilə dəfn edilməsi Hüseyn Cavidin taleyini yada salır.

Bu yazıda xalqımızın yaxından tanımadığı, lakin tanımasına və sayğı göstərməsinə ehtiyac olan Lutpulla Mütəllipin ömür yolundan söz açmağa ehtiyac var.

Millətini azad və xoşbəxt görmək arzusuyla yaşayan və bu yolda həyatını qurban verən Lutpulla Mütəllip haqqında çox yazılsa da, doğum və ölüm tarixləri fərqli-fərqli göstərilib. Uzun illər Şincanın Qulca (Yining) şəhərində doğulduğu fikri üzərində durulub. Uyğur araşdırıcısı Tursun Erşidin 1998-ci ildə Urumçidə çap etdirdiyi “Lutpulla Mütəllip və

unin keçürmişləri" kitabı şairin doğum ili, yeri və ölüm günü ilə bağlı yanlışlıqlara son qoydu. O, şairin atası Həzim Axunun evindəki "Min bir hədis" adlı kitabının qapağına oğlunun doğum tarixini hicri təqvimi ilə yazdığını aşkara çıxardı. Həmin tarixi miladiyə çevirdikdə 1922-ci ilin oktyabrın 16-na uyğun gəldiyini yazdı. Ailədəki müqəddəs kitabların qapağına mühüm tarixi hadisələr və uşaqların doğum günlərinin yazılmasının az qala bir ənənəyə çevirildiyi məlumdur. Həzim Axun da kitabın qapağına oğlunun doğulduğu günü yazıbsa, demək, ən doğru sənəd bu hesablanmalıdır.

Beləliklər, Lutpulla Həzim Axund oğlu Mütəllip 1922-ci il oktyabrın 16-da Qazaxıstan Respublikasında, Almatı yaxınlığındakı Uyğur rayonu kimi tanınan Nilki qəsəbəsinin Çunçi kəndinin Sayboyu məhəlləsində anadan olub.

Kiçik yaşlarından etibarən fitri istedadıyla ətrafındakıların diqqətini cəlb edən, ilk təhsilini evdə atasından alan Lutpullanı Qulca (Yining) şəhrindəki tatar ibtidai məktəbinə oxumağa göndərirlər. Üsuli-cədid məktəbi kimi tanınan bu məktəbdə 1936-cı ilədək oxuyaraq tatar və rus dillərini öyrənmiş olur. Sonra təhsilini rus gimnaziyasında davam etdirir. İki il də burada oxuyur. 15 yaşında ikən "Mənim xalqım" adlı şeirini "İli qəziti"ndə çap etdirir.

Yeniyetməlik və gənclik illərində yazdığı üsyankar şeirlərinə görə onu "od yürəkli şair" adlandırırlar.

Lutpulla imtahan verərək Urumçi şəhərindəki Darülmuəllimə qəbul olunsa da, maddi sıxıntı üzündən təhsilini davam etdirə bilmir. 1941-ci ildə sovet mühəndislərinin tərcüməçisi kimi Güney Şincana gedir. Faşist Almaniyasının SSRİ-yə hücumundan sonra Sovet mühəndisləri axtarış-kəşfiyyat işlərini yarıda buraxıb, geri döndüklərindən Lutpulla Mütəllip işsiz qalır və yenidən Urumçiyə qayıdır.

Təhsilini davam etdirməklə yanaşı "Şincan" qəzetində işləyir və qəzetdə "Ədəbiyyat gülzarı" adlı səhifə hazırlayır.

İstedadlı şair, publisist və dramçı Lutpulla Mütəllipin 1942-ci ildə, yəni 20 yaşında yazdığı, elə həmin il də səhnələşdirilən "Gerçək moden" pyesi Çin valisi Şenq Şi-Şey tərəfindən yasaqlanmış və ona qarşı təqiblər başlanmışdır.

Təqib və təzyiqlərə baxmayaraq o, bədii yaradıcılığını və siyasi mübarizəsini dayandırmır. Rus dilində təhsil alması, bu dilin vasitəsilə inqilabi ədəbiyatla tanışlığı, K.Marksın, F.Engelsin, V.İ.Leninin, İ.Stalinin əsərlərini oxuması təsirsiz

qalmır. Lutpulla yeniyetməliyindən Avropada kabus kimi dolaşan, oradan da dünyada yayılan kommunizm ideologiyasının təsiri altına düşür. O, bu ideologiya vasitəsilə xalqının azad və firavan yaşayacağına inanır.

O, ənənəvi əruz və heca vəznində şeirlər yazmaqla yanaşı, sərbəst vəzndə də qələmini sınayır, bu janrın çılğın təbliğatçısına çevirilir. Həm də "Borandan sonrakı aydınlıq", "Samsaq ağa hirsləndi" kimi pyeslər yazmaqla oxuma və yazma bilməyən insanlara səhnədən müraciət etməyə, xalqını cəhalətdən qurtarmağa çalışır. Pyeslər yazarkən və onları səhnələşdirərkən rus rejissor və aktyorlarının təcrübəsindən bəhrələnir.

1943-cü ildə Şincanın siyasi həyatında dəyişmələr baş verir. Liberal, demokratik görünməyə can atan vali Şenq Şi Şey Qomindan Çin Milli Partiyasına daxil olur. Bu, bölgədə tarazlığın pozulmasından, çinlilərin müstəmləkəçilk siyasətinin getdikcə şiddətlənəcəyindən xəbər verir. Şincanda yanvar ayında həmin partiyanın vilayət şöbəsi təşkil edilir və iyun ayında partiyasının ən mühafizəkar üzvlərdən Fen Qun Bini "Şincan" qəzetinə redaktor təyin edilir.


Qomindan Çin Milli Partiyasının hakimiyyətə gəlməsi Şincanda Lutpulla Mütəllip və onun kimi inqilabi əhval-ruhiyyəli, yenilik tərəfdarı vətənsevərlərin vəziyyətini ağırlaşdırır. Bir çox kitablar yığışdırılır, inqlabi ruhlu, vətənsevər kitablar çap edən nəşriyyatlar bağlanılır. Həbs edilmək və ya sürgünə göndərilməklə üzləşən Lutpulla Mütəllip 1943-cü ilin sonunda işdən çıxarılır. Onu Aksudakı "Şincan" qəzetinə redaktor müavini göndərirlər.

Lutpullanın gəlişi Aksu şəhərində vətənsevərlər tərəfindən sevinclə qarşılanır. Qəzetdə "Cənub Şamili" adlı səhifə hazırlayır və buraya şair Nimşehit, Bilal Əzizi kimi gəncləri cəlb edir. Gənc şair elm öyrənməklə, bədii yaradıcılıqla yanaşı, ictimai-siyasi işlərdə fəal iştirak etdir.

Aksu Vilayətlik Uyğur Mədəniy Akartiş Uyuşmisi (Aksu Vilayət Uyğur Mədəniyyətinin İnkişafı Birliyi) ilə "Aksu Şincan" qəzetinin birgə çıxartdığı "Cənubtin avaz" (Cənubdan səs) jurnalına məsul katiblik edən Lutpulla Mütəllip "Təsiratım" (Duyğularım), "Hoş" (Əlvida), "Yillarka cavap" (İllərə cavab), "Pəryat" (Fəryad), "Hiyalçan tilək" (Xəyallı diləklər), "Küreş ilhami" (Mübarizə ilhamı), "Şair toğrusida muveşşeh" (Şair haqqında

müvəşşəh), “Muhəbbət həm neprət” (Məhəbbət və nifrət), “Oğlum hekkidə mərsiyə” (Oğlum haqqında mərsiyə), “Vətən ala, xəlik ala” (Vətən ala, xalq ala), “Büyük mayak” (Böyük mayak) və b. şeirlərini, eləcə də “Əcəl hudukuşida” (Əcəl anında), “Padişah samuraylari ağir halsiraydu” (Padişah samurayları böyük yorğunluq içində), “Uniz kəlgüsi zor həm parlak” (Onun gələcəyi güclü və aydın) satirik məqalələrini və “Samsak akan kaynaydı” (Sarımsaq ağa əsəbləşir), “Küreş kizi” (Mübarizə qızı), “Borandin keyinki aptap” (Borandan sonrakı günəş), “Çin moden”, “Çiməngül” adlı səhnə əsərlərinin, “Ədəbiyyat nəzəriyyəsi”, “Sənətkə muhəbbət” (Sənətə məhəbbət), “Tiyatirmız kelip çikişi və ravaclaniş tarihi” (Teatrımızın yaranması və inkişafı tarixi) adlı məqalələrini yazır.

Üzeyir Hacıbəyovun “Arşın mal alan” operettasının Doğu Türküstanda uğurla səhnələşdirilməsi və böyük tamaşaçı rəğbəti qazanması, bir çox səhnə əsərlərinə rejissorluq edən, özü baş rolları oynayan gənc Lutpulla Mutallipi “Tahir ilə Zöhrə” və “Qərip ilə Sənəm” operalarının librettosunu yazmağa ruhlandırır.



1945-ci ildə İli, Altay, Tarbaqatay bölgələrində yaşayan uyğurların Çin hökumətinə qarşı başladıqları etiraz hərəkatı tarixə "Üç vilayət inkilabı" kimi daxil oldu. "Üç vilayət inkilabı" təşkilatının liderlərinin Aksu şəhərinə göndərdiyi nümayəndələrlə görüşən, onların istəklərini öyrənən Lutpulla Mütəllip onlarla birgə bölgədə hakimiyyəti devirmək uğrunda mübarizə aparacağını vəd edir. Bundan sonra böyük bir eşq və ilhamla "Uçkunlar İttipakı" (Qığılcımlar İttifaqı) təşkilatını qurur. Tam adı "Şərqiy Türküstan Uçkunlar İttipaki" (Şərqi Türküstan Qığılcımlar İttifaqı) olan təşkilata millətini sevən Nimşehit, Bilal Əzizi, Muniridin Hoca, Abdulla Davutop, Yusupcan kimi

vətənsevərlər daxil olur. Təşkilatın parolu "Biz cümə namaziga teret elip koyduk. Cümə namazini sizlər bilən billə okumakçimiz" (Biz cümə namazını qılmaq üçün abdəst aldıq. Cümə namazını sizinlə bərabər qılmak istəyirik) olur.

"Üç vilayət inkilabi" ordusu Çin hökumət qüvvələrinə qarşı silahlı mübarizəyə başlayır. Lutpulla Mütəllip qurmuş olduğu "Uçkunlar İttipaki"nın üzvləri də döyüşə hazırlıq işlərini sürətləndirir, Qomindan Partiyasının tabeliyində olan əsgəri birliyin silah anbarına girmək, oradakı silahları alaraq öz düyüşçülərinə paylamaq üçün gizlicə anbar qapılarının açarlarını hazırladırlar.

Satın aldığı xainlərin yardımı ilə Qomindan Partiyasının məmurları Lutpulla Mütəllipi və silahdaşları Bilal Əzizi, Müniridin Xocanı, Abla Mevlancan, Rozi Turdiyof və 30 yaxın məsləkdaşını həbs edirlər. Xalqının azadlığı və xoşbəxtliyi uğrunda Qomindan ordularına qarşı cəsarətlə vuruşan "Üç vilayət inqilabı" əsgəri birlikləri 1945-ci ilin payızında qarlı dağları aşaraq Güney Şincana keçib Aksu şəhərinə doğru irəliləyir. Qomindançılar həbsdə olanların üsyan qaldıracağından, xalqın da onlara qoşulacağından qorxuya düşərək 1945-ci ilin sentyabrın 18-də Lutpulla Mütəllipi və

məsləkdaşlarını güllələyirlər. “Üçkunlar İttipaki”nın (Qığılcımlar İttifaqı) üzvlərinin güllələndiyini eşidən xalq kütlələri həbsxanaya hücum edib oranı dağıdır. Aksu şəhəri qomindançılardan azad olur. Həbsxanada Lutpulla Mütəllipin qanıyla divara aşağıdakı misraları yazdığını görürlər:

Bu kən dunya mən üçün boldi duzəx
- Bu gen dünya mənim üçün oldu cəhənnəm,
Yaş gülümni şazaz kildi kanhor əbləh...
- Gənç gülümü xazan qıldı qaniçən əbləh...

Lutpulla vətənin azadlığı uğrunda mübarizədə şəhid olsa da, onun ideyaları reallaşır. Doğu Türküstan hökuməti qurulur. Sovetlərin yardımı ilə Çində kommunistlər hakimiyyətə gətirilir. Lakin onlar vədlərini tez unudaraq, dünənki silahdaşlarına və əməkdaşlıq etdikləri insanlara divan tuturlar. Xalqlara azadlıq vəd etsələr də, müstəmləkəçilik siyasətini davam etdirirlər. İki imperialist dövlət, Çin və SSRİ gizli plan quraraq 1947-ci ildə Doğu Türküstanlıların liderlərini təyyarə qəzasında öldürür, hökumətin fəallarını və müstəmləkəçilərə müqavimət göstərənləri də məhv edirlər.

Lutpulla Mütəllip və dostlarının vəhşicəsinə edam edilməsindən beş il sonra xalq ayağa qalxaraq yenidən həbsxanaya basqın edir. Həmin vaxt həbsxanada işləmiş nəzarətçilərə təzyiq göstərərək Mütəllip və məsləkdaşlarının cənazələrinin harada gizlədildiyini tələb edirlər. Həbsxana işçiləri canlarının qorxusundan həqiqəti deyirlər. Məlum olur ki, vətənpərvərlər həbsxana ərazisindəki donuz damında güllələnmiş, sonra da ora ayaqyoluna çevrilmişdir.

Həmin yeri qazaraq şairin və əqidə yoldaşlarının param-parça edilmiş cəsədlərinin qalıqlarını tapırlar. Aksu və ətrafından gələn xalq kütlələri bu vətən övladlarının param-parça edilmiş cəsədlərini İslam qaydaları və uyğur adət-ənənəsiylə dəfn edirlər.

Çin cəlladları Lutpulla Mütəllipin 18 yaşlı xanımı Sopiyam Baiz qızını təqib edir, nəticədə Lutpullanın yeganə övladı aclıqdan ölür.

Son illərdə Urumçidə baş verənlər onu göstərir ki, Lutpulla Mütəllipin ideyaları yaşayır, bu ideya uğrunda ölümə gedən uyğur gəncliyi var.



Şəkildə: Lutpulla Mütəllip Aksu şəhərində yenidən dəfn edilərkən qəbirinin üzərini belə düzəltmişlər.

(TRT "Türkiyənin səsi" və Azərbaycan İctimai Radiosunun birgə hazırladığı, hər gün Bakı vaxtı ilə saat 12.00-13.00 arasında efirə gedən "Qorqud Ata" proqramında "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cu il martın 25-da efirdə səsləndirilmiş verilişin mətni (www.trtazerbaycan.com) əsasında hazırlanaraq "525-ci qəzet"in 14 sentyabr 2011-ci il, 166 (3482) sayında "Azadlıqsevər uyğurlar üçün şəhid şair Lutpulla Mütəllip nümunəsi" məqaləsi adı ilə dərc edilmişdir.)

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il iyulun 8-də, saat 09.14-də efirə getmişdir.

Azadlıqsevər uyğurlar üçün şəhid şair Lutpulla Mütəllip nümunəsi // "525-ci qəzet" 14 sentyabr 2011-ci il, 166 (3482), səh. 4.

http://old.525.az/view.php?lang=az&menu=7&id=34608

AZADLIQ UĞRUNDA ŞƏHİD OLAN ALTAY PƏLƏNGİ – OSMAN BATUR

Özət

Osman İslam oğlu Batur 1889-cu ildə Doğu Türküstanın (indiki Çin Xalq Respublikası Sincan-Uyğur Muxtar Rayonu) Altay vilayəti Öndiqara bölgəsinin Göytoğay kəndində anadan olub. Bölgəni idarə edən Homindon hökumətinin xalqın mənafeinə zidd qanunlarına tabe olmayaraq dağlara çəkilib və silahlı müqavimət hərəkatının əsasını qoyub. Həmyerliləri Zelebay Telci, Nurgocay Batur, Kaseyin Batur, Canım Han Həccı, Süleyman Batur, Musa Mergen Aktepe, Sulibay, Ökürbay, Nogaybay, Ahid Həccı, Halil Teyci, Karakul Zalin və b. ona qoşulub. Beləcə, bölgədə hökumətə qarşı etiraz silahlı üsyana çevrilib.

Az bir zamanda üsyançıların sayı otuz min nəfərə yaxınlaşıb. Onlar Altay bölgəsini Homindon hökumətinin məmurlarından və silahlı qüvvələrindən təmizləyərək Altay Müvəqqəti Xalq Cümhuriyyəti qurublar. Hökumətə rəhbər isə Osman Batur seçilib. O, 1944-1945-ci illərdə, Tanrı dağlarının qüzeyindəki bölgələri

işğalçılardan azad edib. Çin zülmündən azad edilmiş üç bölgə birləşdirilərək Doğu Türküstan hökuməti yaradılıb. Osman Batur həmin hökumətdə (fevral 1947- sentyabır 1949) hərbi rəhbər, vali, koalisyon hökumətin üzvü vəzifələrini yerinə yetirib.

Yeni yaradılan Çini təsir dairəsinə alan SSRİ də Doğu Türküstanı müstəqil dövlət kimi görmək istəmirdi. Odur ki, Doğu Türküstan Hökumətinin rəhbərlərini danışıqlara cəlb edərək onları yeni yaradılan Çin hökumətinə tabe olmağa razı salmağa çalışıb və göndərdiyi hərbi sursatın və mütəxəssislərin köməyi ilə bölgəyə hücum edib. Yeni-yeni dirçəlməkdə olan hökumətin rəhbərləri xəyanət nəticəsində təyyarə qəzasına salınaraq məhv edildiklərində Çin Xalq Ordusuna qarşı müqaviməti ləğv edərkən, minlərlə insanı öldürüb, həbsxana və sürgünlərə göndərib. Osman Batur isə kiçik bir qüvvə ilə döyüşü davam etdirərək dağlara çəkilib.

Osman Batur və əsgərləri 1949-cu ildə dar bir dağlıq bölgəyə sıxışdırılır. Yanında 3-4 min adamı qalır. Çinlilər 1951-ci ildə hücum edərək Osman Baturun qızı Azpayla birlikdə qadınları əsir alırlar. Osman Batur Kamambal dağı ətrafında çox az bir qüvvə ilə çinlilərə hücum etsə də, silahları

qurtardığından əsir düşür. Onu Tunk Huanq şəhərinə aparırlar. Düşmən o qədər alçaqdır ki, igidliklə müstəqillik mübarizəsi aparan bir xalqın liderinə hörmət göstərmir, Osman Batura işgəncə verərək şəhərdə gəzdirirlər. 29 aprel 1951-ci ildə əvvəllcə qollarını və qulağını kəsir, sonra edam edirlər. Bununla da iş bitmir. Yeganə qardaşı Dəlixan İslamoğlunu həyat yoldaşı, 18 yaşlı qızı, 14 yaşlı oğlu, anaları Mamey xatunun gözləri qarşısında doğrayaraq öldürürlər.

Şərqi Türküstanlılar 29 apreli − Osman Baturun şəhid olduğu günü "Günəşin söndüyü gün" adlandırırlar. Həqiqətən də bir millətin azadlıqdan məhrum olunması günəşinin sönməsi kimi bir şeydir, amma Osman Batur kimi igidlər yetişdirən bir millətin günəşi sönməyəcək və müstəqillik arzusu əsla bitməyəcək.

Açar sözlər: Osman İslam oğlu Batur, Altay Müvəqqəti Xalq Cümhuriyyəti, Doğu Türküstan Cümhuriyyəti.

Giriş

Osman Baturdan söz açacağımız məqalədə tez-tez Türküstan, Doğu Türküstan /Şərqi Türküstan terminlərini işlədəcəyik. Bu terminlər haqqında ensikilopediyalar, internet saytları geniş

bilgi versə də, mövzu ilə yaxından tanış olmayan oxucularımızı nəzərə alaraq Türküstan haqqında geniş bilgi verməyi lazım bildik.



Orta yüzillərdə Doğuda Altay dağlarından başlayıb Qərbdə /Batıda Xəzər dənizinə və Volqa (İtil) sayının aşağı axarlarınadək uzanan böyük bir ərazi Türküstan, yəni türklərin yaşadığı yer adlandırılıb. Sahəsi təxminən 6 milyon kvadrat kilometrdən çox olan sahənin Güney sərhədləri Kopet, Hindikuş, Kuenlin dağlarından, Qüzeyi isə İrtış çayının Ob çayına töküldüyü ərazidən, yəni Qazaxıstan və Sibir çöllərindən keçir. Türküstan öz daxilində də iki yerə Sərqi /Doğu Türküstan və Qərbi /Batı Türküstana ayrılır.

Keçmişdə Şərqi/Doğu Türküstandan söz açanlar ərazisinin 1,82 milyon kvadrat kilometr olduğunu yazırdılar. Son dönəmin qaynaqlarında bölgənin ərazisinin 1,65 milyon kvadrat kilometr göstərilir. Köçəri mədəniyyətinin beşiyi sayılan bu

geniş və rəngarəng bölgədə qüdrətli imperiyalar, kiçik dövlətlər yaranmış, ömürlərini başa vurduqdan sonra tarix səhnəsindən silinmişlər. Türküstanlıların tarixən ən böyük və təhlükəli rəqibi bu çinlilərin ulu babaları olmuşlar. Birinci (Batı) Xan sülaləsinin (miladdan öncə 206-miladın 204-cü ili) hakimiyyəti illərində qonşu xalqlara hərbi basqınlarla yadda qalmışdır. Miladın birinci yüzilində Doğu Xan İmperatorluğu da babalarının yolu ilə gedərək Cunqariyaya və Doğu Türküstana işğalçı yürüşlər etmişdir. Məlumdur ki, təsir əks-təsirsiz qalmır (ASE, 1987: 51, 10 cild). Quzeydən gələn köçəri xalqların basqınlarından qorunmaq və karvan yollarını mühafizə etmək üçün Çin İmperatorları miladdan öncə 215-ci ildən Böyük Çin Səddini tikmək məcburuyyətində qalmışlar. On milyonlarla insanın həyatı bahasına başa gəlmiş bu müdafiə qurğusu Çin Xalq Respublikasının başkəndi Pekinin yetmiş kilometrliyindən keçir. 4-5 min kilometr uzunluğu, 6,6 metr (bəzi yerlərdə 10 metr) hündürlüyü olan, divarının qalınlığı aşağıda 6,5 metr, yuxarıda 5,5 metr olan, gözətçi bürcləri, dağ keçidlərində isə qalalarla möhkəmləndirilən, günümüzdə belə insanları heyrətləndirən müdafiə qurğusunu (ASE, 1978: 304, II cild) türk

döyüşçüləri dəfələrlə keçərək qonşu imperatorları xərac ödəməyə məcbur etmişlər. Sonrakı yüzillərdə çinlilər və mancurlar Doğu Türküstanı bir neçə dəfə işğal etsələr də, orada çox duruş gətirə bilməmişlər. Məşhur Talas müharibəsində (751) məğlub olan Çin orduları 18-ci yüzilədək bir daha Doğu Türküstana qələbə ilə başa çatan yürüş etməmişlər (http://www.oguz-news.net/tur/?p=3532).

Çingiz xanın Çini işğalı isə 1279-cu ildən 1368-ci ilədək, yəni Min sülaləsi hakimiyyətə gələnədək davam etmişdir. Mancur mənşəli Sin sülasləsi 1644-ci ildə Min sülaləsinin hakimiyyətinə son qoymuşdur. Uzun illər türklərin əsarəti altında qalan və onlara xərac verən çinliləri 1644-1912-ci illərdə mancur sülaləsindən olanlar idarə etmişlər. Bugünkü Çin Xalq Respublikasında milli azlıq olaraq tanınan və milli hüquqları uğrunda mübarizə aparan mancurların dilini Ural-Altay dil qrupunun Altay qoluna daxil edirlər. Hazırda Rusiya Federasiyasında yaşayan mancurlar isə tunquz adlandırılırlar. Bu kiçik xalq Çin imperiyasını idarə etməklə qalmayıb, hətta Çin səddindən kənarda Şərqi/Doğu Türküstanda olan türk xalqlarını da əsarətləri altına almışlar. Hakimiyyətdə olan mancurlar çinliləşmiş, Çin

dövlətinin mənafeyini qorumuşlar (ASE, 1984: 452).

18-ci yüzildə feodal pərakəndəliyi, daxili çəkişmələr o yerə çatmışdır ki, sonda Çindən yardım istənilmişdir. Bu imkanı əldən qaçırmayan Çin ordusu 1759-ci ildə Şərqi/Doğu Türküstana daxil olmuşdur. Emine Kiziltaş "Dünden Bu güne Doğu Türküstan Shinkyang" məqaləsində yazır ki, "Çin istilası ile Doğu Türküstan'a giren Mançur kuvvetleri, genç-yaşlı, kadın-erkek demeden bir milyondan fazla insanı katletmişlerdir... Mançur istilasının devamında Çin kuvvetleri, nerdeyse tüm halkın malını, mülkünü alıp bazı şehirleri ateşe vermişler ve ülkeyi Çin toprağı haline getirmek için çok sayıda Çinli göçmeni buralara getirerek yerleştirmişlerdir. General Kao-Chi, 1763 senesinde Çin İmparatoruna gönderdiği resmi raporunda Doğu Türküstan'da 1.200.000 kişinin öldürüldüğünü, 300.000 kişinin Çin`in iç taraflarına sürgün edildiğini, 12.500 ailenin de yerlerinin değiştirildiğini bildirmişti. Aynı zamanda Türk mimarileri tahrip edilmiş, şehirlerin isimleri Çince isimlerle değiştirilmiş, Doğu Türküstan halkı Çince okumaya ve Uygur kadınları çinlilerle evlenmeye zorlanmış, tüm Türklerin rütbesi ne olursa olsun herhangi bir

Çinli'nin karşısında ayağa kalkmak veya atından inerek saygı göstermeye zorlanmıştır. Katledilen Türklerin tüm ganimetleri ise Çinli göçmenler arasında tahsis edilmiştir. Birçok tarihi, mimari eserleri; saray, hükümet konakları ve camileri tamamen yıkmışlar yerine Çin mimarisinden kaleler, kışlalar yaptırmışlardır. Çin kılık kıyafeti Türküstan'da mecburi hale getirilmiş ve bunların yanında çok çeşitli ağır vergiler konulmuştur". http://www.academia.edu/6817332/D%C3%BCnden_Bug%C3%BCne_Do%C4%9Fu_T%C3%BCrkistan

Çin işğalına qarşı zaman-zaman üsyanlar baş qaldırmışdır. Buna 1763-cü ildəki Hamidullah bəyin başçılıq etdiyi müqavimət hərəkatını, 1819-1826-ci illərdəki Cihangir xanın, 1830-cu ildə Yusuf Hocanın, 1846-cı ildə Muhammet Hocanın, 1855-ci ildə Veli Han Törenin rəhbərlik etdikləri üsyanları nümunə göstərmək olar (Türklük, 1991: 21, Şamil, 2011: 30).

Bölgədə işğalçılara qarşı nifrət və qəzəb güclü olsa da, feodal pərakəndəliyi, sənayenin və iqtisadiyyatın inkişaf etməməsi, cəhalət müstəqil və güclü dövlətin yaranmasına imkan verməmişdir. 1864-cü ildə Yakup bəyin yaratdığı Şərqi Türküstan İslam Dövləti də 11 il sonra tarixə

qovuşmuşdur. Belə ki, 1877-ci ildə Yakup bəyin qəflətən ölümündən sonra taxt-tac uğrunda gedən savaşlar ölkənin parçalanmasına və yenidən işğal altına düşməsinə şərait yaratmışdır. 1884-ci il noyabrın 18-də imperatorun verdiyi əmrlə Doğu Türküstan Çinin 19-cu vilayətinə – Sincianqa (Şincanq, Xinjianq da yazılır - Ə.Ş.) çevrilmişdir. Bu da çin dilində "yeni sərhəd", "yeni xətt", "yeni qazanılan yer" deməkdir (ASE, 1984: 452, 9-cu cild, Cengiz, 1997: 1405).



Şəkildə: Osman Batır qarlı dağlarda qurduqları yurdda döyüş dostları ilə birlikdə.

17-ci yüzildən portuqallar, ispanlar, hollandlar, ingilislər Çinə hərbi yürüşlər təşkil etmişlər. Böyük Britaniyanın hücümü qarşısında dura bilməyən Çin orduları Çin İmperatorluğunun 1842-ci ildə alçaldıcı sülh müqaviləsinə qol çəkməsinə, Hankonqu ingilislərə verməsinə səbəb olur. Çin XIX yüzildə Avropanın inkişaf etmiş dövlətlərinin təsiri altında olmasına baxmayaraq işğalçi siyasətindən də əl götürmür. Tez-tez Doğu Türküstana hücumlar edir. Bölgəni təsir dairəsində saxlamaq üçün hərbi birliklərdən istifadə edir, etiraz hərəkatlarını qəddarlıqla yatırır.

Doğu Türküstanın Çinin 19-cu əyaləti elan edilməsindən beş il sonra dağlar qoynunda bir oğlan uşağı dünyaya gəlir. Valideynlərinin Osman adı verdiklər bu uşaq böyüyəndə vətənin azadlığı uğrunda canından keçir və adını tarixə yazdırır.

1. Osman Baturun şəcərəsi, uşaqlıq və gənclik illəri

Osman Batur uzaq keçmişin adamı deyil. Onu görənlər, yaxından tanıyanlardan yaşayanlar hələ də var. Amma onun haqqında keçmiş dövrün qəhrəmanlarından dastan danışırlarmış kimi danışırlar. Yazılarda da bu üslub hakimdir.

Həqiqətlə sevgidən doğan tərənnümü bir-birindən seçmək o qədər də asan olmur. Bizə inandırıcı görünməyən hadisələri şahidlər gördüklərini və mötəbər insanlardan eşitdiklərini təkidlə bildirirlər. Osman Baturun 10 yaşında at minməkdə, ov etməkdə mahir olması, 12 yaşında Böke Baturun partizan dəstəsinə qoşulması, ondan döyüş sənətinin sirlərini öyrənməsi, Böke Baturun ona: "Mənim sənə verə biləcəyim başqa bir şey qalmadı. Mənim işim bitdi. Artıq mənə ehtiyacın olmayacaq. Fəqət millətimizin sənə ehtiyacı var... Kafirlərin sayları Təkləməkan çölündəki qum dənələri qədər olsa belə, bir gün biz yenə onları çöllərin o biri tərəfinə atacağıq" − vəsiyyəti, (Həccımelek, 2010: sayı 7) eləcə də çinlilərin təyyarəsini kəməndlə yerə salması haqqında xatirələr və məqalələr dastanları yada salır.

Onun hünəri ilə yalnız doğulub boya-başa çatdığı bölgədə yaşayanlar deyil, Türk dünyasının vətənpərvərləri, dünyanın cəngavərlik eşqi ilə yaşayan gəncləri də qürur duyurlar. Adı Osman, Ospan, atasının adı isə Silam, İslam kimi yazılan vətənsevər cəngavər 1889-cu ildə Altay vilayətinin Öndiqara bölgəsinin Göytoğay rayonunun Kürti kəndinin Aral yaylağında ortabab kəndli ailəsində doğulub (Yavuzer, 2012: 12, Şamil, 2010).

Osman Baturun babası kəndin mollası olub. Keçmişdə adətən doğum və ölüm qeydiyyatları məscidlərdə, din xadimləri tərəfindən aparılırdı. Bəzən də yazmaq-oxumaq bilən adamlar evdəki qiymətli kitabların titul səhifələrinə ailə üzvlərinin doğum-ölüm illərini, mühüm tarixi hadisələri qeyd edirdilər. Nədənsə, günümüzədək araşdırıcılar Osman Baturun doğulduğu gün və ay haqqında bilgiyə rast gəlməyiblər. Araşdırıcılar onun soykökünün qazaxların Orta cüzünün Altay bölgəsində yaşayan Kerey tirəsindən olduğunu yazırlar. Kerey tirəsinin Molki nəslində Osman İslam oğlunun xatirələrdə yaşayan nəsil şəcərəsi isə belədir: Kocamkul-Taqanak-Arik-Maşan-Aytuvqan-Begalı-Töles-Rayımber-Rayıs-Silam (İslam)-Ospan (Osman). Osmanın atası kənddə əkin-biçinlə məşğul olmaqla və mal-qara saxlamaqla yanaşı, uşaqlara Qurani-Kərimi oxumağı da öyrədərmiş. Dayıları Hamit ilə Turan isə bölgədə keçirilən igidlik sınağı yarışlarına qatılar, adətən mükafat qazananlardan olarmışlar (Yavuzer, 2012: 12). Üç cüzə bölünən qazaxlar bu gün toplu halda Qazaxıstan Respublikası ilə yanaşı, Qırğızıstanda, Özbəkistanda, Rusiya Federasiyasında, Çin Xalq Respublikasında və b. ölkələrdə yaşayırlar. Bu gün onların fərqli

ölkələrdə yaşaması təəccüblü görünə bilər. Əslində isə o yerlər dövlətlər arasında bölünməsə, bir bütün şəkilində olar.

Altay bölgəsi 19-cu yüzildə Rusiya ilə Çin arasında bölündüyündən Osman İslam oğlunun ailəsi Çinin işğal dairəsində yaşamalı olmuşdur. İslam və Qayşa (Ayşa) xanımın nigahından Osman və Dəlixan doğulur. Osman kiçik yaşlarında atasından Quran oxumağı, şəriəti öyrənsə də, ömrünün çoxunu əkinçiliklə, yaylaqda və qışlaqda heyvan bəsləməklə keçirir. 1930-cu illərdə monqollar onu həbs edirlər. O, dostu Akiya ilə birlikdə həbsxanadan qaçır, sərhəddə yaxalanıb Bayan-Ölgeye göndərilir. Ancaq yenidən zindandan qaçır (Yavuzer, 2012: 13).

İki nikahdan yeddi oğlu və yeddi qızı olan Osman böyük ailəsini də əkinçilik və heyvandarlıqdan əldə etdiyi gəlirlə keçindirmişdir. Onun həyat yolu ilə Səttarxan Sərdari-millinin taleyi ilə oxşar cəhətləri də var. Belə ki, Məşrutə hərəkatı başlamasaydı, Təbrizdə döyüşlər getməsəydi, Səttarxan mömin bir insan kimi ömrünü yaşadığı şəhərdəcə başa vuracaqdı. Eyni zamanda Çin məmurları da məscidləri bağlatmağa, Qurani Kərimi və dini kitabları yasaqlamağa, əhalidən tüfəngləri yığmağa başlamasaydı, Osman

da, bəlkə, ömrünün sonunadək heyvandarlıqla məşğul olan sadə bir kəndli olaraq qalacaqdı.

2. Osman Baturun yaşadığı mühit

Çin Avropanın güçlü dövlətlərinin təsir dairəsində olmasına baxmayaraq, Doğu Türküstanda da işğalçılıq siyasətini davam etdirirdi. 1864-1872-ci illərdəki Qansu üsyanı, 1895-ci ildə Şansidəki salurların üsyanları da Çin müstəmləkəçilərinə qarşı mübarizənin davam etdiyindən xəbər verirdi.

1894-cü ildə Yaponiya Çinə savaş elan edir. Bu savaşda, nəinki Yaponiya Çinin bir sıra əyalətlərini öz təsir dairəsinə saldı, hətta Almaniya, Fransa, Böyük Britaniya və Çar Rusiyası Çinin bir sıra ərazilərini "icarəyə götürmək" adı altında ələ keçirmişdilər (ASE, 1984: 352, 10-cu cild). 1901-ci ildə imperialist dövlətlər ilə bağlanmış "Yekun protokolu" Çin imperiyasının yarımmüstəmləkə vəziyyətini qanuniləşdirmişdir.

Dünyada baş verən hadisələri diqqətlə izləyən, Çində mancur sülaləsinin hakimiyyətinə son qoymağa çalışan vətənsevərlər 1894-cü ildə Sun Yat Senin rəhbərliyi ilə Sinçunxoy İnqilabi Təşkilatını yaradırlar. Onların bir il sonra

başlatdıqları silahlı mübarizə məğlubiyyətlə nəticələnir. Təşkilatın öncüllərindən bir qismi cəzalandırılır və bəziləri də xarici ölkələrə mühacirət etməli olur. 1905-ci ildə Sun Yat Sen məsləkdaşlarını toplayaraq Yaponiyada Tunmenxoy (Birləşmiş İttifaq) Partiyasını yaratdıqlarını elan edirlər. 1912-ci ildə isə ölkədəki vətənsevər qüvvələr tunmenxoyçularla birləşərək Qomindan (Çin Xalqının Milli Partiyasının qısaldılmış adıdır. - Ə.Ş.) yaradırlar. Onlar qısa bir zamanda toparlanaraq monarxiyaya, Sin sülaləsinin hakimiyyətinə son qoyurlar. Çin Respublikası yaradıldığı elan edilir. Ölkədə vəziyyət daha da gərginləşməyə başlayır, hərcmərcliyə son qoyulmur. Qomindan partiyası qadağan edilir və rəhbərləri xaricə mühəccirət etməli olur. 19-cu yüzilin sonlarında və 20-ci yüzilin başlarında Çində qarışıqlıq yaranmasına, hakimiyyətdəki boşluğa, Respublika elan edilməsinə baxmayaraq, Şərqi/Doğu Türküstan azadlığına qovuşa bilmir. 1912-ci ildə Şərqi/Doğu Türküstana çanişin (vali) təyin edilən general Yang Zung Sin Ürümçidə əyləşir, müstəqil siyasət yürütməyə çalışır və bölgəni hərbi qüvvələrin gücü ilə idarə edir. Çin hərbi birlikləri isə Kralçılara və Respublikaçılara bölünür. Altay bölgəsindəki

hərbi birliklər özlərini Respublikaçıların tərəfdarı saydıqlarından çox vaxt çanişinin əmrlərinə əməl etmirdilər.

Türküstanda oxumuş, milliyətpərvər bir insan olan Abdulkadir Damolla Kaşqarda yeni üsulla təhsil verən bir məktəb, 1914-cü ildə isə Osmanlı dövlətindən Kaşqara göndərilən giritli Ahmet Kemal bəy Artuş qəsəbəsində Darül Muallimini-İttihadi-Osmani məktəbini açırlar. Çədidçilərin bölgəyə axını da öz təsirini göstərir. Yeni məktəblərin açılmasında, bölgə əhalisinin dünyağörüşünün inkişafında tatar müəllimləri və tacirlərin də rolu böyük olur. Əhalinin savadı və milli şüuru yüksəlir. Qəddarlığı ilə ad çıxaran canışin Yang Zung Sinə 1928-ci ildə sui-qəsd edilir (Göktürk 1993, özəl sayı 1).

http://www.hurgokbayrak.com/yeni_sayfa_150.htm

Doğu Türküstanda üsyanlar, qiyamlar baş versə də, vətənsevərlər azadlıq mübarizəsini alovlandırmağa çalışsalar da, bir nəticə əldə edilmir. Xalqda birlik, mübarizə əzmi olmadığına görə müstəmləkə zülmü davam edir. Rusiyada 300 illik Romanovlar sulaləsinin devrilməsi Doğu Türküstanda da bir qarışıqlıq yaradır. Vətənsevərlər arasında fikir ayrılığını dərinləşdirir.

Boşleviklər silahlı üsyan yolu ilə 1917-ci ildə hakimiyyəti ələ aldıqda müstəmləkəçilik siyasətindən əl çəkəcəklərini, sülhə nail olacaqlarını, sosial ədalət bərpa edəcəklərini vəd etsələr də, əməldə "Dünya inqilabı" adı altında Rusiyanın müstəmləkəçlik siyasətini davam etdirirdilər.



Şəkildə: Monqolustan Ordusuna rəhbərlik edən Çaybalsan Osman Batur ilə söhbət edərkən.

Çində hakimiyyəti ələ almış homindonçular SSRİ ilə münasibətləri yaxşılaşdırıb ölkədə möhkəm bir hökumətə nail olmaq üçün nəinki

kommunistlər, bütün solçu düşüncəlilərlə mülayim davranmağa çalışırlar. Hətta Çini imperialist qüvvələrin təzyiqindən qurtarmaq üçün 1923-cü ildə Milli İnqilabi Ordu da yaradırlar. Sovetlər bu orduya yardım edir. 1924-cü ildə Çin ilə SSRİ arasında müqavilə bağlanır. Sin Yat Senin ölümündən sonra, yəni 1925-ci ildə ölkədə milli inqilabın başlandığı elan edilir. Lakin bu inqilabın da Sovet-Çin müqaviləsinin də ömrü o qədər də uzun olmur. Qomindançılar solçulardan uzaqlaşaraq millətçi qüvvələrlə birləşir və güclü mərkəzləşmiş dövlət yaratmaq üçün 1926-1927-ci illərdə ölkənin quzeyinə hərbi yürüşlərə başlayırlar. Bu yürüşə general Çan Kay Şi başçılıq edirdi. O, döyüşlərdə uğur qazanmasından ruhlanaraq 1927-ci il aprelin 12-də çevriliş edərək hakimiyyəti ələ alır. Çin Milli İnqilab Ordusu Şərqi /Doğu Türküstanı işğal etməklə kifayətlənməyib keçmiş Rusiya ərazilərinə doğru hərəkət etdi. Çin-Çançun dəmiryolunun tutulması keçmiş müttəfiqlərin – SSRİ və Çinin məhəlli müharibəsi ilə nəticələndi. Beləcə, SSRİ 1929-cu ildə Çinlə diplomatik əlaqələrini kəssə də, ölkəni təsir dairəsinə daxil etmək, zəiflətmək üçün daxildə ziddiyətlər yaratmağa, narazı qüvvələri dəstəkləməyə başladı.

Bu da öz təsirini göstərirdi. Ölkənin Güneyində və Mərkəzi bölgələrində Çin Kommunist Partiyasının rəhbərliyi altında Qızıl Ordu birlikləri və yerlərdə hakimiyyətin özəkləri-sovetlər yaradıldı. Hətta 1931-ci ilin noyabrında Juytsaundə (Sayansi əyalətində) Çin Sovet Hökuməti də elan olunmuşdu. Qomindançılar baş verən üsyanları yatırmaq üçün dörd dəfə bölgəyə ordu yeritməli olmuşdu (ASE, 1984: 353, 10-cu cild).

Doğu Türküstanlılar da öz haqlarını tələb etməyə başlayır. Bütün bölgələrdə işgalçılara qarşı müqəddəs cihad elan edilir. Çin sərhəddindəki Qaziyane Kumul şəhərində Salih Dorğa və cəsur sərkərdə Hoca Niyaz Haccinin rəhbərliyi ilə 1931-ci ilin yazında üsyan başlayır. Az bir vaxtda Kumul və ətrafı işğalçılardan təmizlənir. İki ilə yaxın davam edən üsyan öz müsbət nəticəsini verir. Bölgələr işğalçılardan azad olur. Buxara və Kazan mədrəsələrində təhsil almış, SSRİ-ni, Türkiyəni, Misiri, Səudiyyə Ərəbistanını, Hindistanı gəzmiş, elm və dövlət adamları ilə görüşmüş, araşdırmalar aparmış Kulca qazısı Sabit Damolla bütün milli liderləri bir araya gətirərək Doğu Türküstan İslam Cümhuriyyətini elan etməyə qərar verir. 1933-cü il noyabrın 12-də

Kaşqarda Doğu Türküstan İslam Cumhuriyyəti qurulur və qəhrəman bir insan olan Hoca Niyaz Həcci hökumət rəhbəri seçilir. Az bir zamanda Cümhuriyyətin Ayulduzlu Gökbayrağı ucaldılır və hökumət üzvləri konstitusiyanı elan edirlər.

Həmin günlərdə 44 yaşı tamam olan, cəsur insan və vətənsevər Osman Batur ictimai-siyasi həyatdan uzaq durur.

Yeni dövlətin yaranması dindarlara qarşı qəddar münasibətilə seçilən, ateist ideologiyalı SSRİ-ni bərk narahat edir. Türküstanda basmaçı hərəkatını tam yatıra bilməyən Sovet ideoloqları və dövlət adamları yaxşı başa düşürlər ki, qonşuluqda yaranmış İslam dövləti Türküstana güclü təsir edəcəkdir. Bu dövləti beşikdəcə boğmaq üçün yollar axtarırlar. Böyük Britaniya da əsarətdə saxladığı Hindistanın, xüsusən pakistanlıların Doğu Türküstandan nümunə görürüb azadlıq mübarizəsinə qoşulacağından qorxur. 1931-ci ildə Yaponiyanın Quzey-Doğu Çini işğal etməsinə baxmayaraq, Çin Doğu Türküstanı əldən verməк istəmir. Avropanın sənayecə inkişaf etmiş dövlətləri də Doğu Türküstanın onların müstəmləkələrinə də pis nümunə olacağını düşünürlər. Beləcə, Doğu Türküstan bölgədə təklənmiş vəziyyətdə qalır.

25 fevral 1934-cü ildə SSRİ siyasi savadsızlığından və dövlətçilik bacarığının olmamasından istifadə edərək Çin hakimiyyətinə yarı xoş, yarı zor 11 maddəlik bir müqaviləyə qol çəkdirir. Doğu Türküstan hökuməti isə martın 2-də keçirdiyi toplantısında bu müqaviləni tanımadığını bildirir. Bundan istifadə edən SSRİ bölgəyə ordu yeridir. Baş Nazir Sabit Damollanı həbs edərək edam etdirir. Hökumət üzvlərinin bir qismini də həbs edib KQB zindanlarına göndərir. Bəziləri də həbsdən yaxa qurtarıb xaricə qaçır (Göktürk 1993, özəl sayı 1, http://www.hurgokbayrak.com/yeni_sayfa_150.htm).

SSRİ-nin bölgədəki özbaşınalığına müqavimət göstərə bilməyən Çin hökuməti də onunla dil tapmağa çalışır. Vəziyyətdən çıxmaq üçün 1933-cü ildə Şen Şit Say başda olmaqla əyalət hökuməti SSRİ ilə mədəni və ticarət əlaqəsi yaradılması haqqında müqavilə bağlayır. Əslində bu müqavilə əyalətin şərikli idarə olunmasında SSRİ-nin iştirakını təmin etmiş olur (ASE, 1984: 452). Doğu Türküstanın zəngin yeraltı sərvətlərinə imperialist dövlətlər göz dikmişdilər. SSRİ isə bölgəyə nəinki Avropanın inkişaf etmiş müstəmləkəçi dövlətlərini, heç Çini də buraxmaq istəmirdi. 1934-1943-cu illərdə Sovet geoloqları bölgədə beş

volfram, iyirmi dörd neft, on üç qalay, otuz iki qızıl, yetmiş kömür (Urumçinin güneyindəki ehtiyatı 600 milyon ton olan kömür yatağı xüsusilə əhəmiyyətli idi), iki amonyak, on üç kükürt, qurğuşun, dəmir, civə və b. yataqlar kəşf etdilər. Həmin dövrdə SSRİ-də uran yataqları kəşf edilməmişdi. Dünya inqilabı adı altında yeni ölkələr işğal etməyə can atan Sovetlər üçün uran yataqlarının tapılması daha çox önəm daşıyırdı. (http://www.academia.edu/6817332/D%C3%BCnden_Bug%C3%_BCne_Do%C4%9Fu_T%C3%-BCrkistan). Doğu Türküstanın ayıq, vətənsevər insanları isə sərvətlərinin işğalçılar tərəfindən mənimsənilməsi ilə razılaşa bilmir, ona müqavimət göstərirdilər. Buna görə də SSRİ xüsusi xidmət orqanlarının və hərbi hissələrinin əməkdaşları qısa bir zamanda Sintsizyanda 60 min nəfəri məhv edir, minlərlə insanı həbsxanalara və sürgünlərə göndərir. Buranı da Sovetlərdə olduğu kimi idarə etməyə çalışırlar. Dinə, imkanlı adamlara qarşı sərt tədbirlər görürlər. Bu da xalq kütlələrinin haqlı etirazına səbəb olur.

3.Osman Baturun üsyana başlama səbəbi

Maddi sərvətlərinin istismarına o qədər də sərt müqavimət göstərməyən Doğu Türküstanlılar

məscidlərin bağlanmasına, Quranı-Kərimin ayaqlar altına və ya oda atılmasına dözə bilmirlər. Etiraz hərəkatı getdikcə güclənir. Baymırza Hayıt yazır ki, Kaşqarda polis idarəsinə rəhbərlik edən Mavlanov bir gündə altı min nəfəri güllələtmiş, üç yüz mindən çox Doğu Türküstanlını həbs etdirmiş, və on mindən çox ailənin malını, mülkünü müsadirə etdirmişdir (Hayıt, 1995: 332-335). Rus və Çin işğalçılarının bir-birindən o qədər də seçilməyən müstəmləkəçilik siyasəti yerli xalqların qəzəbini artırırdı. Xalq üsyanlarının baş verəcəyini aydın görən hökumət məmurları əhalidə olan ov tüfənglərini belə alırdı (Şamil, 2011: 30).

Osmanın atası və ailəsindən bəzi kişilər, qohumları, kəndliləri silahlarını Çin əsgərlərinə təhvil verməli olurlar. Osman İslam oğlu isə: "Bu gün silahımızı alanlar, sabah canımızı da alarlar. Mən silahımı çinlilərə vermərəm. Güçləri çatır, gəlib alsınlar!" − deyir (Həccımelek, 2010: sayı 7) və 1940-cı ildə dağlara çəkilir. Onun fikrinə şərik çıxan və ona ilk qoşulan dostu Süleyman və böyük oğlu Şerdiman olur. Qısa zaman içərisində Osman bəyin ətrafına Zelebay Telci, Nurgocay Batur, Kaseyin Batur, Canım Han Həccı, Süleyman Batur, Musa Mergen Aktepe, Sulibay, Ökürbay, Nogaybay, Ahid Həccı, Halil Teyci, Karakul Zalin

və başqaları qoşulur (Çinaroğlu, Çetinoğlu, http://www.hurgokbayrak.com/yeni_sayfa_310.htm, http://dgskty.blogspot.com).

Silahını çinlilərə təhvil verən qoca İslam kişi oğluna tutduğu yolda xeyir-dua verir və oğlunu qoruması üçün Allaha dua edir. Anası Ayça xanım isə: "Mən oğlumu bu günlər üçün doğmuşam. Çinlilər yüzillərdir qoyun boğazlayan kimi bizi öldürürlər. Bizim canımız, bizdən öncə ölənlərin canından daha qiymətli deyildir. Bizdən sonrakıların yaşaması üçün oğlum, mən və digər övladlarım da ölməyə hazırıq!", − deyir (Həccımelek, 2010: sayı 7).

Beləcə, 1940-cı ildə Göytoğay dağlarında Sintzsyan valisi Şen Şit Sayın yeritdiyi siyasətin əleyhinə Osman İslam oğlunun başçılığı ilə qazaxların üsyanı başlamış olur. SSRİ-Almaniya müharibəsi bu üsyanı daha da şiddətləndirir. Belə ki, müharibənin başlanğıcında alman ordularının sürətlə irəliləyərək SSRİ-nin ərazilərini işğal etməsi Sovetləri Uzaq Doğudakı hərbi birliklərinin böyük qismini Avropa cəbhəsinə göndərməyə məcbur edir. Homindon hökuməti yaranmış vəziyyətdən yararlanaraq siyasətində bir dəyişiklik edir. Almaniya və Yaponiya ilə ittifaqa girib SSRİ-yə müharibə elan etməsə də, əvvəlki dost

münasibətini də saxlamır. Sərbəst siyasət yeritməyə çalışır. Sovet rəhbərliyinin başı nə qədər Avropa cəbhəsinə qarışsa da, Uzaq Doğudan da əl götürmür, orada baş verənləri diqqətlə izləyirdi. Onlar da Homindon hökumətinə qarşı açıq savaş elan etməsələr də, ölkədəki hakimiyyətdən narazı qüvvələri, milli azlıqları dəstəkləyərək hökumətə qarşı qaldırmağa çalışırlar (Şamil, 2011: 31). Osman İslam oğlunun başlatdığı üsyan isə Sovet rəhbərləri üçün göydən-düşmə olur. Sovet xüsusi xidmət orqanları Osman İslam oğluna açıq və gizli kömək göstərməklə yanaşı, onu nəzarətlərində saxlamaq üçün yanında casuslarını saxlayırlar. Bu casuslar Osman İslam oğlunun etimadını qazanaraq onunla birlikdə döyüş-sələr də, Moskvaya və Sovetlərin Baykal Ordu Birləşməsinin komandanlığına vaxtlı-vaxtında hesabatlar göndərirlər.



4. Göytoqayın çinlilərdən təmizlənməsi və düşmənlərin onun ailə üzvlərini qəddarlıqla öldürməsi

Sovetlərin əlində oyuncaq olan Doğu Türküstan valisi, general Şen Şit Say SSRİ-nin İkinci Dünya Savaşında çətin vəziyyətdə olduğunu gördükdə qorxuya düşür. 1943-cü ildə Sovetlərdən uzaqlaşıb Çan Kay Şi hökuməti ilə gizli və açıq danışıqlar aparır. Çan Kay Şi hökuməti bölgəyə hərbi birliklər və məmurlar göndərir. Şen Şit Sayı vəzifədən götürüb general U Cing Çini Urumçiyə vali göndərdi. Güclənən yeni hökumət Sovet yanlılarını ölkədən xaric edir, kommunistləri və sosialistləri təqib etməyə başlayır. Bu da SSRİ rəhbərliyini bərk əsəbləşdirir. İli bölgəsində hökumətdən narazı qüvvələri qızışdırır. SSRİ-də din adamlarını həbs etdirən, sürgünlərə göndərən, güllələdən hökumət İli vilayətində din xadimi Ali xan Törənin başladığı müqavimət hərəkətini dəstəkləyir.

Belə gərgin günlərdə Osman Batır kimi cəsur insanlar da Sovetlərin işinə yarayır. Ona açıq və gizli köməklik göstərir. Beləcə, Osman İslam oğlunun rəhbərlik etdiyi partizan dəstəsinə qoşulanların sayı sürətlə artır. Müqavimət hərəkatının üzvləri İli vilayətini Çin

işğalçılarından azad etməklə kifayətlənmirlər, qonşu bölgələrin azadlıqsevər insanlarına da kömək edirlər.

Osman Batur min nəfərlik döyüşçüsü ilə Göytoqay şəhərini çinlilərdən azad edir. Lakin hərbi sursat istehsal edən zavodları olmadığından əllərindəki patron və mərmilər də qurtarır. Partizan savaşına alışmış silahlı dəstə şəhərin müdafiəsini təşkil edə bilmir. Göytoqayı çinlilər yenidən tuturlar. Osman İslam oğluna kömək etdiyinə görə əhaliyə divan tutulur. Yüzlərlə insan öldürülür və həbsxanalara salınır.

Düşmənləri Osman İslam oğlu ilə birlikdə döyüşən qardaşı Dəlixanı əsir alaraq öldürməklə kifayətlənmirlər. Savaşa qatılmayan dinc insanlara da olmazın divanını tuturlar. Xüsusən partizan hərəkatına qoşulanların ailələrinə və qohumlarına qarşı çox qəddar rəftar edirlər. Osmanın ikinci arvadından doğulmuş üç oğlu və beş qızını çinlilər əsir almışdılar. Onlardan atalarına qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdılar. Lakin bunun bir nəticə vermədiyini, Osman İslam oğlumun partizan savaşını davam etdirdiyini görüb 18 yaşlı qızı Kabirya ilə 14 yaşlı oğlu Baybollanı anaları Mameyin gözü qarşısında doğrayırlar. 11 yaşlı oğlu Kariy və 9 yaşlı qızı Sariyanı isə diri-diri

20 metr dərinliyindəki quyuya atırlar. Övladlarının qəddarlıqla öldürülməsinə dözə bilməyən ana Mamey xanım ağlını itirərək özünü çaya ataraq intihar edir. Qaynaqlar Osman Baturun övladlarından səkkizinin qəddarlıqla öldürüldüyunu xəbər verir (Çınaroğlu, Çetinoğlu,

http://www.hurgokbayrak.com/yeni_sayfa_310.htm, http://dgskty.blogspot.com).

5. İli, Tarbagatay və Altayın Homindonçulardan azad edilməsi

Almaniyanın SSRİ-nin Avropa hissəsini sürətlə işğal etməsi ölkə rəhbərliyini çətin vəziyyətə salır, bütün diqqət alman ordularını durdurmağa və güclü dövlətlərlə dil tapıb müttəfiqlik müqavilələri bağlamağa yönəldiyindən Doğuda baş verənlər ikinci plana atılır. Sovetlər Böyük Britanya və ABŞ-la münasibətlərini qaydaya saldıqdan, alman ordularının sürətli hücumunun qarşısı alındıqdan sonra Doğuya diqqət artır. Bu məsələdə az qala SSRİ-nin bir bölgəsi kimi idarə olunan, rəsmi sənədlərdə isə müstəqil dövlət kimi göstərilən Monqolustan Xalq Respublikasından istifadə edir.

SSRİ Döğu Türküstanın zəngin yeraltı sərvətlərini, filiz yataqlarını, xüsusən də atom silahı əldə etmək üçün lazım olan uran yataqlarını ələ keçirmək məqsədilə Qomindon hökumətinə müxalif olan güclərdən, xüsusən silahlı müxalifətdən istifadə etməyi planlayır. Planını həyata keçirmək məqsədilə Monqolustan Xalq Respublikasının rəhbərlərindən bacarıqla istifadə edir. Çünki onlar Doğu Türküstanda yaşayan yerli xalqlara psixoloji baxımdan daha yaxın idilər. Yerli xalqlar da ruslardansa monqollara daha çox inanırdılar.

Monqolustan Xalq Respublikasının baş naziri, marşal Xorloqiyn Çoybalsan (08.02.1899-26.01.1952) bu işdə xüsusi fəallıq göstərir. O, gizli danışıqlar və açıq görüşlərlə Osman Baturun rəğbətini qazanır. Sovetlərin və monqolların yardımı öz təsirini göstərir. Döğu Türküstanda əsarətdən qurtulmaq istəyən xalqların və müxtəlif siyasi dünyagörüşlü partiyaların və ictimai təşkilatların hökumətinə qarşı etirazı güclənir. İlk dəfə Doğu Türküstanın Qulca (Yining) şəhəri qomindançılardan azad edilir. Osman İslam oğlunun partizan dəstəsi 1943-cü il iyulun 22-dək döyüşdə böyük uğur qazanır. Qısa bir zamanda İli, Tarbaqatay və Altay vilayətləri Çin hərbi

birliklərindən təmizlənir. Maraqlı burasıdır ki, Doğu Türküstanlıların azadlıq mübarizəsini qomindançılar üsyan adlandırırdılarsa, Çin kommunistləri əksinə, hərəkatı alqışlayır və onu Üç Vilayət İnqilabı adlandırırdılar.

Bulqunda təşkil edilən təntənəli toplantıda Osman İslam oğlu Batur-Bahadur qazaxların xanı elan edilir. 400 nəfərlik dəstəsi ilə Urumçiyə gələn Osman Baturu İsa Yusif Alptəkinin təşkilatçılığı ilə qarşılayırlar (Həccimelek, http://www.yucedevlet.com/buyuk-kahraman-osman-batur-ve-dogu-turkistan-cihadi uzerine.html).

6. Sovet və Monqolustan rəhbərlərinin Osman Baturdan istifadə etmə cəhdləri

Qomindan hərbi birlikləri və polis qüvvələri üzərində Osman Baturun parlaq qələbəsi Sovet rəhbərliyinin diqqətindən yayınmır. Bir neçə il öncə milli qüvvələri məhv etməkdə yerli hökumətə yardımçı olan Sovet xüsusi xidmət orqanları və hərbçiləri, indi onları keçmiş müttəfiqinə qarşı savaşa həvəsləndirir. 1943-cü il oktyabrın 6-da Sovetlərin yüksək rütbəli hərbçisi Paxomovun rəhbərliyi ilə 40 nəfərlik heyət Osman Baturla gizli

görüş keçirir və şəxsən özünə 27 silah, 2600 patron, 10 mauzer, min patronla birlikdə ingilis avtomatı, həmçinin ərzaq verir. Osman Batur bu hədiyyələrin onu ələ almaq, Sovet hökumətinin əlində oyuncağa çevirmək məqsədi daşıdığını anladığından onlara 38 at, 8 xalça və 137 qram qızıl bağışlayır (yvision.kz/yv/151191).

Sovetlər Osman Baturla birbaşa əlaqə qurmaqda ehtiyatlı davranırdı. Yaxşı bilirdilər ki, azad ruhlu bu insanı hər hansısa siyasi qüvvənin əlində alətə çevirmək heç də asan deyil. Odur ki, şəxsi münasibətlərdən, dostluqdan istifadə etməyə çalışırlar. Monqolustan hökumətinin rəhbəri Suxa Baturun oğlu Qalsını da bu işə qoşurlar. Monqolustan hökuməti hətta Osman Baturun doğulduğu kəndin sakinlərindən 360 ailəni Homindonçuların soyqırımından qurtarmaq üçün onları öz ölkəsində yerləşdirir və normal yaşamalarına şərait yaradır (yvision.kz/yv/151191).

1944-cü ilin fevralın 25-də Bulqunun Kobdu çayına tökülən yerdəki sərhəd məntəqəsində (zastavada) Monqolustanlı marşal Çoybalsanın, Monqolustanın Daxili İşlər Naziri Şaqorjanın, onun Sovetlər tərəfindən göndərilmiş məsləhətçisi Qrediyevin, SSRİ-nin Monqolustandakı səfiri

İvanovun, Baykal Cəbhəsinin komandiri Rubinin, bölgədəki Sovet kəşfiyyatının rəhbəri Lanpanikin və b. qeyri-rəsmi şəxslərin iştirakı ilə Osman Baturla görüş keçirilir (yvision.kz/yv/151191). Görüş zamanı Çoybalsan ona Monqolustanın sərhədçilərini nədən öldürdüyünü xəbər aldıqda qətiyyətlə və açıq bir cavab alır: "Onlar mənim igidlərimə sorğu-sualsız atəş açdı, mən də onlara eyni cür - atəşlə cavab verdim. Mənim atdığım güllələr dəqiq olduğundan sərhədçilər ölmüşlər".

Çoybalsan ondan "siz kimi düşmən hesab edirsiniz?" deyə xəbər aldıqda o da: "Dinimə, xalqıma kim qarşı gəlirsə, o mənim düşmənimdir!"- deyir. Çoybalsan ondan gələcək planlarını xəbər aldıqda isə "Bizdə necə bir plan olsun? Ata yurdumuz Altayı, anamız İrtışı dörd bir yandan mühasirəyə alan düşmənin ayaqları altında əzilirsə, neçə-neçə qiymətli igidimiz həbs-xanalarda zülüm görürsə, bizim onları azad etməkdən başqa nə planımız ola bilər ki?!" cavabını alır (Yavuzer, 2012: 15).

Heç bir cəbhəxanası olmayan, silah və hərbi sursatı əsasən düşmən üzərinə basqınlarla qənimət kimi ələ keçirən Osman Batura Suxa Baturun oğlu Qalsının adından 395 beşatılan, iki min güllə, 30

yüngül pulemyot, 6 ağır pulemyot, 45 avtomat, iki min patron hədiyyə edilir (yvision.kz/yv/151191).

Osman Batur əldə etdiyi hərbi sursat və kəşfiyyat məlumatları ilə Homindonçulara qarşı daha qətiyyətlə mübarizə aparır və savaşlarda uğurlu qələbələr qazanır. Həmin illərdə Sovet mətbuatı da Osman Batur və onun döyüş şücaətindən xoş xəbərlər yayır. Sovet siyasi işçiləri Bulqunda Doğu Türküstanhərbi komitələri üçün "Ağ ev" yaratmışdılar. Burada Sovet siyasi işçilərinin "Ağ ev"ə toplaşanlara nə təlimat verdikləri bilinməsə də, bu təlimatlar Osman Baturla Üç Vilayətin rəhbərlərindən general Dalelxan Suqirbayev arasında ziddiyyət yaradır (Kapkızı, 2009).

1944-cü il martın 5-də Monqolustan Xalq Respublikasının baş naziri, marşal Xorlogiyn Çoybalsan Osman Batur uçun ağ keçədən gözəl bir yurd qurdurur və ona ölkəsinin ən yüksək rütbəsi olan "Baturxan" rütbəsini verir. Osman Batur isə Xorlogiyn Çoybalsanın təkliflərini nəzakətlə rədd edərək: "Hələlik mən açıq səma altında yaşamaq istəyirəm, kiminsə tabeçiliyinə keçmək istəmirəm, xüsusən də Çinin". Marşal Xorlogiyn Çoybalsan Osman Baturun planlarından vaxtında xəbər tutmaq, onun mübarizəsini Sovetlərin istədiyi

istiqamətə yönəltmək üçün Noqay Şımşırulu onun yanına müşavir göndərir (yvision.kz/yv/151191).

Sovetlərin Osman Batura yardım etməsinin arxasındakı gizli planların üstü çox-çox sonralar açılır. SSRİ bölgədəki uran yataqlarının istismarına başlamışdır. Osman Batur rusların qızıl, gümüş yataqlarını deyil "qara torpağ"ı aparmalarından şübhələnərək Urumçidəki Amerika konsulluğundan bu məsələni aydınlaşdırmağı xahiş edir. Konsulluq nümayəndəsi də həmin əraziyə aid olan "qara torpaq"dan nümunə götürüb tərkibinin yoxlanması üçün ABŞ-a göndərir (Kapkızı, 2009). Bundan xəbər tutan Sovet rəhbərliyi bərk əsəbləşir.

Osman Batur xalq arasından çıxmış, partizan savaşını gözəl mənimsəmiş bir döyüşçü idi. Onun siyasətlə, dövlətin idarə olunması ilə o qədər də işi yox idi. Odur ki, verilən yüksək adlara, vəzifələrə qətiyyən meyl göstərmirdi. Onun ətrafında yerləşdirilmiş casuslar isə durmadan Moskvanı məlumatlandırırdılar.

Homindon hökuməti isə belə düşünürdü ki, Sovet sərhədlərində mövqelərini möhkəmlətsə, silahlı müxalifətin xaricdən yardım almasının qarşısı alınar və beləliklə, onlar asanlıqla zərərsizləşər. Sovet kəşfiyyatı çinlilərin bu

planından xəbər tutduqlarından Osman Baturu Homindonçılar üzərinə hücuma yönəldir.

1944-cü ilin yayında Qəni və Əkbər Baturların partizan dəstələri də Osman Baturun rəhbərliyi altına keçir. Osman Batur partizan hərəkatı rəhbərindən böyük bir ordu komutanına çevrilir. O, qısa bir müddətdə İli və Tarbaqata bölgələrini homindonçulardan nəinki təmizləməklə kifayətlənmir, hətta oranın idarə olunmasını da təşkil edir (yvision.kz/yv/151191).

Bəzi qaynaqlar isə Monqol ordularının komandiri Çoybalsanın və Sovet generalı Popovun Osman Baturla görüşdən sonra ona 1000 tüfəng, 20 pulemyot və onun patronlarını, hətta iki təyyarə və 200 döyüşçü verdiyini və bu qüvvələrin yardımı ilə çinlilərin əlində olan Bulqun qalası, eləcə də Şinqil, Koktoqay rayonları, bir sözlə Altay diyarının homindonçulardan təmizləndiyini yazır

(www.inform.kz/rus/article/2197557).

Çinlilərin Sintszyan – yeni torpaq adlandırdıqları böyük bir bölgəni etnik üsyanlar bürümüşdü. Uyğurlar, qırğızlar, tatarlar, taciklər, monqollar da öz haqları uğrunda savaşa atılmışdılar. Lakin onlar arasında fikir, iş birliyi yox idi. Çinin şimal-qərbi Sovetlərin təsiri ilə idarəolunmaz hala gəlmişdi.

7. Doğu Türküstan kaolisiya hökumətinin yaranması

Milli azadlıq hərəkatının əsası qazaxların təşkil etdiyi Osman Baturun ordusu sayılırdı. Ona görə də 1944-cü il noyabrın 12-də Alixan Törə Saquninin (milliyyətcə özbək olan, bütövlükdə adı və soyadı Alixantörə Şakirxantörəyev olan dövlət adamının böyük qardaşı Alimxantörə də Doğu Türküstan Xalq Məclisinin üzvü olmuşdur. Çox vaxt ad oxşarlığından hər iki qardaşı bir adam kimi qeyd edirlər. – Ə.Ş.) başçılığı ilə Qulcada qurulan Doğu Türküstan Cümhuriyyəti Osman Batura Milli Qəhrəman adı verir və Altay Diyarına general-qubernator təyin edir. O silahlı qüvvələrin komandiri Dalelxan Suqibayevə müavin təyin edilir, ailəsi qırmızı kərpicdən tikilmiş evə köçürülür, Sovet konsulu oğluna velosiped və başqa qiymətli hədiyyələr bağışlayır.

Döğu Türküstan hərbi birliklərinin Çin ordusunu məğlub edərək Manas çayının sahilinə qədər irəliləməsi Çan Kay Şini də, Sovet rəhbərliyini də qorxuya saldı. Sovetlər qorxdu ki, sərhədlərində yeni güclü bir türk dövləti yaranarsa, özbəklər, qazaxlar, qırğızlar, xakaslar və b. xalqlar da birləşib müstəqil dövlətlərini yaratmağa

ruhlandırar. Zəif, daxili çəkişmələrdən xilas ola bilməyən Çin rəhbərləri də bölgənin zəngin təbii sərvətlərilə ölkəni dirçəltmək istəyirdilər.

Ali xan Törə də savaşı davam etdirmək, Urumçini çinlilərdən təmizləmək istəyirdi. Şincan Əyalət Hökuməti SSRİ rəhbərliyinə savaşın dayandırılması üçün vasitəçilik etməsini xahiş edir. Sovet rəhbərliyi də bu xahişi yerinə yetirir və savaşın durdurulmasını istəməyən, ölkəsinin azadlığı və müstəqilliyi uğrunda mübarizəni sonadək davam etdirən hökumət rəhbəri Ali xan Törəni danışıqlar adı ilə çağırtdırır və KQB əməkdaşlarının əlilə oğurladıb həbs etdirir. Hökumətdəki kadrlar arasındakı fikir birliyinin olmaması Osman Batur kimi siyasətdən uzaq, döyüşlərdə cəsur olan insanları ruhdan salırdı.

Osman Batur evi də, vəzifəni də qoyub yenidən çölə üz tutur. Qara İrtışın sahillərinə gəlir. Orada özünə yurd belə qurmadan açıq havada yaşayır və azadlıq mübarizəsini davam etdirir. Onu təkidlə geri çağırdıqda isə belə cavab verir: "Mən qarda da, bürküdə də vətənim üçün savaşmışam. Meyvəsi isə qızarır. Siz mənə təklif etdiyiniz vəzifəni Dalelxana verin. Mən qazağam və sizin oyununuzda oynayaraq sizin oyuncağınıza çevrilməyi düşünmürəm" (yvision.kz/yv/151191).

Sovet generalı Viktorov polkovnik Doskeyev vasitəsilə Osman Batura "Müstəqillik uğrunda mübarizə" ordeninin I və II dərəcələrini, qiymətli hədiyyələr göndərir. O isə uzun müddət Doskeyevlə görüşmək belə istəmir. Görüşdükdə isə ona: "Mən mübarizə aparmıram ki, Qızıl Ordu güclənsin. Burada vaxt itirmədən özününkülərin yanına qayıt. Bu oyuncaqları da özünüzə götürün. Mən Döğu Türküstanın azadlığı uğrunda sonadək döyüşəcəm" (yvision.kz/yv/151191).

8. İosif Stalinin "nadan türk", "ictimai quldur" adlandırdığı Altay pələngi üçün qurulan sui-qəsdlər

Osman Baturun bu ipə-sapa yatmayan, sərbəst hərəkətləri İosif Stalini özündən çıxarır və Altay pələngini "nadan türk", "ictimai quldur" adlandırır. Monqolustan rəhbərliyinə göstəriş verir ki, Osman Baturu aradan götürsün (Türk qızı Nərmin, http://www.yalquzaq.com/?p=19156). Onlar da bir zamanlar Osman Baturla birlikdə döyüşmüş Teskembaya təlim keçib göndərirlər. Teskembay münasib məqam tapıb Osman Baturu öldürmək istərkən onun zəhmindən özünü itirir.

Adətən, Türküstanda yaşayanların əksəriyyəti boydan kiçik, bədəndən zəif olurlar. Osman İslam oğlu isə 1 metr 85 santimetr ucalığında idi. Onun qısa və qalın boynu, qalın çatma qaşları, yarı qapalı qıyıq gözləri, heybətli görünüşü var idi. Çox az danışan, özünə olduqca inamlı, istədiyi işi həyata keçirəcəyinə əmin bir insan olub. O, keçmiş silahdaşı Teskembaya deyib: "Nəyə baxırsan? Silahı at və otur. Bilirəm, səni məni öldürməyə göndəriblər. Danış görüm səni kim göndərib və məni niyə aradan götürmək istəyirlər?".

Teskembay qorxusundan ona verilən tapşırığı təfsilatı ilə Osman Batura desə də, Osman Batur onu öldürtmür. Keçmiş silahdaşına deyir: "Sən məni öldürmək istəsən də, mən səni öldürməyəcəyəm. Sən bilirsən ki, qazax heç vaxt monqol və sartlara (özbək) silah qaldırmaz, onları nahaqdan öldürməz" (yvision.kz/yv/151191).

Osman Batura sui-qəsd etməsi üçün onun ən yaxın qohumunu seçsələr də bu da baş tutmur. O, sui-qəsdin üstünü vaxtında açır. Tale elə gətirir ki, onun yaşadığı yurdu gülləbaran etsələr də, Osman Batur sağ qalır. 1946-cı ildə SSRİ-nin istəyi ilə Doğu Türküstan Cümhuriyyəti ilə Şincan Əyalət Hökuməti birləşdirilərək Şincan Birləşmiş Əyalət Hökuməti yaradılır. Zhang Zhizhong rəis,

Ahmetcan Kasımov isə müavin təyin edilir. Daşkənddə və Moskvada partiya təhsili alan, kommunist ideologiyalı Ahmetcan Kasımov və onun məsləkdaşları Sovetlərlə sıx bağlı olmuşlar. Buna görə də, yeni qurulan hökumətin ömrü çox da uzun olmamışdır.

Osman Batur və Ali Bəyahim, U Cung-Şin və Ahmetcan Kasımovun rəhbərlik etdiyi hökuməti qəbul etməmiş, çinlilər və ruslara qarşı mübarizəni davam etdirmişlər. Buna görə də Çin Mərkəzi Hökuməti məcbur qalıb 1947-ci ilin əvvəllərində bu hökumətə ilk dəfə üç Türküstanlını: Dr. Məsud Sabriyi (1887-1952) vali, İsa Yusuf Alptəkini Hökumətdə Baş katib və Canım Han Hacıyı Maliyyə naziri təyin edir. Onlar hökuməti Sovet tərəfdarlarından təmizləməyə başlayırlar. Ahmetcan Kasımov və Sovetlərin tərəfdarı kimi tanınan rəhbər işçilər SSRİ sərhəddinə yaxın olan İli vilayətinə qaçırlar. Vəziyyətin belə dəyişməsi Sovet rəhbərliyini bərk narahat edir.

Sovetlər Altay vilayətindəki volfram və qızıl mədənlərini işlətməyə başlayır. Osman Batur onlara mane olmur. Lakin bu da Sovetləri qane etmir. Osman Baturun nəzarətində olan bölgələri Sovet və monqol təyyarələri bombalayır. Vəziyyətin getdikcə gərginləşdiyini görən Osman

Batur Çinin millətçi hökumətinə müraciət edir. 1947-ci ilin mayin 18-də Urumçidə keçirilən danışıqlarda Çin hökumət məmurları Osman Batur ilə danışıqlar aparır, ona və Ali Bəy Rahimiyə Sovet əsgərlərini, kommunistləri və Sovet tərəfdarlarını Altay, İli və Tarbağatay bölgələrindən qovmaq üçün silah verəcəklərini vəd edirlər. Lakin Çin Hökuməti vədinə əməl edə bilmir. Belə ki, cənubda kommunistlərin hakimiyyəti ələ almaları ölkənin hər yerində bir qarışıqlıq yaradır. Beləcə, Osman Batur ilə Ali Bəy Rahimyə vətəni müdafiə etmək üçün silah, hərbi sursat verən olmur. (http://www.hurgokbayrak.com/yeni_sayfa_152.htm)

Altay Müvəqqəti Xalq Cümhuriyyəti rəhbərliyinə seçilən Osman Batur 1944-1945-ci illərdə, Tanrı dağlarının quzeyindəki Doğu Türküstan qazaxlarının yaşadığı bölgələri də Çin istilasından qurtararaq, 1945-ci ilin oktyabrından 1947-ci ilin fevralına qədər üç vilayətdən təşkil olunan Doğu Türküstan Hökumətinin hərbi və mülki rəhbəri kimi valilik, 1947-ci ilin fevralından 1949-cu ilin sentyabrınadək Doğu Türküstan Cümhuriyyəti koalisiya hökumətinin üzvü vəzifələrini yerinə yetirir.

9. Osman Baturun yenidən partizan savaşını seçməsi

Çoxsaylı nizami ordunu saxlaya bilməyəcəyini görən Osman Batur çinlilərə qarşı döyüşmək üçün yenidən dağlara çəkilir. Qazax və uyğurlardan süvari dəstələr hazırlayaraq döyüşlərə atılır.

Osman Baturun mübarizəsi yalnız Sovetlərin diqqətində deyildi. Dünyanın imperialist güclərinin əksəriyyəti ondan öz mənafeləri üçün istifadə etməyə çalışırdılar. Amerikanın Urumçidəki konsulunun köməkçisi Duqlas Şakaranını Osman Batura 100 dunqan (Çində yaşayan, müsəlman xalq) döyüşçü göndərməsi bunun nəticəsidir (yvision.kz/yv /151191).

Sovet liderləri Doğu Türküstan hökumətinin rəhbərlərini Moskvaya dəvət edərək onları Mao-Tsunun rəhbərlik etdiyi Çin Kommunist hökumətinə tabe olmağa çağırır. Doğu Türküstan rəhbərləri isə Sovetlərin onlara əvvəllər verdiyi vədləri xatırladır, Doğu Türküstanın müstəqilliyini qoruyacaqlarını bildirirlər. Onları vətənə gətirən təyyarəni Sovet hərbçiləri Qazaxıstan sərhəddi üzərində vururlar. Təyyarədəkilərin hamısı həlak olur. Həmin günlərdə Çin Xalq Ordusu Doğu Türküstan üzərinə basqın edir. Homindonçular

silahlarını Çin Xalq Ordusuna təhvil verərək onlarla birlikdə döyüşməyə hazır olduqlarını bildirirlər.

Lakin Osman Batur Homindon Hökumətini qəbul etmədiyi kimi, Çin Xalq Ordusu komandirlərinin əmrinə də tabe olmur. Vətəninin azadlığı uğrunda partizan müharibəsini davam etdirir.

Tarqabatay və Altaylardan çıxarılan Osman Baturun komandanlığında bir zaman otuz min nəfərlik bir hərbi birlik vardısa, 1950-ci ildə onu ətrafında dörd-beş minlik bir toplu qalır ki, bunun da bir qismini qadınlar, qocalar, uşaqlar, bir sözlə, dinc əhali təşkil edir.

Çin Xalq Ordusu onun hərbi sursatı tükənməkdə olan, sayı azalmış döyüş dəstəsini Qansu diyarının Xayzı əyalətinə doğru sıxışdırır. Osman Batur qarlı Tibet dağlarında, keçilməz aşırımlarda, dağlarda Çin Xalq Ordusunun ağır silahlardan, tanklardan, toplardan istifadə edə bilmədiyindən yararlanıb döyüşü davam etdirir. Lakin Çin Xalq Ordusunda səfərbərliyə alınmış milyonlarla insan vardı. Ona görə də çinli komandirlər böyük itkilər verməsinə baxmayaraq, Osman Baturu dağlara doğru sıxışdırır.

10. Osman Baturun əsir alınması və güllələnməsi

Osman Batur yalnız özü və döyüş dostları ilə birlikdə Kamambal dağına doğru çəkilmir. Onun ətrafında özünün və döyüş dostlarının ailə üzvləri, arvad-uşaqla birlikdə 3-4 min nəfərə yaxın insan və onların bəslədikləri heyvan sürüləri olur. Sovetlər Birliyindən yardım alan Çin hökuməti nizami ordu yeridərək Doğu Türküstanın vilayətlərini işğal etdikdən sonra 1950-ci ilin noyabrında Osman Baturun yaşadığı bölgəni mühasirəyə alır. Hərbi sursatları qurtardığından və qar-buz dağ keçidlərini tutduğundan, onlar çinlilərin mühasirəsini yarıb qurtula bilmirlər. Çin Xalq Ordusunun silahlı dəstələri tez-tez onların yurdlarına basqınlar edir. Çin Xalq Ordusunun səkkiz alayı 1951-ci il fevralın əvvəllərində Gez Kurt bölgəsinə edilən basqından qazaxların bir qismi qurtula bilir.

Kommunist (bolşeviklər) Partiyasına üzv bileti vermişdilər. Şin Si Seyin Sovetlərin yardımlarının, qayğısının arxasında bölgənin uran, volfram, nikel, sürmə və sair yataqlarını ələ keçirmək durduğunu görürdü. Ona görə də İkinci Dünya Savaşı başlayanda Şin Si Seyin Sovetlərin başının savaşa qarışdığını görüb müstəqil siyasət yeritməyə çalışır.

Şin Si Seyinin agenturası Ahmedcan Kasiminin Sovet Sosialist Respubilkaları İttifaqından gəldiyini bilir və onun üzərində nəzarəti gücləndirir. 1943-cü ildə isə Ahmedcan Kasimini siyasi sığıncaqda həbs edərək Urumçi şəhərindəki həbsxanaya göndərirlər. Onu həbsxanada xüsusi təhlükəli şəxs kimi ciddi nəzarət altında saxlayırlar. Lakin ölkəni bürümüş qarışıqlıq, milli azadlıq hərəkatının güclənməsi hökuməti güzəştlərə getməyə məcbur edir. İli bölgəsindəki üsyançıların təkidli tələbindən sonra 1944-cü ilin oktyabrında Ahmedcan Kasimini və bir çox siyasi dustaqları həbsdən azad edirlər.

Ahmedcan Kasiminin azad edilməsində Sovet hökumətinin də marağı vardı. Çünki milliyətcə özbək olan və özbəkistanda doğulub, boya-başa catan Əlixan Törənin Doğu Türküstan

hökumətinə rəhbərlik etməsi, siyasi fiqur kimi nüfuz qazanması Sovet Sosialist Respubilkaları İttifaqını qane etmirdi. Əlixan Törə dini təhsil görmüş, İslami ehkamlara hörmətlə yanaşan, çıxışlarında və verdiyi qərarlarda "Qurani-Kərim"ə dayanan birisi idi. Onun İslamçı-millətçi görüşləri ateist Sovetləri qane edə bilməzdi. Odur ki, Sovet təbiyəsi görmüş, Sovet xüsusi xidmət orqanlarının yetişdirdiyi Ahmedcan Kasimini Əlixan Törəyə qarşı qoymaq planlaşdırılır.

Çin hökumətinə qarşı üsyan qaldırmış xalq kütlələrinin liderləri arasında fikir birliyi yox idi. Liderlərin bir qrupu silahlı müqavimət yolu ilə azadlığa nail olmağa çalışırdı. Başqa bir qrup, Çin əhalisinin çoxluğunu, uyğurların azlığını nəzərə alaraq silahlı mübarizədən çəkinib çinlilərlə danışığa üstünlük verirdilər. Onların fikrincə, öncə danışıqlarda muxtariyyat məsələsi irəli sürülməli, buna nail olduqdan sonra müstəqilliyə doğru can atılmalı idi. Üçüncü qrup isə dünyanın müstəqil dövlətlərinin, Yaponiyanın, Hindistanın, xüsusən də Türkiyənin və İslam ölkələrinin təsiri ilə azadlığa qovuşmağa üstünlük verirdi. Dördüncü qrup isə Sovet Sosialist Respubilkaları İttifaqı ilə əməkdaşlığı vacib sayırdı.

Ahmedcan Kasiminin rəhbərlik etdiyi qrup Çin zülmündən qurtarmaq üçün Sovet Sosialist Respubilkaları İttifaqı ilə əməkdaşlıqdan başqa bir yol görmürdü. Onlar deyirdilər ki, çinlilərlə savaşsaq, əvvəllər olduğu kimi üsyan yenə qan içində boğulacaq. Çünki Çinin 800 milyona yaxın əhalisindən təşkil edilmiş əsgəri birliklər axın-axın üzərimizə gələcək. Onları məhv etməyə isə nə əsgəri gücümüz, nə də hərbi texnikamız çatar.

Dünya dövlətlərindən, xüsusən, Yaponiyadan, Hindistandan, Türkiyədən və İslam ölkələrindən kömək gözləmək də mənasızdır. Çünki onlar Çinə təzyiq edə biləcək gücdə deyillər.

Çinlilərin verəcəyi muxtariyyat isə başımızın altına yastıq qoyub, dinc yolla vətənimizin işğalını gözləmək deməkdir. Belə ki, Çin hökuməti buraya hər il on minlərlə çinli köçürəcək. 50-60 ildən sonra çinlilərin sayı bizdən qat-qat çox olacaq.

Odur ki, Sovetlərin köməyi ilə Uyğur dövləti qurmaq daha münasibdir. Çünki Sovet Sosialist Respubilkaları İttifaqı çoxmillətli bir dövlətdir, buraya yalnız Ruslar göndərilməyəcək. Ölkədəki türk və müsəlman xalqlarını kommunist mütəxəssisləri göndəriləcək. Onlarla da dil

tapmaq asandır. Həm də rusların sayı az olduğundan Uyğurstana on minlərlə insan köçürüb assimilə siyasəti yeridə bilməzlər.

1947-ci ildə Doğu Türküstanın üç vilayəti, yəni İli, Altay və Çöçək Sovetlərin köməyi ilə çinlilərin zülmündən qurtararaq müstəqill Doğu Türküstan Cümhuriyyətini qurur. Bu cümhuriyyətin Sovetlərin köməyi ilə qurulmuş radyo ötürücüsü, ordusu olur.

Ahmedcan Kasimi 1945-ci ildə Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Sovet Sosialist Respubilkaları İttifaqı arasında bağlanmış anlaşmanın nə ilə nəticələnəcəyini görmürdü. Sovet KQB-si 1946-cı ildə yeni qurulmuş Doğu Türküstan Cümhuriyyətinin rəhbəri Əlixan Törəni oğurlayaraq Moskvaya aparır. Onun yerinə Ahmedcan Kasimini təyin edir.

Ahmedcan Kasimi bütün manevrlərinə baxmayaraq, Sovet Sosialist Respubilkaları İttifaqı verdiyi vədlərə əməl etmir. Mao Tszun ilə danışıqlara gedir. Uyğurstandakı Qomindan hökuməti məğlub olduqdan, Çində Mao Tszinun rəhbərliyi ilə yeni hökumət qurulduqdan sonra Sovet rəhbərliyi Doğu Türküstan hökumətinin rəhbərlərini və Çin hökumətinin nümayəndələrini


Almatıda danışıqlara çağırır. Danışıqlarda Doğu Türküstan hökumətinin rəhbərləri müstəqillik ideyasından əl çəkməyəcəklərini bildirirlər.

1949-cu il avqustun 27-də radiolar belə bir xəbər yaydılar. Guya Mao Tszinuya təbrikə gedən Doğu Türküstan rəhbərləri İl-12 təyyarəsində qəzaya uğramışlar. Bu sirli qəzanın səbəbi hələ də açılmamış qalır. Elə həmin günlərdə Çin əsgəri birlikləri Doğu Türküstana hücum edərək nəinki hərbçilərə, həm də dinc sakinlərə divan tutur.

Ahmedcan Kasiminin adı uzun illər unutdurlmağa çalışılsa da, xalqı heç vaxt onu unutmur. Qulca (Yining) şəhərində ona məzar düzəldirlər.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il dekabrın 9-da, saat 12.14-də efirə getmişdir.

ƏLİXAN TÖRƏ SAQUNİ



(uyğ. ئەلىخان تۆرە, **عليخان تورئ**, *özb. Alihon Tura, rus. Алихан Тюря, Алихан Шакирходжаев, 1884-1976)*

Əlixan Törə Saquni 1884-cü il martın 21-də Qırğızıstanın Tokmok şəhərində (Toqquz Tarada (indiki Sincan Uyğur Muxtar Rayonu ərazisi) doğulduğunu yazanlar da var) doğulub. Milliyətcə özbəkdir. Əlixan Türküstanın məşhur xacələrinin (yəni soyunun imam Əliyə bağlı olduğuna inanılır; İmam Əlinin Məhəmməd əleyhissəlamın qızı Fatimədən doğulanların soyundan gələnlərə seyid, cariyədən olanların soyundan gələnlərə xacə deyilir - Ə.Ş.) soyundandır. Onun atası, bölgənin tanınmış din alimi və nüfuzlu şəxsiyyəti Şakirxontörə Saquni olduğundan Əlixanın soyadı gəncliyində Şakirxocayev yazılmışdır.

Atası oğluna dərin dini təhsil verməyə çalışmışdır. Şakirxontörə Saquni bölgənin ən inkişaf etmiş şəhəri Əndicandakı mədrəsədə dərs dediyindən Əlixan ilk təhsilini orada almışdır. 1905-ci ildə də atası ilə birlikdə Məkkəyə Həcc ziyarətinə gedən Əlixan geri döndükdən sonra təhsilini o dövrün ən nüfuzlu təhsil ocağı sayılan Buxara mədrəsəsində davam etdirmişdir. 1915-ci ildə təhsilini başa vuran Alixan oradan ayrılmır, mədrəsədə dərs deməyə başlayır.

Bolşeviklər hakimiyyətə gəldikdən sonra Rusiya əsarətindəki xalqlara azadlıq verəcəklərini vəd etsələr də sözlərinin üstündə durmurlar. Çar Rusiyasının sərhədlərini bərpa etmək üçün bölgələrdə qurulmuş milli dövlətlərin üzərinə qoşun yeridirlər. İşğalçılara qarşı dirəniş göstərənlər sırasında gənc din alimi Əlixan da olur.

Sovetlərin yeritdiyi siyasəti kəskin tənqid etiyinə, xalqı onlara qarşı mübarizəyə səslədiyinə görə dörd dəfə həbs edilərək Bişkek (Pişkek) həbsxanasına göndərilir. Lakin bu həbslər gənc millətpərvərin iradəsini qıra bilmir. Onların dirənişi çox da uzun sürmür. 1920-ci ildə o, bir qrup məsləkdaşı ilə Kaşqara qaçmalı olur.

Kaşqarda da Sovet xüsusi xidmət orqanlarının əməkdaşları onun rahat yaşamasına imkan vermirlər. 1924-cü ildə ikinci dəfə Həcc ziyarətinə gedib qayıtdıqdan sonra inanclı müsəlmanlar, dindarlar arasında güclü antisovet təbliğatı aparır. Məscid və mədrəsələr basmaçı hərəkatını kadrlarla təmin edən mərkəzlərə çevrilir. Xüsusi xidmət orqanları isə din adamlarının xalq arasındakı nüfuzundan qorxaraq, üsyan dalğasının daha da genişlənməməsi üçün sərt tədbirlər görə bilmirlər.

Həm də yaxşı bilirlər ki, vəziyyət belə davam edərsə, Sovetlərin çoküşü ilə nəticələnər. Odur ki, bölgədə mövqelərini möhkəmlətdikdən, xüsusən də, silahlı müxalifəti dağıtdıqdan sonra xalq arasında ideoloji iş aparan müxalifətə qarşı kütləvi cəza tədbirlərinə əl atırlar.

1930-cu ildə Əlixan Törə həbs edilərək o zaman yalnız SSRİ-də deyil, dünyada adı tez-tez adı çəkilən Arxangelski vilayətindəki həbs düşərgəsinə göndərilir. Sovetlərin sıx tədbirlər almasına baxmayaraq, həbs düşərgələrindəki qəddarlıqlar haqqında xarici qəzetlər çox yazırdı. Bu həbs düşərgəsindən dustaqlar qaça bilirdilər.

1931-ci ildə Əlixan Törə də həbsdən qaçaraq Sovet sərhədlərini keçib, Qazaxıstanın sərhədi yaxınlığındakı İli, Qulca (Yining) şəhərinə gəlir. O, əvvəllər də burada olmuşdu. Bu yerlərin ona tanış olmasına, burada dostları və məsləkdaşları yaşamasına baxmayaraq tutularaq həbsə atılır. Xalqın təkid və tələbi ilə həbsdən azad edir.

İli (Qulca (Yining)) şəhərindəki Beytulla məscidində imamlıq və xalq təbibliyi edən Əlixan Törə bir çox dini və siyasi kitablar yazır. O, ölüm cəzasından qurtarsa da, təqib və təzyiqlərdən qurtara bilmir. Rusiya və Çin müstəmləkəçiləri əleyhinə təbliğat apardığına görə Şing Si Şeyin rəbərlik etdiyi Doğu Türküstandakı Kuomintanq rejiminin məmurları 1937-ci ildə onu tutub Urumçidəki həbsxanaya göndərirlər.

Əlixan Törə 1941-ci ildə azadlığa çıxır. O, adı və familyasından çox qəbul etdiyi, Saqunu təxəllüsi ilə tanınır. Ərəb, fars, rus dillərini dərindən bilən, dünyada baş verən ictimai-siyasi vəziyyəti diqqətlə izləyən Əlixan Törə həbsdən çıxan kimi ciddi siyasi fəaliyyətə başlayır. Xan Tenqri Məscidində işləyən dövrdə Cingizxan Damaolla, Polat Kadir, Selçuk, Ertoğrul, Toxti Kurban və b. əlaqə yaradaraq Çin işğalçıları əleyhinə mübarizəyə başlayır. 1943-cü ildə isə

Muhemmetcan Mahsum, Qulam Kadir, Rehincan, Sabır Həccı, Abdurrauf Mahsum, Nuriddin bəy, Cani Yoldaşov, Salman Bey və b. birlikdə "Şərqi Türküstan Azadlıq Təşkilatı"nı qurur.

Əlixan Törəni Saquni Kuomintanq Partiyasının xalq arasında dayağının zəif olduğundan yararlanaraq İliyə (Qulca (Yining)) qayıdır, orada Beytulla Məscidində baş müdərrislik və imamlıq edir. Cümə namazlarında xütbə oxuyarkən xalqı açıqdan-açığa üsyana səsləyir. Məsləkdaşları ilə birlikdə hazırladığı üç pilləli mübarizə planını xalqa çatdırır.

Hələ Urumçidə ikən məsləkdaşları ilə birlikdə hazırladıqları üç pilləli siyasi proqramlarını reallaşdırmaq üçün fəaliyyətə başlayırlar. Bu proqramın həyata keçməsi Mehmetemin Buğranın rəhbərliyi ilə 1933-cü ildə baş qaldıran üsyan nəticəsində qurulmuş Türküstan İslam Cümhuriyyətinin yenidən reallaşması demək idi.

Şərqi Türküstan Azadlıq Təşkilatı proqramının birinci mərhələdə Sadır Palavan ruhu ilə böyüyən İli (Qulca (Yining)) xalqı arasında mövcud məhəlli toplantılardan və məscidlərdən faydalanaraq, geniş milli azadlıq təbliğatı apararaq, xalqın bütün təbəqələrini

ayağa qaldırmaq, ikinci mərhələdə isə gizli hazırlıq işi apararaq İlidə (Qulca (Yining)) silahlı üsyanla Çinə bağlı Kuomintanq rejimini devirmək, üçüncü mərhələdə Doğu Türküstandakı milli azadlıq uğrunda mübarizə aparan bütün təşkilatlarla birlikdə azad və demokratik Doğu Türküstan hökumətini qurmaqdan ibarət idi.

Əlixan Törə Saquni təşkilata çoxlu cəsuslar daxil olduğunu görüb manevr edir. Təşkilatın buraxıldığını elan edib, gizli fəaliyyətə keçirlər. Milliyətcə tatar olan Abdülkərim Abbasov və Rahimxan Sabirxazıyev, uyğurlardan Abdurauf Möhsün, Mühiddin, Purdunbəy, Muhammadxan Möhsün, Umarhanbəy, Özbək Salihxanbəylə birgə 10 nəfərlik qrupun fəaliyyəti uğurlu alınır.

İkinci Dünya Müharibəsində faşist Almaniyasının məğlubiyyətinin yaxınlaşdığını görən Sovetlər Birliyi Doğu Türküstana diqqətini artırır. Oraya ordu yeridə bilməsə də təqib etdiyi, həbsxanalara göndərdiyi Əlixan Törə Saquni kimi milli dünyagörüşlü, xalq arasında hörməti olan insanlardan istifadə edərək Kuomintanq rejimini devirməyə çalışır.

Şərqi Türküstanın ərazisi olduqca böyük, şəhərlər arasında məsafə uzaq olduğundan rejim

əlehdarları çox vaxt bir birinin fəaliyyətindən xəbər tuta bilmirdilər. Nika bölgəsində 1943-cü ildə Qani Mametbakiyev, Fatih Muslimov ve Ekberin rəhbərliyində də bir təşkilat fəaliyyət göstərir.

1944-cü ilin iyul ayında Altaydakı milli qüvvələr Kuomintanq rejiminin 384-cü alayına qəflətən basqın edirlər. Avqustun 14-də isə Nilkidəki Ulastayda Fatih Ekber, Qəni, Seyit, Hamit ve Osman başda olmaqla 600 nəfərlik silahlı döyüşcü rejim əsgərlərinə qarşı açıq döyüşlərə atılır. Onlar oktyabrın 7-də Nilki şəhərini Kuomintanq rejimindən azad edirlər. Əlixan Törə hökumətin bütün əsgərlərinin şəhərdən kənarda döyüşlərdə olmasından istifadə edərək silahlı üsyanı reallaşdırır.

Sovetlərin yarıgizli dəstəyindən yararlanan üsyançılar 1944-cü il noyabrın 12-də İkinci Şərqi Türküstan Cümhuriyyətini qurduqlarını elan edirlər. Əlixan Törə Saquni yeni qurulan cümhuriyyətin rəisi seçilir. 1945-ci ilin fevralında İli (Qulca (Yining)) azad edilənə qədər 20-dən çox böyük, 300-dən çox kiçik savaş olur. Onların da əksəriyyətinə Əlixan Törə rəhbərlik edir.

1945-ci ilin aprelində marşal rütbəsində Şərqi Türküstan Milli Ordusunun qərərgah rəisi

kimi döyüşə atılır. O, milli qüvvələri üç ordu şəklində qurur. Birinci orduya Urümçini tutmağı, ikinci orduya Altay ve Çöçek bölgəsini, üçüncü orduya isə Güney vilayətlərini işğalçılardan azad etməyi əmr edir.

Doğu Türküstan Cümhuriyyətinin Hərbi Qüvvələrinin rəhbəri kimi azadlıq mübarizəsində böyük işlər görür. 1945-ci il fevralın 3-də Əlixan Törəyə marşal rütbəsi verilir.

1945-ci ilin ortalarına qədər Əlixan Törə hökumətin möhkmlənməsi üçün əlindən gələni əsirgəmir. Milli qüvvələr arasında fikir birliyindən bacarıqla istifadə edən Sovet və Çin tərəfi hüquqlarını məhdudlaşdırır. Bu Sovetlərin siyasətinə tərs gəldiyinə görə İosif Stalinin gizli göstərişi ilə Üsyançı ordu birliklərinin Urumçiyə hücumunun dayandırılması, Kuomintanq rejimi ilə danışıqlara gedilməsi əmr edilir. Əlixan Törə bu əmri yerinə yetirməkdən imtina edir.

Sovet xüsusi xidmət orqanlarının vasitəçiliyi ilə Çan Kay Şek hökuməti ilə İkinci Doğu Türküstan Hökumətinin rəhbərləri arasında səkkiz ay sürən müzakirədə Doğu Türküstanın Çinin daxilində Muxtar quruma çevirmək üçün on bir maddəlik bir plan 1945-ci ilin oktyabrın 14-də qəbul edilir.

Əlixan Törə buna etiraz əlaməti olaraq istefa verir. 1946-cı ilin iyulunda qəbul edilən yeni müqaviləyə əsasən Urumçidə 15-i yerli xalqlardan, 10-u da çinlilərdən olmaqla ortaq bir hökumət qurulur. Beləcə çinli general Zhang Zhi Zhong vali, Ahmetcan Kasım ilə Burhan Şehidi isə vali müavinləri təyin olunurlar.

Əlixan Törənin xalqı yenidən üsyana təhrik edəcəyindən qorxan Sovetlər Birliyi onu cismən məhv etməyi qərara alır. 1945-ci ilin yazında bir axşam Əlixan Töreni İlidəki (Qulca (Yining)) Sovet konsulluğuna dəvət edirlər. KQB əməkdaşları onu konsulluqdan oğurlayıb gizlicə SSRİ-yə gətirirlər. Burada uzun istintaqdan sonra 1949-cu ilin sentyabrında onu Moskvadan Daşkəndə gətirərək ev dustağı kimi saxlayırlar.

O, 2 ili yaxın dostu, həmkarı və tələbə yoldaşı Durjon Kari Baratovla Mir-i-Ərəb Mədrəsəsində (Zelinski küç., indiki Kələndər küç.) yaşayır. Sonra ona yeni mənzil verirlər. Daşkənddə yaşayarkən İslam tarixinə dair çoxcildlik "Tarix-i Muhamadiya" əsərini yazır, "Əmir Temurun buyruqları"nı Özbək dilinə çevirir, Doğu Türküstanda baş verənlər haqqında "Türküstan qayğısı" adlı kitab yazır.

Ömrünü vətən və millət yolunda şam kimi əritmiş, lakin uzun illər xidmətləri layiqincə qiymətləndirilməmiş, bir sözlə, bilərəkdən unutdurulmağa cəhd edilmiş Əlixan Törə Saquni 1976-cı il martın 21-də (bəzi qaynaqlarda fevralın 28-də) dünyadan köçmüşdür.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il aprelin 18-də, saat 12.14-də efirə getmişdir.

MEHMET EMİN BUĞRA



(uyğ. محمد أمين بۇغرا ,
əski əlifba ilə:
محمد امين بوغرا
rus. Мухаммад Эмин Буғра,
türk. ***Mehmet İmin Buğra,***
22 aprel 1901-
29 aprel 1965)

Mehmet Emin Buğra 1901-ci il fevralın 12-də bugünkü Çin Xalq Respublikasındakı Sintszyan-Uyğur Muxtar Rayonunun Xoten vilayətinin İlçə bölgəsində doğulub. Onun atası Pirabidin bölgənin sayılıb-seçilən din alimlərindən olub. Uşaqkən atası Pirabidin Həccıyı itirən Mehmet Emini anası Sərinəbanu xanım böyüdür. Dörd oğlan və iki qızı böyütmək ərsiz qadın üçün asan olmasa da, o, övladlarının təlim-tərbiyəsinə və təhsilinə xüsusi diqqət yetirir. İlk təhsilini yaşadıqları qəsəbədəki mollaxanada alan Mehmet Emini anası 9 yaşında Xotendəki mədrəsədə oxumağa göndərir.

Oranı bitirdikdən sonra təhsilini Xotenin Karakaş nahiyyəsindəki mədrəsədə davam etdirir. Burada "Quranı-Kərim"i, şəriəti, bəlağəti,

fiqhi, eləcə də ərəb və fars dillərini dərindən öyrənir.

Təhisilni uğurla başa vuran 22 yaşlı Mehmet Emini Karakaşdakı Oybağ mədrəsəsinə İslam hüququndan dərs deməyə dəvət edirlər. Mədrəsədə oxuduğu illərdə şeir yazmağa başlayan Mehmet Emin, Karakaşdakı Oybağ mədrəsəsində işləyəndə, orada olan Osmanıllarla tanış olur və onlardan elmi araşdırma metodlarını öyrənir. Uyğur türklərində sayğın və nüfuzlu din adamlarına verilən "Həzrətim" kimi anılır.

1930-cu ilədək Oybağ mədrəsəsində dərs deyən Mehmet Emin tələbələrini zülm və zalıma qarşı barışmaz olmaq ruhunda tərbiyə etməyə çalışır. Bu da açıqdan-açığa Çin işğalçılarının yürütdüyü siyasətə qarşı üsyana hazırlıq demək idi.

Ana dilində, ərəbcə və farsca şeirlər yazan, yeniliyə can atan, təhsildəki Avropa metodlarını öyrənərək, öz işində tətbiq etməyə çalışan gəncin fəaliyyəti mühafizəkarların heç də xoşuna gəlmir.

Mehmet Emin Hindistana və Məkkəyə Həcc ziyarətinə gedib-gələn tacir və hacılar vasitəsilə xarici ölkələrdə türkcə, farsca, ərəbcə çap olunan qəzet, jurnal və kitabları gətizdirir, dünyada baş verən hadisələrdən, eləcə də fikir cəryanlarından

xəbər tutur, oxuduqlarını müqayisə edir, vətəninin azadlığı üçün hansı yolun vacib olduğunu müəyyənləşdirməyə çalışır.

Xalqının Çin işğalından qurtuluşunun yeganə yolunu təşkilatlanmada və fikir birliyində görən Mehmet Emin öncə tələbələri arasında iş aparır. 1929-cu ildə isə Doğu Türküstanın önəmli şəhərlərini gəzir, özünə fikirdaşlar axtarır. Qulca şəhərində müəllim işləyən Sabit Abdulbaki ilə görüş onda ruh yüksəkliyi yaradır. Sonralar Sabit Damolla kimi tanınan Sabit Abdulbaki ilə Mehmet Emin Buğra uzun söhbətdən sonra bu qərara gəlirlər ki, Çin işğalçıları danışıqlarla, siyasi yolla Doğu Türküstanı tərk etməyəcək. Buna görə də silahlı müqavimət hərəkatının başlaması qaçınılmazdır. Bunun üçün müxtəlif bölgələrdə silahlı milli müqavimət hərəkatı təşkil edilməlidir.

Mehmet Emin Buğra 1930-cu ildə "Milli İnqilab Təşkilatı" adı altında gizli bir qurum yaradır. Təşkilatın məqsədi silahlı üsyana hazırlıq, silah və maddi vəsait əldə etmək olur. Bunlar olduqdan sonra işğalçıların əlindən cana doymuş xalq axın-axın onlara qoşulacağını bilirlər.

Quracaqları gizli təşkilatlara xaricdən dəstək qazanmaq üçün Hindistana, Türkiyəyə və Həcc ziyarəti zamanı Məkkəyə gedən Sabit Damollam 1931-ci ildə geri dönərək Xotendə Mehmet Emin Buğra və dostlarının qurmuş olduğu gizli təşkilatın üzvlərinə qoşulur.

Mehmet Emin Buğranın rəhbərliyi ilə qurulan gizli təşkilat 1932-ci il oktyabrın 29-da Karakaş nahiyyəsində hərəkata başlayır. Onlar qısa bir zamanda Qərbdə Kaşqarın Yenihisar nahiyyəsindən, Şərqi Çinin Dunxuanq əyalətinədək olan böyük bir bölgəni Çin işğalçılarından azad edirlər. 1932-ci il fevralın 20-də Karakaşda Mehmet Niyaz Elem və Sabit Damollanın rəhbərliyi ilə Müvəqqəti Xoten Hökumətinin qurulduğunu elan edirlər. Bu hökumətdə Başkomandan vəzifəsini Mehmet Emin Buğra tuturdu. Tarixə "Kumul üsyanı" kimi daxil olan bu hadisədən sonra 1933-cü il noyabrın 12-də bütün milli təşkilatlar toplanaraq Kaşqarda Şərqi Türküstan İslam Cümhuriyyətini qurduqlarını elan edirlər.

Lakin Şərqi Türküstan İslam Cümhuriyyətinin ömrü o qədər də uzun olmur. Sosial ədalətin qalib gələcəyinə inananlar İslam Cümhuriyyətini müdafiə etmir. Çinlilər isə

ölkədəki müsəlmanların böyük bir qismini yeni qurulmuş hökumətə qarşı qaldıra bilir. Mehmet Emin Buğra, Nur Məhəmməd bəy nə qədər cəsarətlə döyüşsə də, Yenihisarın müdafiəsində geri çəkilməyə məcbur olurlar.

Mehmet Emin Buğranın rəhbərlik etdiyi silahlı dəstələr lazımi qədər qüvvənin olmaması səbəbindən döyüşü uduzurlar. Mehmet Emin Buğra 2 aprel 1937-ci ildə Hindistana mühacirətə getməli olur.

O, Hindistanda mühacirətdə olanda da silahlı dəstələr hazırlayıb ölkəsinə dönməyi planlaşdırır. Əfqanıstanın, Kəşmirin Şərqi/Doğu Türküstana yaxın sərhədlərində ciddi iş aparır. Lakin ingilislər ona mane olur, bu azadlıq mücahidini həbs etmək istəyirlər. Mehmet Emin Buğra Əfqanıstana sığınaraq burada Abdullah Yarkend adı ilə yaşayır və təşkilati işlərlə deyil, tədqiqatla məşğul olur. 1920-ci illərdə Türkiyənin Azərbaycanda səfiri olan, sonra Əfqanıstana dəyişilən Memduh Şevket Esendalla görüşləri və söhbətləri ona güclü təsir edir. Bu təsir sayəsində "Şərqi Türküstan tarixi" kitabını yazır.

1939-cu il dekabrın 2-də Əfqanıstana gələn İsa Yusuf Alptəkinlə görüşəndə Mehmet Emin Buğra əvvəlki illərdə olduğu kimi silahlı

mübarizəyə üstünlük vermədiyini, xalqının qanının axıdılmaması, şəhər və kəndlərin xarabalığa çevrilməməsi üçün Çin hökuməti ilə dialoqa getməyə üstünlük verdiyini söyləyir.

Mehmet Emin Buğra 1942-ci ildə Hindistana gedir. İngilislər onu özləri üçün təhlükəli görərək həbs edib Peşavər Mərkəzi həbsxanasına göndərirlər. 6 ay həbsdə qaldıqdan sonra onu ancaq Çinə dönmək şərti ilə 1943-cü ilin yanvarında həbsdən azad edirlər.

1943-cü il aprelin 6-da ailəsiylə Çinə gələn Mehmet Emin Buğra burada doktor Məsut Sabri Baykozi, İsa Yusuf Alptekin, Kadir Efendi kimi Doğu Türküstanın milliyətçi aydınları ilə birlikdə "Yurddaş" cəmiyyətini qurur.

1944-cü ildə Doğu Türküstana gələn Mehmet Emin Buğra burada isə Yusuf Alptəkinlə birlikdə "Altay" jurnalının nəşrini bərpa etmiş, "Erk" qəzetinə məqalələr yazmış, gənclərin milli mübarizə ruhunda böyümələrinə var gücü ilə çalışmışdır. Doğu Türküstanda milli hökumət qurma səyləri uzun sürmüşdü. Sovetlər Birliyi milli mübarizənin öncüllərinə müxtəlif təsirlər göstərərək 1946-cı ildə Çinlilərlə ortaq hökumət qurmağa razılaşırlar. Bu hökumətdə o, Bayındırlıq naziri vəzifəsini icra edir. Lakin ortaq

hökumətin ömrü uzun olmur. Sovetlər Birliyi diplomatik danışıqlar adı altında hökumətin rəhbərlərindən bir qrupunu Moskvaya dəvət edir. Onlar geri döndükdə isə Qazaxıstan üzərində təyyarələri vurulur. Elə həmin gün Çinin kommunist hökuməti bölgəyə qoşun yeridərək milli düşüncəli insanlara divan tutmağa başlayır.

Mehmet Emin Buğra təqibdən qurtularaq Hindistana qaça bilir. Muhacirətdə uygur dilində yazdığı "Şərqi Türküstan tarixi" kitabını Kabulda nəşr etdirir (1952-ci ildə isə kitab İstanbulda "Doğu Türküstanın dünü, bugünü" adı ilə çap olunur). Üç ilə yaxın Hindistanda qaldıqdan sonra orada heç cür mübarizəsini davam etdirə bilməyəcəyini görüb Türkiyəyə gəlir və İstanbulda "Türküstan" adlı jurnalın nəşrinə başlayır. Az vaxtda bu jurnal Doğu Türküstanın azadlıq mübarizəsi aparanların orqanına çevrilir.

1953-cü ilin payızında isə keçirdiyi infarkt (qəlb krizi) nəticəsində uzun müddət yataq xəstəsinə çevrildiyindən jurnalın nəşrini davam etdirən olmur.

Türkiyə vətəndaşlığını qəbul edən və Ankaraya köçən Mehmet Emin Buğra Doğu Türküstan Dərnəyini qurur və 1956-cı ildə ayda

bir sayı çıxan "Doğu Türküstanın səsi" jurnalının nəşrinə başlayır.

Ömrünün sonunadək Doğu Türküstanın azadlığı uğrunda mübarizə aparan Mehmet Emin Buğra 1965-ci ildə Ankarada dünyasını dəyişir.

Mehmet Emin Buğranın ölümündən 47 il, vətənini tərk etməsindən 62 il keçməsinə baxmayaraq hələ də Çin ideoloqları onu qorxu ilə xatırlayırlar. Çin Kommunist Partiyasının ideoloji işlər müdürü Çiyen Boçün bir məqaləsində yazır:

"Sincianda ziyalılar və gənclərdə Türk milliyyətçiliyinin xortlamasında Mehmet Emin Buğranın 1930-ci illərdə Doğu Türküstan azadlıq mübarizəsinə təsiri və sonra onun yazdığı "Şərqi Türküstan tarixi" adlı kitabı əsas ideoloji rol oynamaqdadır".

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il aprelin 5-də, saat 12.14-də efirə getmişdir.

SABİT DAMOLLA ABDÜLBAKİ



(uyğ. Sabit Damullam hadji, əski əlifba ilə: ثابت داموللا آبدولباکی, *rus. Сабит Абдулбаки Дамулла, iyun 1883, Artuş -iyul 1934, Aksu)*

Sabit Damolla Abdülbaki hicri-qəməri təqvimi ilə 1310-cu il, miladi təqvimi ilə 1883-ci ildə Kaşqar vilayətinin Artuş qəsəbəsində anadan olub. İndi bu yerlər Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar rayonuna daxildir. Artuş qəsəbəsi daha çox tarixi Qaraxanilər İmperatorluğunun məşhur hökmdarlarından Əbdülkərim Satuk Buğranın məzarı olan yer kimi tanınır.

Sabit Damolla Abdülbaki uşaqlığında məhəllədəki mollaxanada oxuyub. Mollaxanada "Quranı-Kərim"i oxumağı və İslam dinin qanunlarını öyrəndikdən sonra təhsilini bölgənin din alimlərinin yanında davam etdirib. Bilik və bacarığı ilə seçildiyinə görə ona dövrün böyük klassik təhsil ocaqları olan Buxara şəhərinə

getməyi məsləhət görüblər. O, dövrlər Buxara Rusiya işğalı altında olan Türküstan quberniyasına daxil idi. Burada hökumət dairələri Avropa tipli məktəblər açmağa, yerli ziyalıları Avropa tipli təhsil ocaqları yaratmağa həvəsləndirsə də, orta yüzilliklərdən mövcud olan mədrəsələr də öz işlərini davam etdiridi.

Buxarada mükəmməl mədrəsə təhsili aldıqdan sonra vətənə dönən Sabit Damolla Abdülbaki bir müddət Kaşqardakı Xanlıq Mədrəsəsində müdərrislik etmiş, yəni bu günkü qaydalarla professor kimi işləmişdir. Dini biliklərə dərindən yiyələnməsi, Quran ayələrini günün hadisələrinə tətbiq etmə bacarığı, doğruluğu, cəsarətliliyi ona bölgədə böyük nüfuz qazandırır. Məhz buna görə də İli vilayətinə qazı, dini işlər üzrə hakim seçirlər. Orada çox işləyə bilmir. Qulca camaatının xahişi ilə 1929-cu ildə oraya gələrək vaizlik edir.

35 yaşında ikən xalq arasında ədalətli qazı, bacarıqlı vaiz və din alimi kimi tanınan Sabit Damolla Abdülbaki Məkkəyə, Həcc ziyarətinə yola düşür. Ziyarətini başa vuran kimi geri dönmür. Həcc ziyarətinə gedərkən keçdiyi bölgələrin iqtisadi, siyasi vəziyyəti, demoqrafiyası, əhalinin milli tərkibi və dini

inancları ilə maraqlanır və öyrəndikləri haqqında qeydlər götürür. Sonralar bu qeydlərindən həmyerlilərini maarifləndirmək üçün istifadə edir. O zaman Osmanlı dövlətinə daxil olan Səudiyyə Ərəbistanı, Misir, İstanbul və Rusiyanın müxtəlif şəhərlərində görüşdüyü ziyalılar, dövlət adamları onun dünyagörüşünün formalaşmasına güclü təsir edir.

Həcc ziyarətinə gedərkən əsas diqqəti İslami biliklərin yayılmasına, soydaşlarını şəriət ehkamlarına əməl etməyə yönəldən Sabit Damolla Abdülbaki oradan vətənə bir siyasi xadim kimi qayıdır. O başa düşür ki, işğalı altında olan xalq heç vaxt fikrini isdədiyi kimi söyləyə bilməz. Xalqa ənənəsini, dinini olduğu kimi yaşatmağa imkan verməzlər. Buna görə də xalqı azadlıq uğrunda mübarizəyə səsləyir.

Azadlıq mübarizəsinə gedən yol isə İslamda cihad adlanır. Vətənə döndükdən sonra Doğu Türküstanı gəzərək cihad, cihadın şərtləri və qaydaları haqqında mühazirələr oxumağa başlayır. Onun söhbətləri yalnız məscidlərdə deyil, yas məclislərində, xeyir-şər toplantılarında da maraqla qarşılanır.

Din aliminin cihad haqqında söhbətlərinin böyük marağa səbəb olması heç də təsadüfi

deyildi. Bölgə rəsmən Çin işğalı altında olsa da Sovet Rusiyası buranı təsir dairəsinə sala bilmişdi. Bir çox rəhbər kadrlar, məmurlar ya ruslar idi, ya da Rusiya xüsusi xidmət orqanlarının tapşırıqlarını kor-koranə və can-başla yerinə yetirən yerli kadrlardan ibarət idi. Bolşeviklərin dinə qarşı apardıqları mübarizə, xüsusi mülkiyyəti ləğv etmə cəhdləri, kütləvi həbslər, sürgünlər, azad fikirli insanlara qarşı yeritdikləri açıq və gizli terrorlar xalqı boğaza yığmışdı.

Sabit Damolla Abdülbaki zülmün belə davam etməyəcəyini, xalq üsyanlarının baş verəcəyini öncədən görürdü. Odur ki, kortəbii üsyanların baş verməməsi, xalqın enerjisi və gücünün boş yerə sərf edilməməsi üçün məsləkdaşları ilə götür-qoy edir, üsyanları idarə edəcə biləcək, düzgün yönləndirəcək bir təşkilat qurmağa çalışır. O, Hotendə üsyan baş verməzdən öncə milli azadlıq hərəkatının öncüllərindən Mehmet Emin Buğra ilə etdiyi söhbətlərində, üsyan baş verdikdə qonşu dövlətlərdən yardım almağa ehtiyac olacağını söyləyir.

Lakin hansı qonşu dövlətdən yardım almaq məsələsi sual altında idi. Çünki qonşu dövlətlərinin heç biri sərhədləri yaxınlığında yeni

bir türk dövlətinin qurulmasını, türklərin yenidən düyaya bir güc kimi çıxmasını istəmirdi.

1930-cu ildə Qulcada görüşən iki millətpərvər vətənin yeganə xilasını müstəqil dövlətdə görürlər. Bu dövləti qurmaq üçün Sabit Damolla Abdülbaki dəstək üçün xarici ölkələrə səfərə çıxır, Mehmet Emin Buğra isə üsyana ilk başlayacaqları Hoten şəhərinə gedir. Liderlər xalqın coşmuş qəzəbini idarə edə bilmirlər. Sabit Damolla Abdülbaki xaricdə ikən Hotendə üsyan başlayır.

Sabit Damolla Abdülbaki üsyanı milli azadlıq hərəkatına çevirmək üçün Hindistandan Hotenə yola düşür. O, Mehmet Emin Buğra ilə məsləhətləşdikdən sonra Yarkənddəki Hotenli hərbiçilərdən 2000 nəfərini rəhbərliyi altına alıb Kaşqarda yola düşür. Kaşqarda Çin hökümətinə xidmət edən, yerli xalqlardan təşkil edilmiş çin əskəri birliyinin rəhbəri Tomurin dəstləri ilə birləşərək yeni şəhər qalasına sığınmış döngənləri tərksilah etmək üçün hərəkətə başlayır. Dunqanlar müsəlman olsalar da, türk xalqlarından deyildilər. Ona görə də gah müsəlman olduqlarına görə uyğur, tatar, qırğız və qazaxlara meyl edirdilərsə, gah da çin

məmurlarının əmir və göstərişlərini yerinə yetirir, onların tərəfini saxlayırdılar.

Doğu Türküstanda üsyan başlasa da, üsyançılar arasında fikir və hərəkət planlarında birlik yox idi. Sol düşüncəli, bolşevik meylli uyğurlar və bölgədəki başqa türk xalqlarının nümayəndələri də Sabit Damolla Abdülbaki və Mehmet Emin Buğradan razı deyildilər. Sabit Damolla Abdülbakini İslamçılıqda, xalqı geriyə çəkməkdə ittiham edirdi.

Tomuru da qızışdırırdılar ki, Sabit Damolla Abdülbaki Kaşqari olduğuna və xalq arasında böyük nüfuz qazandığına görə üsyan başa çatdıqda hakimiyyəti ələ alacaq və onu hakimiyyətdən uzaqlaşdıracaq. Belə dedi-qoduların yayılmasından çinlilər də bacarıqla istifadə etdilər. Tomura general rütbəsi verir və ordu komandiri təyin edirlər. Şöhrətə aldanan Tomur 2 avqust 1933-cü ildə gecə vaxtı, keçmiş mübarizə yoldaşları olan Sabit Damolla Abdülbaki və Mehmet Emin Buğra xanın qardaşı, hərbi birliyinin rəisi Şa Mensur kimi tanınan Abdullahı həbs edir və Hotendən gəlmiş 2000 hərbçini də tərksilah etməyə çalışır.

O, mübarizəyə son vermədən dünənədək mücahidlərlə birlikdə yeni şəhərdəki dunqanlara

qarşı vuruşan Tomurun əskəri birlikləri indi mücahidlərə qarşı savaşır. Tomurun ən bacarıqlı və təcrübəli zabitlərindən olan Hafizin rəhbərliyi altındakı əskəri birlik mücahidləri Hotendən gəlmiş əskəri birliklərini, tərksilah edə bilmədikləri əskərləri Karakaşa qədər təqib etsələr də, döyüşlərin sonrakı gedişində özləri çətin vəziyyətə düşürlər. Mücahidlər onları Yarkəndə qədər geri oturda bilirlər. Bu savaşda hər iki tərəfdən minlərlə müsəlman şəhid olur.

1933-cü il sentyabrın 28-də Tomur bir gəzintidən dönərkən Kaşqarda döngən hərbçiləri tərəfindən öldürülür. Yaranmış qarışıqlıqdan bacarıqla istifadə edən Sabit Damolla Abdülbaki həbsdən çıxaraq yeni hökumət qurmaq uğrunda mübarizəyə başlayır.

1933-cü il noyabrın 12-də Kaşqarda ay-ulduzlu, göy rəngli bayraq rəsmi idarə və təşkilatların üzərində dalğalanır, Doğu Türküstan İslam Cümhuriyyətinin qurulduğu elan edilir. Hindistan radiosu ilə də yeni dövlət qurduqlarını dünyaya elan edirlər.

Nə yazıq ki, yalnız Əfqanıstan bu dövləti tanıdığını rəsmən elan edir. Türkiyə mətbuatında yeni dövlət haqqında xoş sözlər yazılsa da, hökumət rəsmi münasibətini bildirmir.

Müsəlman dövlətləri də Avropa və Amerikanın qorxusundan yeni yaranmış dövləti tanımırlar.

Mehmet Emin Buğranın prezident, Sabit Damolla Abdülbaki baş naziri olduğu bu hökumətin ömrü nə yazıq ki, uzun olmadı. Urumçidə Çin valisi Şinq Si Şey Hoca Niyaz Həccimi vali yardımçısı təyin etdi. Onun da başı hakimiyyət savaşlarına qarışdı. Bundan bacarıqla yararlanan Sovet KQB-si öz agenti Yusifcanın vasitəsilə Hoca Niyaz Həccimlə əlaqə yaratdı. Ona vəd etdilər ki, yeni yaranmış hökuməti ləğv etsə, ona silah verəcəklər.

Doğu Türküstan İslam Cümhuriyyəti qurucuları Hoca Niyaz Həccimi cümhur rəisi elan etmələrinə baxmayaraq o, Sabit Damolla Abdülbaki və Mahmut Mahmutini 1934-cü il aprelin 11-də həbs etdirərək Aksuya göndərdi. Rusiya ilə Doğu Türküstanın sərhəddindəki Ergaştam məntəqəsində Hoca Niyaz Həccimi Sabit Damolla Abdülbaki ruslara təslim edir. Lakin ruslar ona vəd etdikləri silahları vermir, Hoca Niyaz Həccimə məsləhət gördülər ki, silah almaq əvəzinə Urumçiyə gedib vali Şinq Si Şeye müavinlik etsin.

Rusların da Çin generalı, vali Şinq Si Şeyə təhvil verdikləri Sabit Damolla Abdülbaki

Urumçiyə gətirilir. Uzun istintaqdan sonra Aksu şəhərinə aparılaraq 1934-cü ilin uyul ayında öldürülür. Sabit Damolla Abdülbaki Urumçidə şəhid edilsə də, onun səpdiyi toxumlar məhv olmur, zaman-zaman cücərir. Başı biçilsə də, kökləri sağlam olduğundan yenidən baş qaldırır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-cü il oktyabrda, saat 12.14-də efirə getmişdir.

YUSİF XAS HACİB BALASAQUNLU

(uyğ. يۈسۈپ خاس هاجىپ**;**
qaz. Жусуп Баласағын,
rus. Ю́суф Хасс Ха́джиб Баласагу́ни,
1019-1075/77)



Yusif Balasaqunlu 1019-cu ildə Türküstanın Balasaqun şəhərində doğulub. Bugün də tədqiqatçılar ədəbiyyat tariximizdə xüsusi yeri olan "Qutadğu bilig" əsərini türklərin İslamı qəbul etdikdən sonra əruz vəznində yazdıqları ilk fəlsəfi-sosioloji poema adlandırırlar. Müəllifinin ömür yolu və başqa əsərləri haqqında geniş bilgi yoxdur. Əsərin özünü diqqətlə oxuyub Yusif Balasaqunlunun ömür yolunu müəyyən-ləşdirirlər. Buna görə də araşdırıcıların bəzisi onun 1015-1018-ci illərdə doğulduğunu, bəzisi isə 1021-ci ildə anadan olduğunu yazırlar. Azərbaycan Sovet Ensiklopediyasında da ədibin 1021-ci ildə doğulduğu göstərilir. Doğum tarixi arasındakı fərqin 6-7 il göstərilməsini normal saymaq olar. Şair Doğu Türküstanın Balasaqun

şəhərində dünyaya gəldiyinə və ya uzun müddət orada yaşadığına görə şəhərin adını özünə ləqəb seçib.

O dövrün böyük mədəni mərkəzlərindən olan Kaşqar şəhərinə 1068-ci ildə köçən Yusif Balasaqun orada 18 ay "Qutadğu bilig" üzərində işləyib və 1069-cu ildə Qaraxanlılar dövlətinin başçısına, şairin sözü ilə desək, Məşriqin və Çinin hökmdarı Tabğaç Buğra xaqana hədiyyə edib. Tabğaç Buğra xaqan əsəri oxuyub heyrətə gəlib və Yusif Balasaquna Ulu Xas Hacib, yəni saray naziri, saray işlərinin rəhbəri vəzifəsi verib.

Doğu Türküstandakı Qaraxanlılar dövlətinin elmə, sənətə və ədəbiyyata yüksək qiymət verməsinin nəticəsi idi ki, həmin dövrdə böyük dilçi, lüğətçi alim Mahmud Kaşqarlı dünyanın ilk enskilopediyalarından olan "Divanü lüğati-it türk" adlı möhtəşəm abidəni yaradıb.

Bu günkü türkcəmizdə "qut" səadət, xoşbəxtlik demək olduğundan Yusif Xas Hacib Balasaqunlunun ana dilində yazdığı "Qutadğu bilig"i indi "Səadət biliyi", "Bəxtiyarlıq sənəti", daha çox "Xoşbəxtliyə aparan elm", "Xoşbəxtlik bəxş edən elm" kimi yazırlar. Müəllif əsərinin dilini "xaqaniyyə" adlandırır. Günümüzün araşdırıcılara görə isə "Qutadğu biliğ"in dili türk

dillərinin güney-batı qrupuna, yəni Oğuz qrupuna yaxındır. 13200 misradan, 6600 beytdən ibarət, məsnəvi şəklində yazılmış poemada yeri gəldikcə şair rübai formasından da istifadə etmişdir. Əsərin vəzni əruzun kəsik, yəni qısa mütəqarib bəhri kimi müəyyənləşdirilir.

Kitabın giriş hissəsini nəsrlə yazmış Yusif Balasaqunin ərəb və fars dillərində belə əsərlərin mövcudluğunu, türk dilində isə "Qutadğu bilig"in ilk örnək olduğunu qeyd edir.

Yusif Xas Hacib Balasaquninin "Qutadğu bilig"i yazdığı dövr müəyyən qədər ziddiyyətli dövr idi. Müxtəlif türk tayfaları arasında hakimiyyət uğrunda gedən mübarizə, daxili çəkişmələr, şübhəsiz ki, adil, ağıllı və güclü hökmdar məsələsini zərurətə çevirmişdi. Bir tərəfdən də bu dövrdə Qaraxanlı dövlətində uyğur əlifbasından dövlətin rəsmi yazışmalarının ərəb dilinə keçid dövrü başlamışdı. Bu səbəbdən "Qutadğu bilig" bir dünya görüşündən digər dünya görüşünə keçid dövrünün məhsuludur və əsər yazılarkən də bu amil müəllifə müəyyən qədər təsir göstərmişdir.

11-ci yüzildə yazılmış "Qutadğu bilig" fəlsəfi, xüsusilə sosial-fəlsəfi fikrin zirvələrindən biri hesab edilir. Uzaq və Yaxın Doğu

mədəniyyətlərindən qaynaqlanan bu əsər dünya orta yüzil fəlsəfi və sosial-fəlsəfi fikrinin ayrılmaz hissəsi kimi qəbul edilir. Onun özündən əvvəlki dövrün Çin fəlsəfi və sosial-fəlsəfi, Hind-İran, Şamanizm və Qədim Türk fəlsəfi qaynaqları ilə əlaqələrini izləyərək həmin əsərin bütöv Doğu fəlsəfi fikrinin abidəsi adlandırırlar. Bu da o dövrdə Doğu fəlsəfəsinin yüksək səviyyədə inkişafından xəbər verir. Eyni zamanda bu dövr türk fəlsəfi qaynaqlarının gələcək yüzil türk qaynaqları ilə müqayisəsi və müqayisə əsasında türk fəlsəfi fikrinin təkamülünün, onun orta yüzil Doğu və Dünya fəlsəfi fikrinin təşəkküləndəki yeri haqqında yüksək fikir yaradır.

Əsərini Buğra xanın danışdığı dildə yazması ilə qürur duyduğunu söyləyən Yusif Balasaqunlu bununla da Qaraxanlı dövlətinin rəsmi dilinin türkcə olduğunu söyləmiş olur. "Qutadğu bilig" əslində xaqanlar, şahlar, hökmdarlar, dövləti idarə edənlərin kitabıdır. Çünki bu kitabın əsasında adil və ağıllı hökmdar ideyası dayanır. Ağıllı və adil hökmdar arzusu, ümumiyyətlə, bütün türk dünyasını, türk xalqlarını qədimlərdən narahat edən ən ağrılı problemlərdən olub. İstər bizə qədər gəlib çatan ən qədim folklor nümunələrində, istərsə də qədim yazılı

abidələrimizdə adil və ağıllı hökmdar ideyası daim diqqət mərkəzində olub. “Qutadğu bilig”də isə bu ideya özünü bütün varlığı ilə büruzə verir.

Yusif Xas Hacib Balasaqunlu kitabının ön sözündə əsərinin qısa bir zamanda çinlilərin “Ədəbul-Muluk”, maçinlilərin “Enisul-Memalik”, Doğuda “Ziynətul-Uməra”, farsların “Şahnamə”si kimi məşhur olduğunu yazır. O, turanlılara hakimiyyəti necə əldə saxlamalarından, ordunu necə toplamaq lazım gəldiyindən, səfər yollarının necə seçəcəklərindən, hökmdarla xalqın qarşılıqlı əlaqəsindən və onların hər birinin vəzifələrindən söhbət açır.

“Qutadğu bilig” idarəçiliyin siyasəti haqqında olmaqla, ümumfəlsəfi, sosial, etik, estetik problemləri də ələ alan bir əsərdir. Əsər eyni zaman humanitar və təbiət elmlərin məşğul olduğu problemləri də çox geniş şəkildə öyrədir.

Yusif Balasaqunlu “Qutadğu bilig”i yazmaqla insan həyatının mənasını təhlil edən və onun cəmiyyət və dövlət içindəki vəzifəsini təyin edən bir fəlsəfə, bir həyat fəlsəfəsi sistemi yaratmışdır.

Yusif Balasaqunlu əsəri dörd təməl, Qanun, Kut, Ağıl və Qənaət üzərinə qurduğunu yazır və əsərini Gündoğdu, Aydoldu, Öydülmüş və Odqurmuş adlandırdığı insanların söhbəti

əsasında qurur. 85 fəsildən ibarət olan əsərin ilk on fəsli Tanrı və Peyğəmbər, dörd xəlifə və əsərin təqdim edildiyi Buğra xanın tərifinə, ulduzlara, biliklə ağlın xüsusiyyətlərinə, yaxşılığın faydalarına, dilin məziyyətlərinə, dərin fəlsəfi məna daşıyan məsələlərə ayırır.

Sonrakı fəsillərdə isə müəllif adı verdiyi insanları tanıdır. Gündoğdu İlig hökmdardır və qanunu, yəni ədaləti təmsil edir, onun sözləri qanundur. Aydoldu kutdur, yəni dövlətdir. Öydülmüş Kutun oğludur və ağlı o təmsil edir. Bir zahid olan Odqurmuş isə qənaəti təmsil edir. Dövlət, qanun, hökmdar, dil və bəylik bəhsləri ilə vəzirin, komandanların, Xas Hacibin, qapıçı başının, aşçı başının, elçinin, katibin, xəzinədarın necə olmaları gərəkliyi; məmurların hökmdar üzərindəki haqları, qarabudun adlandırdığı xalqla, bilginlərlə, həzrət Əli soyundan olan seyidlərlə, həkimlərlə, ofsunçularla, röya təbirçiləri ilə, münəccimlərlə, fəqirlərlə münasibətlə və xidmətçilərlə, işçilərlə necə davranmaq lazım olduğu barədə bu dörd varlıq və onları təmsil edən bədii rəmzlər arasında söhbətlər əsərin əsasını təşkil edir.

Ağlın Qənaətin qədərə əsaslanan görüşünü puç etməsi əsərin əhəmiyyətli bir hissəsini təşkil

edir. Gündoğdu, Öydülmüş və Odqurmuş üz-üzə gələrək və məktublaşaraq din və dünya haqqında dərin söhbətlərə dalırlar. Bu hissələrdə varlığın yaranışı, İslam təfəkkürü, iman, İslam təsəvvüfü kimi mövzuları incəliklə işlənilir. Aydın olur ki, dünya adamı da, din adamı da ehtiyacdan xali deyildir. Fəqət hər iki zümrəyə daxil olan insanlar öz ictimai və fərdi vəzifələrini anlayıb idrak etsələr, həyatda öz əbədi borcunu anlayıb yaşasalar, dünya və axirət xoşbəxtliyinə qovuşa bilərlər. Əsərin son fəsli "gənclik", "zəmanənin pisliyi" və müəllifin özünə nəsihətindən ibarətdir. Həyatın acılığından və mürəkkəbliyindən yorulmuş müəllif, zəmanədən şikayət edir və gəncliyə nəsihət edir.

Türk dünyasının şah əsərlərindən olan "Qutadğu bilig"də müəllif folklor motiflərindən, xalq həyatı və məişəti ilə bağlı bədii obraz və bənzətmələrdən geniş istifadə edilmişdir. Buna görə də "Qutadğu bilig"i türklərin dünya mədəniyyətinə ən gözəl töhfəsi sayırlar.

***TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının* məşhurları" rubrikası ilə 2013-cü il 29 noyabrda, saat 12.14-də efirə getmişdir.**

ƏLİ ŞAMİL

DOĞU TÜRKÜSTAN:
YOL QEYDLƏRİ, MƏQALƏLƏR

Direktor: **Səbuhi Aslan**
Dizayner: **Nigar Sadıqova**
Texniki redaktor: **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 09.09.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru

Qeyd üçün: